RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 56 (9801) 14 mart 2025-ci il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Bakıda dünyanın yeni geosiyasi vəziyyəti müzakirə olunur

## Qlobal Bakı Forumu qlobal gündəlikdəki mühüm məsələlərin həllində aparıcı beynəlxalq platformalardan birinə çevrilib




- Biz dörd il ərzində Qoşulmama Hərəkatında sədrlik etdik, təşkilatda 120 ölkə var. Biz COVID dövründə müxtəlif vəziyyətlərdə üzv dövlətlərə dəstək verirdik. Humanitar və maliyyə yardımına gəldikdə, 80-dən artıq ölkəyə kömək etdik.

- Biz Avropadakı tərəfdaşlar ilə fəal əlaqələri saxlayırdıq. Bütün bunlar bir növ Qlobal Cənub ilə Qlobal Şimal arasında körpülərin salınmasına bənzəyirdi.

- Ölkədə nəinki enerji təchizatı çatışmazlığı yoxdur, əksinə, bu gün ölkəmiz onlarla ölkələrə enerji ixrac edir, 12 ölkəyə təbii qaz ixrac olunur. Onlardan 10-u Avropa ölkəsidir və təsadüfi deyil ki, ölkəmiz Pan-Avropa enerji təchizatçısı kimi tanınır.

- Azərbaycan xalqının çəkdiyi əzab-əziyyətləri və Ermənistanın təcavüzünün məhz bizə verdiyi ziyanı bilirik. Biz azad olunmuş ərazilərimizdə görürük ki, barbarlığın səviyyəsi nə yerdədir. Bütün şəhərlər, kəndlər yerlə yeksan olunub və onlar bizim kəndlərimizə, şəhərlərimizə, bizim dinimizə və tarixi irsimizə qarşı bilərəkdən belə hərəkətlər etmişlər. 65 məscidi dağıtmışdılar.

- Biz beynəlxalq hüquq əsasında öz ləyaqətimiz üçün mübarizə apardıq. BMT-nin Təhlükəsizlik Şurasının qətnamələri 27 il kağız üzərində qaldı. Əgər biz öz torpaqlarımızı güc vasitəsilə azad etməsəydik, növbəti 27 il də belə qalacaqdı.

- Biz görürük ki, bu gün Avropa İttifaqı daha güclü hərbi potensial qurmaq üçün siyasətini necə dəyişir. Biz görürük ki, bəzi ölkələr öz resurslarını hərbi potensialının, infrastrukturunun gücləndirilməsi üçün sərf edir. Biz bunu ən azı 20 ildir edirik - 2005-ci ildən etibarən. Həmin vaxtdan etibarən güclü ordu yaratdıq. O ordu əraziləri azad etdi, separatçılığa son qoydu və beləliklə, ölkəmizin ərazi bütövlüyü, suverenliyi tam bərpa olunub. Bu nəinki Azərbaycan xalqının güclü iradəsinin təzahürüdür, o cümlədən bu, beynəlxalq ədaləti nümayiş etdirir.

- Dörd il ərzində 120 ölkəni birləşdirən təşkilatda - Qoşulmama Hərəkatında sədrlik etdik və fərqli durumda olan üzv dövlətlərə, o cümlədən COVID vaxtlarında 80-dən artıq ölkəyə humanitar və maliyyə yardımı göstərməklə onlara fəal dəstək verdik.

- Bakıda COP29-da biz bərpaolunan enerji layihələri üçün maliyyələşmənin əvvəlki 100 milyarddan 300 milyard dollara qədər artırılmasına nail olduq.

- Əfsuslar olsun ki, bu qlobal beynəlxalq tədbir bəzi Qərb medialarında kampaniya ilə müşayiət olundu. Prezident Tramp onları yalan, saxta xəbər adlandırır və onunla tam razıyam. Bu, Azərbaycanı gözdən salmaq, bizi qaralamaq, şayiələr və müxtəlif dezinformasiya yaymaq kampaniyası idi. Bizi ittiham edirdilər ki, neft və qaz hasil edən ölkəyik. Lakin bizdən əvvəl bir sıra ölkələr, o cümlədən Avropada nefti və qazı olan ölkələr var idi.

- Forumda yeni geosiyasi vəziyyət müzakirə olunacaqdır. Siz, yəqin, mənim şərhlərimdən təsəvvür edirsiniz ki, biz hazırda Amerikada nə baş verirsə, ona çox böyük maraq göstəririk. Nəyə görə? Səbəb çox sadədir. Çünki cənab Antoni Blinkenin Azərbaycana aid siyasəti, əslində, 30 il qurduğumuz ABŞ-Azərbaycan münasibətlərini heçə endirdi. Biz hər zaman ABŞ-nin çox etibarlı, yaxın tərəfdaşı olmuşuq.

3-5

## XİN Azərbaycan və Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Saziş layihəsinin mətni üzrə danışıqların yekunlaşmasına dair bəyanat yayıb

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan və Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Saziş layihəsinin mətni üzrə danışıqların yekunlaşmasına dair bəyanat yayıb.

AZƏRTAC xəbər verir ki, bəyanatda deyilir:

"Azərbaycan və Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Saziş layihəsinin mətni üzrə danışıqların yekunlaşdığını məmnunluqla qeyd edirik.

Bununla yanaşı, danışıq aparılmış mətnin imzalanması üçün əsas şərtin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı iddiaların aradan qaldırılması məqsədilə Ermənistanın konstitusiyasına dəyişiklik edilməsi olduğu barədə Azərbaycanın uzunmüddətli və prinsipial mövqeyini bir daha diqqətə çatdırırıq. Eyni zamanda ATƏT-in köhnəlmiş və qeyri-funksional Minsk qrupunun və aidiyyəti strukturların rəsmi şəkildə ləğv olunmasının zəruriliyini vurğulayırıq.

İki ölkə arasında normallaşma prosesi ilə bağlı bu və digər məsələlər üzrə ikitərəfli dialoqu davam etdirməyə hazırıq".

## Azərbaycan ilə Albaniya arasında dostluq əlaqələri mövcuddur



Prezident İlham Əliyev Albaniya Prezidenti ilə görüşüb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Albaniya Respublikasının Prezidenti Bayram Beqay ilə görüşüb.**

2

## XII Qlobal Bakı Forumu yüksək səviyyədə təşkil olunub



Prezident İlham Əliyev Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri ilə görüşüb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Jelka Tsviyanoviç ilə görüşüb.**

2

## Azərbaycanla Bolqarıstan arasında əməkdaşlıq hərtərəfli inkişaf edir



Prezident İlham Əliyev Bolqarıstanın xarici işlər nazirini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Bolqarıstanın xarici işlər naziri Georq Georqievi qəbul edib.**

2

## Azərbaycan enerji təhlükəsizliyi sahəsində Avropanın etibarlı tərəfdaşıdır



Prezident İlham Əliyev Beynəlxalq Enerji Agentliyinin icraçı direktorunu qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru Fatih Birolu qəbul edib.**

2

## Ümumdünya Səhiyyə Təşkilatı üçün Azərbaycanla birlikdə müxtəlif ölkələrdə həyata keçirilmiş layihələr önəmlidir



Prezident İlham Əliyev Ümumdünya Səhiyyə Təşkilatının Baş direktorunu qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesusu qəbul edib.**

2

## Beynəlxalq səviyyəli mühüm məsələlərin müzakirəsi üçün XII Qlobal Bakı Forumu böyük rol oynayır



Prezident İlham Əliyev BMT-nin Ticarət və İnkişaf Konfransının baş katibini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də BMT-nin Ticarət və İnkişaf Konfransının (UNCTAD) baş katibi Rebeka Qrinspanı qəbul edib.**

2

GLOBAL BAKU FORUM

# XII Qlobal Bakı Forumu

*"Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi"*

## Azərbaycan ilə Albaniya arasında dostluq əlaqələri mövcuddur

### Prezident İlham Əliyev Albaniya Prezidenti ilə görüşüb

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, ilk növbədə COP29-un Azərbaycanda uğurla keçirilməsi münasibətilə dövlətimizin başçısına təbriklərini çatdıran Bayram Beqay bu tədbir çərçivəsində aparılan danışıqlar prosesində ciddi nailiyyətlər əldə edildiyini və iqlim gündəliyi ilə əlaqədar vacib qərarların qəbul olunduğunu vurğuladı.

Qonaq Azərbaycan ilə Albaniya arasında siyasi əlaqələrlə yanaşı, iqtisadi-ticari, enerji, turizm və digər sahələrdə də əməkdaşlığın uğurla davam etdirildiyini dedi və bu xüsusda TAP layihəsinin əhəmiyyətinə toxundu, Azərbaycanın Albaniyanın qazlaşdırılması istiqamətində həyata keçirdiyi layihədən məmnunluğunu ifadə etdi.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirdi, COP29-a hazırlıq üçün ölkəmizin qısa vaxtı olmasına baxmayaraq, bütün təşkilati işlərin yüksək səviyyədə həyata keçirildiyini vurğuladı. Prezident İlham Əliyev də öz növbəsində COP29-da iqlim gündəliyi ilə əlaqədar olduqca mühüm qərarların qəbul edildiyini məmnunluqla xatırladı.



İkitərəfli münasibətlərə toxunan dövlətimizin başçısı Azərbaycan ilə Albaniya arasında dostluq əlaqələrinin mövcud olduğunu vurğuladı, enerji sahəsində əməkdaşlığın uğurla inkişaf etdiyini dedi, Azərbaycanın Albaniyanın qazlaşdırılması layihəsində iştirakına toxundu.

Söhbət zamanı əməkdaşlığın perspektivləri və ikitərəfli gündəliyə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Görüşdə XII Qlobal Bakı Forumunun beynəlxalq gündəlikdə duran məsələlərin müzakirəsi baxımından əhəmiyyətinə toxunuldu. Bayram Beqay bu tədbirdə mütəmadi olaraq iştirak etməsini məmnunluqla vurğuladı.

## Azərbaycan enerji təhlükəsizliyi sahəsində Avropanın etibarlı tərəfdaşıdır

### Prezident İlham Əliyev Beynəlxalq Enerji Agentliyinin icraçı direktorunu qəbul edib

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı əvvəlcə Fatih Birola "Dostluq" ordenini təqdim etdi.

Fatih Birol bu ordenə COP29-da Azərbaycanın sədrliyinə və qlobal iqlim dəyişmələri üzrə irəli sürdüyü təşəbbüslərin təşviqinə verdiyi dəstəyə və səmərəli əməkdaşlığa görə layiq görülüb.

Prezident İlham Əliyev Fatih Birola ölkəmizlə həyata keçirdiyi əməkdaşlığa və COP29-da göstərdiyi dəstəyə görə təşəkkürünü bildirdi.

Fatih Birol da öz növbəsində "Dostluq" ordeni ilə təltif olunmasından böyük qürur hissi duyduğunu dedi.

O, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində mühüm rol oynadığını və etibarlı tərəfdaş olduğunu vurğuladı.



COP29-da əldə olunmuş nəticələr münasibətilə təbriklərini çatdıran Fatih Birol bu tədbirdə çox çətin və mürəkkəb danışıqlar prosesinin aparıldığını dedi və iqlim gündəliyi ilə əlaqədar yaxşı nəticələrin əldə edildiyini diqqətə çatdırdı.

Fatih Birol XII Qlobal Bakı Forumuna dəvətə görə təşəkkürünü bildirərək, bu tədbiri beynəlxalq səviyyədə mühüm məsələlərin müzakirəsi baxımından vacib platforma kimi qiymətləndirdi. O, gələcəkdə də forumla əməkdaşlıq imkanları ilə bağlı fikirlərini bölüşdü.

Söhbət zamanı qlobal enerji məsələlərinə dair fikir mübadiləsi aparıldı.

## XII Qlobal Bakı Forumu yüksək səviyyədə təşkil olunub

### Prezident İlham Əliyev Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri ilə görüşüb

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Bosniya və Herseqovinaya rəsmi səfərini və səfər çərçivəsində Jelka Tsviyanoviç ilə keçirdiyi görüşü, aparılmış müzakirələri məmnunluqla xatırladı.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin XII Qlobal Bakı Forumuna dəvətə görə dövlətimizin başçısına təşəkkürünü bildirən Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri bu forumun yüksək səviyyədə təşkil olunduğunu, tədbir çərçivəsində qlobal gündəliyə aid mühüm məsələlərin müzakirə edildiyini vurğuladı.

Jelka Tsviyanoviç COP29 zamanı Azərbaycana səfərini və Prezident İlham Əliyevlə görüşünü məmnunluqla xatırladı,



COP29 çərçivəsində əldə edilən nailiyyətləri yüksək qiymətləndirdi. Söhbət zamanı ölkələrimiz arasında iqtisadi-ticari, enerji, mədəniyyət və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.

## Ümumdünya Səhiyyə Təşkilatı üçün Azərbaycanla birlikdə müxtəlif ölkələrdə həyata keçirilmiş layihələr önəmlidir

### Prezident İlham Əliyev Ümumdünya Səhiyyə Təşkilatının Baş direktorunu qəbul edib

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, Tedros Adhanom Qebreyesus COP29-un Azərbaycanda uğurla keçirilməsi münasibətilə təbriklərini çatdırdı və bu konfrans çərçivəsində əldə olunmuş nəticələri yüksək qiymətləndirdiklərini dedi.

Prezident İlham Əliyev COP29-a hazırlıqla bağlı vaxtın az olmasına baxmayaraq, Azərbaycan tərəfindən bu tədbirin yüksək səviyyədə keçirilməsi üçün bütün zəruri işlərin görüldüyünü qeyd etdi.

Tedros Adhanom Qebreyesus Azərbaycanın Ümumdünya Səhiyyə Təşkilatına verdiyi dəstəyə və könüllü maliyyə töhfələrinə görə təşəkkürünü bildirərək, rəhbərlik etdiyi qurumun Azərbaycanla birlikdə müxtəlif ölkələrdə həyata keçirilmiş layihələrin önəminə toxundu.



Görüşdə Azərbaycanla Ümumdünya Səhiyyə Təşkilatı arasında əməkdaşlıq məsələlərinə, həmçinin BMT strukturlarının gələcək fəaliyyətinə dair fikir mübadiləsi aparıldı. Söhbət zamanı XII Qlobal Bakı Forumunun və onun gündəliyində duran məsələlərin əhəmiyyəti vurğulandı.

## Azərbaycanla Bolqarıstan arasında əməkdaşlıq hərtərəfli inkişaf edir

### Prezident İlham Əliyev Bolqarıstanın xarici işlər nazirini qəbul edib

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, qonaq XII Qlobal Bakı Forumunun əhəmiyyətinə toxunaraq, bu tədbirdə vacib məsələlərin müzakirə olunduğunu vurğuladı.

Georq Georqiev Azərbaycanla Bolqarıstan arasında dostluq münasibətlərinin olduğunu deyərək, əməkdaşlığımızın bu prinsiplər əsasında hərtərəfli inkişaf etdiyini bildirdi. Bu xüsusda, o, ölkələrimiz arasında iqtisadi-ticari, enerji, o cümlədən bərpaolunan enerji, nəqliyyat, mədəniyyət, turizm, insanlararası əlaqələr və digər sahələrdə əməkdaşlıq üçün böyük perspektivlərin olduğunu dedi. Bolqarıstanın xarici işlər naziri Bakı ilə Sofiya arasında birbaşa uçuşların həyata keçirilməsinin vacibliyinə toxundu.

Prezident İlham Əliyev Bolqarıstana rəsmi səfərini və səfər çərçivəsində keçirdiyi görüşləri məmnunluqla xatırladı.



Dövlətimizin başçısı əlaqələrimizin inkişafını qeyd edərək, enerji sahəsində əməkdaşlığa toxundu. Prezident İlham Əliyev Azərbaycan qazının bu gün Bolqarıstan bazarına çatdırılmasının əhəmiyyətini və bunun Bolqarıstanın enerji təminatında rolunu vurğuladı. Azərbaycanla Bolqarıstanın bərpaolunan enerji sahəsində əməkdaşlığı məsələsi qeyd edildi. Dövlətimizin başçısı bu xüsusda Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında bərpaolunan enerji layihəsinə Bolqarıstanın da bir tərəfdaş kimi qoşulması münasibətilə təbriklərini çatdırdı. Bu istiqamətdə də ölkələrimiz arasında əməkdaşlıqdan məmnunluq ifadə olundu.

## Beynəlxalq səviyyəli mühüm məsələlərin müzakirəsi üçün XII Qlobal Bakı Forumu böyük rol oynayır

### Prezident İlham Əliyev BMT-nin Ticarət və İnkişaf Konfransının baş katibini qəbul edib

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, Rebeka Qrinspan COP29-un ölkəmizdə yüksək səviyyədə keçirilməsi və həmin tədbirdə çox mühüm nəticələrin əldə edilməsi münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı.

Söhbət zamanı Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin XII Qlobal Bakı Forumunun əhəmiyyətinə toxunularaq, beynəlxalq səviyyəli mühüm məsələlərin müzakirəsi üçün bu tədbirin böyük rol oynadığı vurğulandı.

Görüşdə ölkəmizlə BMT strukturları arasında uğurlu əməkdaşlığın həyata keçirilməsindən məmnunluq ifadə olundu, Azərbaycanın BMT institutlarının fəaliyyətinə verdiyi könüllü maliyyə töhfələri qeyd edildi. Ölkəmizin 2026-cı ildə Ümumdünya Şəhərsalma Forumuna evsahibliyi edəcəyi bildirildi, Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədləri sahəsindəki nailiyyətləri yüksək qiymətləndirildi.



# XII Qlobal Bakı Forumu

*"Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi"*

# Bakıda dünyanın yeni geosiyasi vəziyyəti müzakirə olunur

## "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusunda XII Qlobal Bakı Forumu işə başlayıb

**Martın 13-də Bakıda, "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusunda XII Qlobal Bakı Forumu işə başlayıb.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev forumun açılış mərasimində iştirak edib.

Əvvəlcə xatirə fotosu çəkdirildi.

XII Qlobal Bakı Forumunu açıq elan edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri **İsmail Serageldin** tədbir iştirakçılarını salamladı, forumda aparılan müzakirələrin xüsusi əhəmiyyət daşıdığını vurğuladı. Sonra çıxış üçün sözü Prezident İlham Əliyevə verdi.

❖ ❖ ❖

Dövlətimizin başçısı açılış mərasimində çıxış etdi.




### Prezident İlham Əliyevin çıxışı

- Xanımlar və cənablar!

Sabahınız xeyir, Bakıya xoş gəlmisiniz.

Mən bütün qonaqlarımızı illik Qlobal Bakı Forumunda salamlayıram. Əvvəlcə, mən bizimlə olduğunuza görə sizə təşəkkürümü bildirirəm. Mən eyni zamanda Nizami Gəncəvi Beynəlxalq Mərkəzini təbrik edirəm ki, bu illər ərzində çox əla işlər görmüşdür və belə bir mühüm beynəlxalq tədbiri təşkil edir.

Biz çox fərəhlənirik ki, Qlobal Bakı Forumu qlobal gündəlikdəki mühüm məsələlərin həllində aparıcı beynəlxalq platformalardan birinə çevrilib. Mən dünən İdarə Heyətinin üzvləri ilə görüşdüm.

Bu gün söyləmək istərdim ki, biz mərkəzin bütün üzvlərinə, onun İdarə Heyətinə, həmsədrləri - xanım Vayra Vike Freyberqaya, cənab İsmail Serageldinə mərkəzin həqiqətən böyük transformasiyasına verdikləri töhfəyə və dünyamiqyaslı fəaliyyətinə görə minnətdarıq. Mən həmçinin söyləmək istəyirəm ki, biz Beynəlxalq Mərkəzin üzvlərinin Azərbaycanda ötən ilin noyabrında keçirilmiş COP29 tədbirində fəal iştirakını görməkdən çox məmnun olduq. Mərkəzin bəzi üzvləri Məşvərət Komitəsində iştirak edirdilər. Mərkəz 16 panel müzakirəsi keçirdi. Əslində, onlara evsahibliyi etdi, onları təşkil etdi və öz pavilyonu ilə daha çox panel müzakirələrdə iştirak etdi. Bir sözlə, həqiqətən, bu, COP29-un uğuruna böyük töhfə idi. Bu, ötən il Azərbaycanda əsas beynəlxalq tədbir idi.

Biz, həqiqətən, çox fərəhlənirik ki, təxminən 200 ölkənin yekdil qərarı ilə seçildik. Bu, bizə olan hörmətin, etimadın təzahürü, eləcə də "yaşıl keçid" üzrə fəaliyyətimizə verilən qiymət idi. Baxmayaraq ki, biz faydalı qazıntılarla zənginik, gündəliyimizdə bərpaolunan enerjiyə diqqət yetirilir. Bu gün artıq qərara alınıb ki, gələn illərdə Azərbaycanın bərpaolunan enerji imkanları faydalı qazıntıdan olan enerji istehsalına, demək olar ki, bərabər olacaq. Bu gün Azərbaycanda yaradılmış enerji istehsalı imkanları 8 giqavatdır. 2030-cu ilə qədər bizim bərpaolunan enerjidən, əsasən günəş və küləkdən, o cümlədən Azərbaycanın azad edilmiş ərazilərdəki hidroresurslardan əlavə 6.5 giqavatlıq enerji güclərimiz olacaq. Beləliklə, biz bu günə olan potensialımızı, demək olar ki, iki dəfə artıracağıq.

Bunun sayəsində biz nəinki neft və qazı, o cümlədən "yaşıl enerji"ni də ixrac edə biləcəyik. Bu rəqəmlər tamamilə realdır. Onlar artıq imzalanmış müqavilələrə və anlaşma memorandumlarına əsaslanır.

Biz artıq həmin layihələrin icrasını görürük. Beləliklə, düşünürəm ki, Azərbaycanda COP29-u təşkil etmək qərarı Azərbaycanın öz enerji sərvətlərinə çox məsuliyyətli yanaşmasından irəli gəlir.

Bir daha qeyd etmək istəyirəm ki, ölkə enerji təchizatı baxımından qıtlıqla üzləşmir. Əksinə, bu gün Azərbaycan ondan artıq ölkənin enerji təhlükəsizliyinə töhfə verir. Onların 12-si Azərbaycandan təbii qaz alır. Bu 12 ölkədən 10-u Avropa ölkəsidir.

Təsadüfi deyil ki, Avropa Komissiyası Azərbaycanı etibarlı tərəfdaş və Pan-Avropa enerji təchizatçısı kimi tanıyır. Bir sözlə, bu gün Azərbaycandan nəql olunan neft və qaz bir çox ölkələrin enerji təhlükəsizliyində və əslində, onun möhkəmləndirilməsində həqiqətən böyük dəyişiklik yaradır. Buna "yaşıl enerji" mənbələrimizi, o cümlədən Azərbaycandan Avropaya gedən, qismən Qara dənizin dibi ilə çəkilən yeni enerji kabelini əlavə etsək, bu, məsuliyyətimizin digər təzahürü və bir çox ölkələrlə sıx tərəfdaşlıq münasibətlərimizin nümayişidir. Təkcə enerji sərvətlərinin olması kifayət deyil. Siz gərək qonşularınızla, onların qonşuları ilə yaxşı münasibətdə olasınız ki, enerji, təhlükəsizlik və bağlantı layihələrini icra edə biləsiniz.

Bağlantı məsələlərinə gəldikdə, mən demək istəyirəm ki, son geosiyasi dəyişikliklərdən irəli gələrək Azərbaycandan keçən yüklərin daşınması həcmi kəskin şəkildə artmışdır. Biz bunun üçün yaxşı hazırıq, çünki biz üzərimizə düşən işi artıq icra etmişik. İndi isə biz, sadəcə, dəniz limanı, dəmiryolu infrastrukturunun buraxılış qabiliyyətini artırmalıyıq ki, son illər ərzində Azərbaycana istiqamətləndirilmiş bütün yükləri qəbul edə bilək. Beləliklə, əlbəttə ki, bölgəmizin - Cənubi Qafqaz bölgəsinin geosiyasi əhəmiyyəti artır və həmin bölgədə biz sülhün bərqərar olunması üçün hələ də çalışırıq.

COP-la bağlı əlavə daha nəyi deyə bilərəm? Birincisi, çox çətin idi, çünki biz tədbiri bir ildən az olan müddətdə təşkil etməli idik. Adətən, ölkələrə hazırlaşmağa iki il vaxt verilir.  Bu, yekdil rəy əsasında uğurla həyata keçirildi.

İkincisi, biz nəticələrə nail olmalı idik. Burada bizə şaxələndirilmiş xarici siyasətimiz kömək etdi. Dörd il ərzində 120 ölkəni birləşdirən təşkilatda - Qoşulmama Hərəkatında sədrlik etdik və fərqli durumda olan üzv dövlətlərə, o cümlədən COVID vaxtlarında 80-dən artıq ölkəyə humanitar və maliyyə yardımı göstərməklə onlara fəal dəstək verdik. Eyni zamanda biz Avropa tərəfdaşları ilə fəal əlaqədə olaraq Qlobal Cənub ilə Qlobal Şimal arasında körpü salan tərəf kimi öz rolumuzu gördük. Düşünürəm ki, biz uğur qazandıq, çünki COP29 zamanı bir sıra mühüm məsələlər üzərində razılığa gəlmək asan deyildi.

Əsas mərhələlərdən, nailiyyətlərdən biri 10 ildən artıq keçilməz nöqtə olan Paris Sazişinin 6-cı maddəsi üzərində konsensus idi. On ildən artıq idi ki, tərəflər razılığa gələ bilmirdi. Lakin biz burada konsensus əldə edə bildik və karbon bazarını işlək etdik. Bir sözlə, bu, prosesin gələcəkdə inkişafı üçün çox əhəmiyyətlidir. Digər mühüm nailiyyət ondan ibarət idi ki, Bakıda COP29-da biz bərpaolunan enerji layihələri üçün maliyyələşmənin əvvəlki 100 milyarddan 300 milyard dollara qədər artırılmasına nail olduq. Bəli, bilirik ki, bəzi ölkələr bundan tam razı qalmadı. Onlar daha böyük artım istəyirdilər. Lakin düşünürəm ki, bizdə maliyyələşmənin üç dəfə artırılması lazımınca qiymətləndirilməlidir. Buna görə Bakıdakı COP29 "Bakı sıçrayışı" adlandırıldı və bu, mühüm irsdir.

Deməliyəm, əfsuslar olsun ki, bu qlobal beynəlxalq tədbir bəzi Qərb medialarında kampaniya ilə müşayiət olundu. Prezident Tramp onları yalan, saxta xəbər adlandırır və onunla tam razıyam. Bu, Azərbaycanı gözdən salmaq, bizi qaralamaq, şayiələr və müxtəlif dezinformasiya yaymaq kampaniyası idi. Bizi ittiham edirdilər ki, neft və qaz hasil edən ölkəyik. Lakin bizdən əvvəl bir sıra ölkələr, o cümlədən Avropada nefti və qazı olan ölkələr var idi. Lakin dırnaqarası media tərəfindən buna məhəl qoyulmaması normal bir hal kimi qəbul olunmuşdur. Azərbaycanın neft hasilatı, məsələn, Kanadanın hasilatından on dəfə azdır. Bizim qlobal qaz emissiyalarında payımız cəmi 0,1 faizdir. Biz isə qlobal qaz emissiyalarına ən böyük töhfə verənləri bilirik. Amma bununla belə, dövri əsaslarla bəzən gün ərzində ondan artıq məqalə Azərbaycanın bir neft dövləti kimi təsvir edilməsinə yönəlirdi. Yəni deyirdilər, bir ölkə kimi biz qlobal, beynəlxalq tədbirin keçirilməsinə layiq deyilik. Bütün bunlar bir neçə mərkəzdən, əslində, ikisindən qaynaqlanırdı. Onlardan biri - ABŞ-nin Dövlət Departamenti idi. "Vaşinqton Post", "Nyu York Tayms", "Politico", "Newsveek" və "Assoşieyted Press" kimi yalan xəbər mənbələri, sadəcə, ABŞ Dövlət Departamentinin təlimatlarını icra edirdilər.

İkinci mənbə isə Fransa prezidentinin ofisi, cənab Makron, onların "Le Monde", "Fiqaro" və digər bu kimi saxta xəbər mətbuatı idi. Bir sözlə, bu, COP29-un boykot edilməsinə yönəlmiş qarayaxma və böhtanın əlaqələndirilmiş kampaniyası idi.

Bunun da müxtəlif səbəbləri ola bilər. Lakin onlardan biri ondan ibarətdir ki, onlar bizə öz iradəsini yeridə bilmədilər. Onlar suverenliyimizin, ərazi bütövlüyümüzün tam bərpasına yönəlmiş siyasətimizi dəyişə bilmədilər. Onlar o faktla razılaşa bilmirdilər ki, burada, Qafqazda öz milli maraqlarını güdən ölkə, yəni böyük bosslar qarşısında hər zaman "bəli, cənab" deməyən ölkə var. Əfsuslar olsun ki, Fransa hökuməti hətta COP29-u boykot etmək üçün bir çox ölkələri təhrik edərək daha uzağa getdi. COP29-da iştirak etmiş dünya liderlərindən etibarlı informasiyamız var və onlar bizə bu haqda məlumat verdilər. Hətta gəlməyən rəhbərlər mesaj göndərdilər ki, şəxsən Fransa prezidenti COP29-a qarşı kampaniya aparırdı.

Bu, elə bir siyasətdir ki, heç bir kəsə başucalığı gətirmir. Buna baxmayaraq, böyük tərkibdə iştirak oldu. Qeydiyyata alınmış 77 min iştirakçı oldu. Onların sırasında 197 ölkədən təmsilçilər, 70 dövlət və hökumət başçısı var idi. COP29-u boykot edən yeganə ölkə Ermənistan idi.

Ermənistan-Azərbaycan prosesinə gəldikdə, biz işğal illərini, o cümlədən Ermənistanın işğalı və təcavüzü nəticəsində Azərbaycan xalqının çəkdiyi əzab-əziyyətləri yaddan çıxara bilmərik və çıxarmayacağıq. Azad olunmuş ərazilərə səfər edənlər barbarlıq səviyyəsini görə bilər. Bütün şəhərlərimiz xarabalığa çevrilib. İndi isə biz onları yenidən tikirik. Hər bir şey yerləyeksan olunubdur və bu, kəndlərimizə, şəhərlərimizə qarşı bilərəkdən urbisid idi, dinimizə və tarixi irsimizə qarşı bilərəkdən zərbə idi. 65 məscid dağıdılıb və nəinki azərbaycanlıların, o cümlədən bütün dünya müsəlmanlarının hisslərini təhqir etmək üçün orada donuz və mal saxlayıblar. Biz bunu yaddan çıxarmayacağıq.

Biz 613 insanın, onlardan 60-dan çox uşağın və 100-dən artıq qadının ermənilər tərəfindən qətlə yetirildiyi Xocalı soyqırımını yaddan çıxarmayacağıq. Lakin eyni zamanda biz gələcəyə nəzər salmalıyıq. Biz Cənubi Qafqazda sülhə nail olmalıyıq. Bu baxımdan, Azərbaycan sülh prosesinin təşəbbüskarı olub. Əslində, Azərbaycan hətta bu gün Ermənistanla müzakirə olunan və əsasən razılaşdırılmış sülh sazişi layihəsinin, həmin sülh müqaviləsinin müəllifidir. Bəndlərin əksər hissəsi razılaşdırılıbdır.

Mübarizəmiz ədalət, beynəlxalq hüquq və ləyaqətimiz üçün mübarizə idi. BMT-nin Təhlükəsizlik Şurasının 27 il kağız üzərində qalan qətnamələrini icra etdik. Əgər torpağımızı güclə azad etməsəydik, onlar növbəti 27 il də kağız üzərində qalardı. Burada biz mühüm meyara gəlib çıxırıq ki, bəzən sülhə nail olmaq və ədaləti bərpa etmək üçün siz gücdən istifadə etməlisiniz. Bu gün biz bunu görürük. Görürük ki, Avropa, Avropa İttifaqı güclü hərbi potensial qurmaq üçün bu gün öz siyasətini necə dəyişməyə çalışır. Görürük ki,  digər ölkələr öz resurslarını hərbi potensialına və infrastrukturunun qurulmasına yönəldir. Biz bunu ən azı 20 ilə etdik, 2005-ci ildən etibarən etdik və ərazimizi azad edən, separatçılığa, separatçılara son qoyan güclü ordu yaratdıq. Bir sözlə, bu gün ərazi bütövlüyü və suverenliyin tam bərpası nəinki Azərbaycan xalqının güclü iradəsinin təzahürüdür, o cümlədən beynəlxalq ədaləti nümayiş etdirir. Eyni zamanda, əlbəttə, artıq qeyd etdiyim kimi, bizim yaddaşımız yaxşıdır. Hamımız xatırlayırıq ki, İkinci Qarabağ müharibəsindən əvvəl Ermənistanın cari hökuməti özünü necə aparırdı. Hamımız "Qarabağ Ermənistandır" söyləyən Ermənistan rəhbərinin bəyanatlarını xatırlayırıq. Bu, Xankəndidə deyilmişdir. Hamımız işğal olunmuş Şuşa şəhərində onun davranışını xatırlayırıq. Bunu internetdə tapa bilərsiniz. Çox maraqlı videodur.

Bu gün bəzi Avropa bürokratları Ermənistanı sülh göyərçini kimi təqdim etməyə çalışırlar. Lakin onlar həmin hökumətin keçmişdə nəyi etdiyini yaddan çıxarırlar. Onlar yaddan çıxarırlar ki, İkinci Qarabağ müharibəsində ermənilər bizim şəhərlərimizi, kəndlərimizi atəşə tuturdu. Yüzdən artıq vətəndaşımızı həmin raketlərə, ixracı qadağan olunmuş "İsgəndər M" raketinə görə itirdik. Biz hələ də suala cavab almamışıq: Ermənistan ordusu "İsgəndər M" raketini necə əldə edib? Çünki Rusiyada bu raketin ixracı yasaqdır. İnanmayanlar isə, - buradan cəmi 5-10 dəqiqəlik yoldur, - getsinlər Hərbi Qənimətlər Parkına və Şuşada tapdığımız "İsgəndər M" raketini görsünlər. Biz onu artıq 2021-ci ilin yazında tapdıq, çünki o, qarın altında qalmışdı. Biz Şuşanı azad etdiyimiz zaman o, şəhərə atılmışdı.

Bu, Ermənistanın baş nazirinin əmri ilə edilmişdi. Gəncə, Tərtər, Bərdə, Mingəçevir, Ağcabədi və bir çox digər şəhərlər dövri olaraq Ermənistanın atəşinə tutulurdu. Biz isə bunu etmədik. Biz Ermənistan ordusuna, işğalçı Ermənistanın ordusuna qarşı mübarizə aparırdıq. Onlar isə mülki şəxslərlə mübarizə aparırdı. Fərq bundadır. Bu, Birinci Qarabağ müharibəsində də eyni idi. Onlar bir növ bufer zonası yaratmışdılar. Belə adlandırırdılar. Əslində isə bu, işğal olunmuş ərazilər idi. Onlar yüz minlərlə azərbaycanlını qovdular və etnik təmizləmə apardılar. Biz bunu heç vaxt yaddan çıxarmayacağıq. Sizə bir məsələni də deyə bilərəm ki, Ermənistana etimad səviyyəsi sıfra bərabərdir. Beləliklə, biz onların hər hansı bir sözünə inanmırıq.

Çünki onlar elə insan deyillər ki, biz inana bilək, o cümlədən onların indiki hökuməti. Bir daha bütün bunlar göstərir ki, onların dediyi bizim üçün sıfır məna kəsb edir. Bizə sənədlər, yazılı kağızlar lazımdır. Bizə lazımdır ki, onların Konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları olmasın. Orada Azərbaycana qarşı ərazi iddiaları hələ də qalır. Bizə lazımdır ki, ATƏT-in Minsk qrupu buraxılsın. Biz bu mesajı Ermənistana çatdırırıq və deyirik ki, Minsk qrupunun saxlanılmasında məntiq yoxdur. O, Qarabağ məsələsinin həlli üçün yaradılmışdı. İndi Qarabağ məsələsi həll olunub. Ermənistan Qarabağı Azərbaycanın ərazisi kimi tanıyır. ATƏT-in həmin qrupunun buraxılması üçün ümumi müraciətdə siz bizə niyə qoşulmursunuz? Onlar istəmirlər. Belə çıxır ki, onlar bir ayağını ərazimizdə yer saxlamaq üçün edir. Əlbəttə ki, virtual olaraq. Onların silahlanması - bu, nəyi göstərir?

Bu göstərir ki, onlar yeni müharibəyə hazırlaşırlar. Kim onları yenidən müharibəyə sürükləyir? Fransa və onun prezidenti. Onların Ermənistanı təchiz etdiyi məhvedici silahlar bizə qarşı yönəlir. Bu gün başqa yerdə lazım ola biləcək "Sezar" haubitsaları Ermənistana göndərilir. Əslində, Avropa İttifaqının kəşfiyyat missiyası olan dırnaqarası Avropa monitorinq missiyası gecə-gündüz casus kimi sərhədlərimizdə dayanır və baxırlar ki, bəlkə haradan, bir yerdən girə bilsinlər. Bizim də həmin dırnaqarası monitorinq missiyası barədə kifayət qədər kəşfiyyat məlumatımız var. Avropanın Sülh Fondu milyonlarla dolları Ermənistanı silahlandırmaq üçün ona verir. Bəli, onlar deyir ki, bu pul qeyri-məhvedici hərbi qurğular üçündür.

Birincisi, bunu kim yoxlaya bilər? İkincisi, siz onlara 10 milyon verirsiniz və sonra isə digər 10 milyon planlaşdırılır. Beləliklə, Ermənistana silah almaq üçün pula qənaət imkanı yaranır. Nəinki Fransa onlara məhvedici silahlar göndərir. Onda onlar bunu niyə edir? Onlar nəyə hazırlaşır? Əgər sülh istəyirlərsə, buna ehtiyac yoxdur. Dəfələrlə biz bu məsələni erməni nümayəndələrinin və onların Brüsseldəki yeni ağalarının qarşısında qaldırmışıq. Çünki onlar indi böyük qardaşını dəyişiblər. Bu gün bu, Brüsseldir. Prezident Trampın qələbəsinə qədər bu, Dövlət Departamenti, USAID idi. Məhz indi ciddi problemlərlə üzləşən Menendes kimi rüşvətxor Amerika siyasətçiləri idi. Menendes siyahıda hələ sonuncu deyil. Necə deyərlər, bir qaranquşla bahar olmur. Xeyli digərləri var ki, erməni pulunu ciblərinə qoyurlar. Mən onların adını çəkə bilərəm, adları məlumdur: cənab Adam Şif, cənab Frenk Pallone, xanım Nensi Pelosi və bir çox digərləri var. Onlar onilliklər ərzində Azərbaycana hücum çəkmək və onu gözdən salmaq üçün Birləşmiş Ştatlarda erməni diaspor təşkilatlarından pullar alıblar. Beləliklə, biz Prezident Trampa bataqlığın qurudulmasında uğurlar arzu edirik. Bu, asan deyil. Lakin edilməlidir. Həmçinin biz USAID-in Azərbaycanda qeyri-qanuni fəaliyyəti ilə bağlı Amerikanın orqanları ilə məlumat mübadiləsinə hazırıq. Onlar insanlara necə rüşvət verirdilər?! Onlar qeyri-qanuni maliyyə kanallarından necə istifadə edirdilər?! Onlar Azərbaycanın qanunlarını və normalarını necə pozurdular?! İndi məsuliyyətli olmaq vaxtı yetişib. Biz əlimizdə olan bütün informasiyanı təqdim etməyə hazırıq.

Birmənalı olaraq, forumda yeni geosiyasi vəziyyət müzakirə olunacaqdır. Siz, yəqin, mənim şərhlərimdən təsəvvür edirsiniz ki, biz hazırda Amerikada nə baş verirsə, ona çox böyük maraq göstəririk. Nəyə görə? Səbəb çox sadədir. Çünki cənab Antoni Blinkenin Azərbaycana aid siyasəti, əslində, 30 il qurduğumuz ABŞ-Azərbaycan münasibətlərini heçə endirdi. Biz hər zaman ABŞ-nin çox etibarlı, yaxın tərəfdaşı olmuşuq. Biz onlara lazım olanda onlarla idik. Biz onlara İraqda lazım olanda, qoşunla onlarla idik. Biz onlara Əfqanıstanda lazım olanda, 2001-ci ildə Əfqanıstanda əməliyyatlara qoşulan ilk qeyri-NATO ölkələrindən idik və oradan sonuncu çıxdıq. Lakin biz çıxandan sonra onlar bizə sanksiya tətbiq etdilər. Xatırlayıram ki, bu, Azərbaycanda böyük məyusluq yaratdı. Mən onların bəzi nümayəndələrinə söylədim ki, biz sizə necə inana bilərik? Biz sizə lazım olanda sanksiyanı dayandırırsınız. Biz sizə artıq lazım olmayanda, sanksiyanı yenidən tətbiq edirsiniz. Onda uzunmüddətli münasibətləri sizinlə necə qura bilərik? Beləliklə, çox maraqla baxırıq. Birincisi, ona görə ki, biz Azərbaycanda Dövlət Departamentinin bütün səylərinə baxmayaraq, ABŞ-Azərbaycan münasibətlərini uçurumdan tam xilas etdik. İkincisi, ümid edirik ki, yeni Administrasiya ilə Cənubi Qafqaz, sülh, təhlükəsizlik, antiterror əməliyyatları, regionumuzun müasir inkişafı üçün hər zaman vacib olmuş güclü tərəfdaşlığımızı yenidən quracağıq.

Birmənalı olaraq, bu gün forumda bütün natiqləri dinləmək çox maraqlı olacaq. Həmişə olduğu kimi, əminəm ki, forum və onun üzvləri xüsusən də indi, kəskin geosiyasi dəyişikliklərdən sonra keçirilən tədbirdə ideya və yanaşmalar irəli sürəcəklər.

Bir daha bizimlə olduğunuza görə təşəkkür edirik. Dəvətimizi qəbul etdiyinizə görə minnətdarıq və foruma uğurlar arzu edirəm.

*Bax: səh. 4*

# XII Qlobal Bakı Forumu

*"Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi"*

# Bakıda dünyanın yeni geosiyasi vəziyyəti müzakirə olunur

## "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusunda XII Qlobal Bakı Forumu işə başlayıb



























❖❖❖

Albaniya Respublikasının Prezidenti **Bayram Beqay** çıxış edərək dedi:

- Təşəkkür edirəm. Sabahınız xeyirli olsun.

Hörmətli Prezident Əliyev, icazə verin, fikirlərimi təşəkkür sözləri ilə başlayım. Dəvətə görə minnətdaram və qonaqpərvərliyə görə təşəkkür edirəm. Sizi əmin edirəm ki, COP29 ölkə üçün böyük nailiyyət idi.

Hörmətli Prezident Əliyev, dəyərli qonaqlar, hörmətli dostlar.

Sizinlə birlikdə olmaq bizim üçün çox böyük şərəfdir. Biz çoxtərəfli dialoqa sadiqliyimizi nümayiş etdiririk. Bu günün şüarı çağırışların fürsətlərə çevrilməsidir. Bu, sadəcə, məqsəd deyil, həmçinin ehtiyacdır. Qlobal Bakı Forumu çox mühüm bir forumdur və qeyri-müəyyənlik dünyasında ümid yaradan bir forumdur. Pandemiyadan əvvəl dünyada baş verən silahlı münaqişələr artıq dünyanı dəyişib və müəyyənlik qeyri-müəyyənliklə əvəz olunub. Böhran genişlənir və dünya səviyyəsində qeyri-sabit vəziyyət inkişaf edir, müxtəlif bölgələrdə münaqişələr davam edir və tarixin kölgələri bəzi hallarda müasir dünyanı üstələyir. Çağdaş dünyamız yalnız siyasi böhranla üzləşməyib, eyni zamanda iqtisadi tənəzzül də baş verir. Bu gün dünya keçid dövründədir və azadlıq, demokratiya, insan ləyaqəti, ədalət və təhlükəsizlik kimi məfhumlar bu keçidin sınağından keçməkdədir. Dünyada münaqişələr var, kibertəhlükələr, mütəşəkkil cinayətkarlıq və saxta məlumatlar dominantlığa çevrilir və beləliklə, bizdən cəsarət, birlik tələb olunur. Gücdən istifadənin ədaləti əvəzlədiyi bir dövrdə cəmiyyətlər, nəsillər iflasa uğrayır və düşünürük ki, çağırışların məqsədi yeni imkanlar yaratmaqdır. Çağırışlar yeni dünya düzəni üçün sınaqdır. Ukraynadakı münaqişə və digər münaqişələr təhlükəsizliyi sarsıdır, kontinental və qlobal səviyyədə əməkdaşlığa böyük təhdiddir. Biz sülhün bərpasına nail olmalıyıq, biz sərhədlərin və dövlət suverenliyinin qorunmasına çalışmalıyıq. Milli çağırışlardan məqsəd mütəşəkkil cinayətkarlıqla və kibertəhlükələrlə mübarizədən ibarətdir. Bunlar sözsüz ki, regional və beynəlxalq səviyyədə əməkdaşlığımızı tələb edir.

Qeyri-qanuni miqrasiyanın Avropaya axını bir daha onu göstərdi ki, sərhədlərdə nəzarət bu baxımdan kifayət deyil. Çünki bu, bütövlükdə həmin axının qarşısını ala bilmir və mexanizm tam işlək deyil. COVID-19 pandemiyasının idarə edilməsi təcrübəsi onu göstərdi ki, ən səmərəli həllər vahid reaksiya mexanizmindən irəli gəlir, elm və texnologiyaya uzunmüddətli investisiyalar yatırılmalıdır. Biz texnoloji inkişafa dəstək olmalıyıq, süni zəkanı inkişaf etdirməliyik. Bu, fərdlərə, icmalara və xalqlara yeni fəslə, yeni mərhələyə keçməyə imkan yaradacaq. Beləliklə, bu, həyatımızın hər bir sahəsinə aid olacaq. Biz öz dəyərlərimizə sadiq qalmalıyıq. Çağdaş dünya hazırda ən çox texnoloji inkişaf dövrünü yaşayır və bu da heç asanlıqla mümkün olmayıb. Bir çox çağırışlardan keçmişik. İndi cəsarət və aydın bir baxış lazımdır ki, sülhü və təhlükəsizliyi, iqtisadi inkişafı və siyasətləri vətəndaşlarımızın xeyrinə çevirək. Bizə elə bir dünya lazımdır ki, iqtisadiyyat dayanıqlı olsun, münaqişələr həll edilsin və cəmiyyətlərimiz güclənsin, parçalanmasın, daha çox həmrəy olsun, sülh çox tutarlı və möhkəm əsaslarda qurulsun. Bu, sözsüz ki, sabahkı dünyanı yaşamaq üçün daha da məqbul edəcək.

Xanımlar və cənablar, öz ölkəmin təcrübəsindən deyə bilərəm ki, o, çətin və çağırışlı, qalmaqallı dövrlər keçib, Albaniya bunu yaşayıb. Totalitarizmdən demokratiyaya keçib. Təhlükəsizlik olmayan dövrdə NATO üzvlüyünə, mərkəzləşdirilmiş iqtisadiyyatdan azad iqtisadiyyata və təcrid olunmuş ölkədən ildə 10 milyona qədər turist cəlb edən ölkəyə çevrilmişik. Hazırda biz Avropa İttifaqına üzv olmağa yaxınıq. Albaniya demokratiyaya üstünlük vermişdir.

Albaniya ABŞ ilə tərəfdaşlığına sadiqdir, biz Avroatlantik dəyərlərə inanırıq. Biz Avropa İttifaqına üstünlük veririk. Bu, sülhün, təhlükəsizliyin və firavan yaşamın zəminidir. Albaniya həm ölkə daxilində, həm də ölkə xaricində olan albanları birləşdirərək çağırışları fürsətlərə çevirib. Bizim gənc nəslimiz iddialıdır və bu prosesdə mühüm rola malikdir.

Hörmətli iştirakçılar, hörmətli dostlar. Albaniya tam şəkildə inanır ki, əməkdaşlıq və dialoq fövqəlahəmiyyətli məsələlərdir və onlar bizə gələcəyi gətirəcək. Biz düşünürük ki, sülh və təhlükəsizlik olmadan nəyəsə nail olmaq mümkün deyil. Buna görə biz dialoqa və demokratik sabitliyə sədaqətimizi bir daha ifadə edirik.

Çıxışımın sonunda istərdim Albaniya ilə Azərbaycan arasında dostluq haqqında söz açım. Bizim uzunmüddətli dostluğumuz qarşılıqlı əməkdaşlıqda öz əksini tapır, ələlxüsus iqtisadiyyat və infrastruktur layihələrini nəzərdə tuturam. Mən bu əməkdaşlığa və onun inkişafına sadiqəm. Bu, bizim xalqların marağına cavab verir və baxmayaraq ki, biz coğrafi baxımdan yaxın deyilik, xalqlarımızla, qonşularımızla, tərəfdaşlarımızla gələcəyi birgə qura bilərik.

Bu forum çox gözəl bir platformadır. Sülh, təhlükəsizlik və inkişaf naminə qurulan çox gözəl bir müstəvidir.

Hər birinizə uğurlar diləyirəm və xoş gün arzulayıram. Təşəkkür edirəm.

❖❖❖

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri **Jelka Tsviyanoviç** çıxış edərək dedi:

- Təşəkkür edirəm. Sabahınız xeyir, cənab Prezident.

Hörmətli iştirakçılar.

Bu mühüm müzakirəyə dəvətə görə təşəkkür edirəm. Biz dünyadakı bir çox qalmaqallı və çətin bölgələr haqqında danışırıq. Doğrudan da, bu çağırışlar fürsətlərə çevrilə bilərmi? Mən də belə bir ölkəni təmsil edirəm ki, bizdə 30 il ərzində konstitusion və siyasi böhran olub. Biz bu uzunmüddətli böhranın bir çox fəsadlarını yaşamışıq. Ümumi yanaşsaq, hamı gözləyir ki, beynəlxalq münasibətlər hansı duruma çatacaq və hazırda Tramp administrasiyası bunu necə dəyişəcək? Deməliyəm ki, Amerikanın dərin hökuməti bir çox hallarda Bosniya və Herseqovinanı da qurban kimi seçmişdi. Burada müəyyən proseslərə təsir etməyə və onu mərkəzləşmiş dövlətdən təmərküzləşdirilmiş dövlətə çevirməyə çalışırdı. Bununla da biz uğursuz bir dövlət olacaqdıq və vahid bir milli mənsubiyyəti olmayan xalqlara çevriləcəkdik. Əsas alətlərdən biri məhkəmə sistemindən silah kimi istifadə etmək idi. Bizim Konstitusiya Məhkəməsində üç xarici hakim və digər hakimlər də var idi ki, onlar sülh sazişinə öz mənfi təsirlərini göstərirdilər. Bu Konstitusiya Məhkəməsi bizim Konstitusiyanı dəyişərək, mövcud konstitusiyanı müdafiə etmirdi. Digər nümunə isə Bosniya və Herseqovina məhkəməsidir. Bu siyasi məhkəmə bir qətnamə qəbul edir ki, nəticədə Bosniya və Herseqovina zorakılıq mənbəyinə çevrilir. Serbiya Prezidenti çalışmışdır ki, öz konstitusion hakimiyyətini həyata keçirsin və orada öz iradəsini tətbiq etsin. O, bu konstitusional öhdəliklər çərçivəsində səlahiyyətlərinə təsir etmişdir və onları pozmuşdur. Beləliklə, heç bir digər prezident buna oxşar bir hərəkət etməyib. Bu, ona görə baş verir ki, xaric Kristian Şmidti yüksək elçi adlandırırdı. O, hakimiyyəti mənimsəmişdir və beynəlxalq hüquqa, Deytona prinsiplərinə və Bosniya və Herseqovinanın Konstitusiyasına və Serbiya Respublikasının Konstitusiyasına laqeyd yanaşaraq, öz iradəsini, qeyri-qanuni və avtokratik qərarlarını yeritməyə çalışırdı. Konstitusiyaya, qanunvericiliyə zidd olaraq qərar vermişdir ki, bizim cinayət məhkəməsi sistemi dəyişsin və Herseqovinanın seçilmiş şəxslərinə qarşı cəza mexanizminə çevrilsin. Bu, müharibənin bir nümunəsidir, müasir hüquqi sistemin yanlış istifadəsidir və bu, siyasi müxalifətin ədalət adı altında irəli çəkilməsidir. Bizim gördüyümüz odur ki, hesablanmış bir yanaşma var: demokratik seçilən şəxslərin yerindən tərpədilməsi və sosial dəyərləri sarsıtmaq üçün Bosniya və Herseqovina bu proseslərdən çıxmalıdır. Həqiqətən də demokratik sistem qurulmalıdır ki, yalnız demokratik yolla seçilmiş şəxslər, nümayəndələr siyasəti müəyyənləşdirsin və qanun insanlara xidmət etsin. Seçilməmiş və heç bir seçicinin səsini almayan şəxslərə xidmət etməsin. Məhkəmə sistemindən sui-istifadə, seçilmiş Serbiya nümayəndələrinin Deytona sazişlərinə qarşı addım atması bizim respublikaya və bizim insanlara, ümumiyyətlə, hamıya qarşı təhdiddir. Beləliklə, Almaniyanın cavabı və münasibəti bizim daxili siyasətimizdə münaqişəni daha da dərinləşdirir və biz yalnız və yalnız bunun mənfi təsirlərini görürük. Biz Bosniya və Herseqovinada bunun şahidi olmuşuq. Beləliklə, demokratiya, yeni dünya düzəni, əhalinin hüquqlarını qorumaq üçün həqiqi mexanizmlər haqqında danışanda Bosniya və Herseqovina bir müstəmləkədir və bəlkə də mövcud olan yeganə müstəmləkədir. Təəssüf ki, Bosniya və Herseqovina haqqında tam mənada danışmaq, tam vəziyyəti başa düşmək istəmirlər. Xaricilərin yanlış addımları beynəlxalq ictimaiyyətdən gizlədilir. Mən iştirak etdiyim bütün forumlarda bu məsələ, bu ədalətsizlik, səhv addımlar haqqında danışıram və xaricilərin fəaliyyətlərini tənqid edirəm. Düşünürəm ki, bu, forum da çox gözəl imkandır. Bosniya və Herseqovina yalnız və yalnız daxili dialoq vasitəsilə irəli gedə bilər. Ölkənin üç əsas xalqının nümayəndələri məsələləri birlikdə müzakirə etməlidirlər. Bu ölkə Kristian Şmidtin deyil, Avropa İttifaqının deyil, ABŞ-nin deyil və yaxud digərlərinin deyil, bizim ölkəmizdir. Odur ki, burada yeganə çıxış yolu dialoqdur, ünsiyyətdir, bizim indi və gələcəkdə birgə yaşayışımızdır.

Təşəkkür edirəm, cənab Prezident. Təşəkkür edirəm ki, biz öz hekayələrimizi və fikirlərimizi burada paylaşa bilirik.

❖❖❖

Şimali Makedoniya Prezidenti **Qordana Silyanovska-Davkova** çıxış edərək dedi:

- Hörmətli Prezident Əliyev, zati-aliləri.

Xanımlar və cənablar.

Fürsətdən istifadə edib bizim çox gözəl ev sahibinə təşəkkürümü bildirmək istəyirəm. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə dəvətə görə minnətdarlığımı bildirirəm. Bizi Azərbaycanda XII Qlobal Bakı Forumunda iştirak üçün dəvət ediblər. Coğrafi məsafəyə baxmayaraq, bizim iki dost ölkəmiz dərin bağlara malikdir. Bu iki ölkə bəşəriyyətin qovuşduğu nöqtələrdə yerləşir və burada çoxmillətli, çox dinlərə malik xalqlar birgə yaşayır. Hər iki ölkə 1991-ci ildə müstəqilliyini bərpa edib, öhdəlik olaraq çoxtərəflilik və əməkdaşlıq kimi dəyərləri seçib. Həmçinin digər bir məsələ var ki, bizim iki ölkə üçün oxşardır - Azərbaycan Odlar yurdudur, mən isə Günəş ölkəsini təmsil edirəm. Bizim makedon şairlərdən biri demişdir ki, Günəş insanın qazana bildiyi ən qədim odlardan biridir. Son bir neçə gün ərzində dost Azərbaycan Respublikasına rəsmi səfər çərçivəsində çox geniş müzakirələr aparmışıq.

Möhtərəm Prezident Əliyev, qonaqpərvərliyə görə təşəkkür edirəm. Azərbaycanın qonaqpərvərliyi, həmçinin beynəlxalq səviyyədə Qlobal Bakı Forumu vasitəsilə daha da tanınır. Son illərdə forum dünyada ən qabaqcıl platformalardan birinə çevrilib, bura bir neçə nəsil liderlərin müdrik, dərin fikirlərinin və ideyalarının paylaşıldığı bir yerdir. Bu, regional və beynəlxalq məsələlər ətrafında qurulan bir forumdur.

Hörmətli qonaqlar, bu məsələlər 2025-ci ildə xüsusilə əhəmiyyətlidir. Çünki bu ili hamı keçid ili, dəyişikliklər ili kimi düşünür. Günbəgün yeni suallar ortaya çıxır, lakin onların cavabları yoxdur. Dünya çox fərqli bir məkana çevrilir. Çoxtərəflilik qütbləşməyə, siyasi mübarizəyə yol açıb və birgə təhlükəsizlik sistemini sarsıdır. Birləşmiş Millətlər Təşkilatı qütbləşən bir quruma çevrilir. Lazım olan vaxtda istənilən nəticəni vermir və dünyada konsensus artıq sual altındadır. Biz yeni mərhələdə - beynəlxalq sistemə əsaslanan qərarların dəyərdən düşdüyü dövrdə necə yaşamalıyıq?

Bir müddət əvvəl Almaniya Prezidenti Ştaynmayer Münxen Təhlükəsizlik Konfransında qeyd etmişdir ki, güc yeni dünya düzəninin aparıcı dəyəri olmamalıdır. Çünki bu, bəşəriyyətin əldə etdiyi nailiyyətləri, 80 il əvvəl BMT-nin təsis olunduğu günlərdə qərara gəldiyi və bizi birləşdirən dəyərləri heçə endirəcək. Yeni qaydalar nədən ibarət olacaq, nəyə əsaslanacaq? "Pacta Sunservanda" prinsipinə, yoxsa güc prinsipinə əsaslanacaq? Bu, dəyərlərin, reallığın, yoxsa maraqların toqquşmasıdır? Ümumiyyətlə, bu böhranın öhdəsindən gələ biləcəyikmi? Qarşımızdakı bu çağırışların öhdəsindən birgə qaydalarla gələ biləcəyikmi? Ümumiyyətlə, gələcək nəsillər üçün biz hansı dünyanı qoyub gedəcəyik? Düşünürəm ki, bu il Qlobal Bakı Forumunda müzakirə edəcəyimiz suallar sırasında bunlar da var. Mənim üçün böyük şərəfdir ki, forumun Birləşmiş Millətlər Təşkilatının gələcək naminə fəaliyyətinə həsr olunmuş üçüncü panelində çıxış edib fikirlərimi bildirəcəyəm.

Bildiyiniz kimi, vaxtilə ABŞ Dövlət Departamentinin Dövlət katibinə Nobel Sülh Mükafatı verilmişdir. Sırf 80 il əvvəl BMT-nin təsis olunmasına görə müraciətində Dövlət katibi qeyd etmişdir ki, insanlar və xalqlar üçün əsas məsələ odur ki, onlar kifayət qədər əziyyət çəkiblərmi, ibrət dərsi çıxarıblarmı ki, şübhələri, yanlış təsəvvürləri arxada qoyub, birləşib vahid dəyərlər, vahid maraqlar naminə inkişaf etsinlər. Burada vahid maraqlar uzunmüddətli sülhə yol açır. İnsanların yaratdığı texnologiyanın açdığı yeni imkanlardan istifadə edib bəşəriyyətin inkişafına, təkamülünə yönəltməliyik, nəinki onun dağıdılmasına.

Mən səmimi-qəlbdən inanıram ki, Qlobal Bakı Forumu yeni düşüncələr üçün gözəl məkan, bu fikirləri, bu ali maraqları qorumaq və yaşatmaq üçün gözəl bir imkan olacaq.

❖❖❖

Sonra Latviyanın sabiq Prezidenti **Vayra-Vike Freyberqa** çıxış edərək, XII Qlobal Bakı Forumunun fikir müxtəlifliyini təmsil edən insanları neytral və mehriban mühitdə bir araya gətirdiyini bildirdi. Sabiq Prezident forumun dünyanın qlobal çağırışları ilə bağlı fikir mübadiləsi aparılmasına imkan yaratdığını vurğulayaraq dedi: "Çıxışıma Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Məşvərət Şurasının və həmkarım İsmail Serageldinin adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə həm bu təşəbbüsün başlanmasına, həm də onun davamlı şəkildə inkişafına verdiyi dəstəyə görə təşəkkür sözləri ilə başlamaq yerinə düşər. Cənab Prezident dünyanın müxtəlif dövlətlərindən artan sayda liderlərin, fərqli fikir daşıyan insanların birləşməsi üçün çox neytral və dostcasına bir mühit yaratmağa dəstək göstərmişdir, qapıları açmışdır".

Ardı 5-ci səh.

GLOBAL BAKU FORUM

# XII Qlobal Bakı Forumu

*"Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi"*

# Bakıda dünyanın yeni geosiyasi vəziyyəti müzakirə olunur

## "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusunda XII Qlobal Bakı Forumu işə başlayıb




*Əvvəli 4-cü səh.*




❖ ❖ ❖

Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru **Tedros Adhanom Qebreyesus** çıxışında COP29 kimi mühüm beynəlxalq tədbirə evsahibliyi etdiyinə görə Azərbaycana təşəkkürünü bildirərək dedi: "Mən buraya bir neçə ay öncə COP29 üçün gəlmişdim və qısa müddət sonra bu cür yaxşı təşkil olunmuş tədbirə evsahibliyi etdiyinə görə Prezident Əliyevi təbrik edirəm. Lakin Zati-aliləri, ən vacibi isə mən əldə edilmiş əhəmiyyətli nəticələrə görə Sizi təbrik edirəm. Hamımız bilirik ki, danışıqlar asan deyildi, lakin nəticədə iqlim maliyyəsi, qabaqlayıcı və uyğunlaşma tədbirləri üçün mühüm öhdəliklər müəyyən olundu. Qısa desək, bu, elə çoxtərəflilikdir. Ümumi problemlərlə bağlı dövlətlər ümumi həll variantlarının tapılmasında bir araya gəldilər".

❖ ❖ ❖

BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi **Migel Anxel Moratinos** dünya düzənini təhdid edən problemlərin müzakirəsi və həlli baxımından XII Qlobal Bakı Forumunu mühüm platforma adlandıraraq bildirdi: "Yenidən Bakıda olmaq hər zaman böyük məmnuniyyət hissi doğurur və mən bu fürsətə görə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə təşəkkür edirəm.

Mən çıxışıma dünən məni qəbul etdiyinə və bir çox mühüm məsələlərin konstruktiv müzakirəsinə görə Zati-aliləri Prezident İlham Əliyevə təşəkkürümü bildirməklə başlamaq istərdim. Zati-aliləri, bu dəfə Bakıya səfərimin qısamüddətli olmasına baxmayaraq, iş cədvəlinizin sıxlığına vaxt taparaq məni qəbul etdiyinizə görə təşəkkür edirəm".

❖ ❖ ❖

BMT-nin Ticarət və İnkişaf Konfransının (UNCTAD) Baş katibi **Rebeka Qrinspan** son dövrlər sürətlə inkişaf edən süni zəkanın, yeni innovasiyaların qeyri-bərabər paylanmasına diqqət çəkdi və Azərbaycan hökumətinin bu istiqamətdə də dialoq üçün dəstəyinə görə minnətdarlığını ifadə edərək dedi: "Dəyərli həmkarlar, xanımlar və cənablar. Əvvəlcə cənab Prezident, belə bir forumu təşkil etdiyinizə görə təşəkkürümü bildirirəm. Cənab Prezident, bu gün bizimlə burada olmağınıza görə Sizə təşəkkürümüzü bildiririk. Biz, əslində, Sizin, hökumətinizin güclü dəstəyini hiss etdik. Biz həmçinin burada ticari sahədə də bəzi addımların atılmasını birgə düşündük. Düşünürük ki, ümumiyyətlə, problemlərin aradan qaldırılmasında da, ticarətdə də bu sahədə addımların atılması vacib olar. Buna görə Sizə təşəkkürümüzü bildiririk və burada olmağımıza çox məmnunuq".

❖ ❖ ❖

BMT-nin Cenevrədəki ofisinin Baş direktoru **Tatyana Valovaya** vurğuladı ki, XII Qlobal Bakı Forumu beynəlxalq sülh və təhlükəsizliyin təmini üçün mühüm tədbirdir. O qeyd etdi: "Mən səmimi-qəlbdən Zati-aliləri Prezident Əliyevə bizə göstərilmiş qonaqpərvərliyə, verdiyi dəstəyə və qlobal dəyişikliklər üçün bu dialoq platformasını qurduğuna görə təşəkkürümü bildirirəm. Gözəl Bakı şəhərində olmaqdan məmnunuq. Mən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə də XII Qlobal Bakı Forumunu təşkil etdiyinə görə minnətdaram və bildiyimiz kimi bu tədbir hər il keçirilir".

❖ ❖ ❖

Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru **Fatih Birol** çıxışında enerji təhlükəsizliyi və iqlim dəyişmələri məsələlərinə diqqət çəkdi və Azərbaycanı Avropanın, eləcə də digər ölkələrin enerji böhranının həllində etibarlı tərəfdaş adlandıraraq bildirdi: "Bir çox ölkələr enerji böhranı zamanı bir daha anladılar ki, Azərbaycan etibarlı və etimadı doğuran tərəfdaşdır. Bu, bir daha sübuta yetirildi. Mən ümid edirəm ki, Azərbaycandan Avropaya qaz ixracı gələcəkdə artacaq. Mən həmçinin ümid edirəm ki, Azərbaycanın yaşıl dəhliz gündəliyi - Qara dənizin dibi ilə Avropaya gedən elektrik enerji kabeli layihəsi uğurlu olacaqdır".

❖ ❖ ❖

Sonda çıxış edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri **İsmail Serageldin** bildirdi ki, XII Qlobal Bakı Forumu dünyanın aparıcı liderlərini, beynəlxalq təşkilatların nümayəndələrini və alimlərini açıq, məzmunlu diskussiyalar üçün bir araya gətirən mühüm platformadır. "Biz burada çox müxtəlif mövzular ətrafında bir-birindən fərqlənən rəyləri eşitdik və eşidəcəyik. Dəyərli iştirakçıların burada olması bizə körpüləri salmaq, bu məsələləri təhlil etmək imkanı yaradacaqdır. Əlbəttə ki, ənənəvi Qlobal Bakı Forumu hər zaman öz rəylərinin şaxələndirilməsi ilə seçilmişdir, o cümlədən rasional arqumentlərin irəli sürülməsi ilə yadda qalmışdır", - deyə İ.Serageldin fikirlərini yekunlaşdırıb.

❖ ❖ ❖

Qeyd edək ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi qlobal problemlərin həlli yollarını araşdıran və bu barədə dünya ictimaiyyətini məlumatlandıran mühüm beynəlxalq platformaya çevrilib. Məhz bunun nəticəsidir ki, mərkəzin təşkil etdiyi tədbirlərə maraq ildən-ilə artmaqdadır. "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusuna həsr olunan budəfəki forumda dünyanın müxtəlif regionlarından 400-ə yaxın nüfuzlu siyasi xadim, o cümlədən azı 50 fəaliyyətdə olan və sabiq prezident, Baş nazir, həmçinin BMT strukturlarının rəhbərləri, alimlər və ekspertlər iştirak edirlər.

Martın 15-dək davam edəcək XII Qlobal Bakı Forumunda "Geosiyasi dəyişmələr: Məsuliyyətli tərəfdaşlıq rəqabətə qarşı", "Çoxqütblü dünya üçün multilateralizmə yenidən baxılması" və "Gələcək üçün BMT paktı: Yeni qlobal konsensusun yaradılması" mövzularında panellər təşkil olunacaq. Sülhə və barışığa töhfə verən ictimai xadimə 2025-ci il "Nizami Gəncəvi" Beynəlxalq Mükafatı təqdim ediləcək.

Bundan əlavə, "Sülhə gedən yol", "Yeni dünya nizamında orta güclər" və "Sülh - münaqişə sonrası yenidənqurma və regional sabitliyin yenidən bərpası" mövzularında panellərlə yanaşı, Yaxın Şərq və Ukrayna-Avropa İttifaqı məsələlərinə həsr olunmuş nahar sessiyaları keçiriləcək. "COP29: Belem üçün sıçrayış - Transformasiyanın sürətləndirilməsi" və "Avropanın gələcəyi" mövzuları gecə sessiyalarında müzakirə olunacaq.

Forumda yeni texnologiyalar, gender və təhlükəsizlik, iqlim dəyişikliyinin təsiri, qlobal səhiyyə böhranları və onların həlli yolları da diqqət mərkəzində olacaq. Xüsusilə "Yeni dünya üçün yeni texnologiyalar", "Gender-Təhlükəsizlik-İqlim bağlantısı" və "Qlobal səhiyyə böhranı: Hazırlıq və bərabərlikdə yeni cəbhələr" panelləri bu istiqamətdə vacib mövzuları əhatə edəcək. Forumun ən maraqlı panellərindən biri isə gənclərin fikirlərinə həsr edilən "Gənclər danışsın, biz dinləyək" mövzusunda təşkil olunacaq.

## Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında əlaqələrin bugünkü səviyyəsi məmnunluq doğurur

### Roma Papası Fransisk Həzrətlərinə

Zati-müqəddəsləri!

Tacqoyma Gününüz münasibətilə Sizə və Sizin simanızda bütün həmməzhəblərinizə şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında əlaqələrin bugünkü səviyyəsi məmnunluq doğurur. Mədəniyyətlər və dinlər arasında ahəngdar münasibətlərin təşviqinə, humanizm ideallarının təntənəsinə yönəlmiş əməkdaşlığımız gündən-günə yeni məzmunla zənginləşir və daha da möhkəmlənir.

Müqəddəs Taxt-Tac ilə əməkdaşlığımızın inkişafına, səmimi dialoqumuzun genişlənməsinə Sizin verdiyiniz şəxsi töhfəni yüksək qiymətləndirirəm. Nümunəvi dözümlülük mühitinin və multikulturalizm ənənələrinin hökm sürdüyü Azərbaycanın dünyada insanlar arasında qarşılıqlı anlaşmanın təşviqində oynadığı rolunu daim təqdir etməyinizə görə Sizə minnətdaram.

Əminəm ki, Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında əlaqələr bundan sonra da sivilizasiyalararası və dinlərarası dialoqun genişlənməsinə, multikulturalizm dəyərlərinin qorunub saxlanmasına və möhkəmlənməsinə, dünyada sülhün və əmin-amanlığın bərqərar olmasına xidmət edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, uzun ömür, xeyirxah və müqəddəs missiyanızda uğurlar diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 mart 2025-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" 2008-ci il 23 may tarixli 2834 nömrəli, "Azərbaycan Respublikası Hökuməti və Macarıstan Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" 2009-cu il 16 yanvar tarixli 118 nömrəli və "Azərbaycan Respublikası Hökuməti və Monteneqro Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" 2013-cü il 7 mart tarixli 2784 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 23 may tarixli 2834 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 5, maddə 423 (Cild I) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. "əmək və əhalinin sosial müdafiəsi" sözləri "maliyyə" sözü ilə əvəz edilsin;

1.2. "Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini" abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini".

2. "Azərbaycan Respublikası Hökuməti və Macarıstan Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 16 yanvar tarixli 118 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 1, maddə 18 (Cild I) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. "əmək və əhalinin sosial müdafiəsi" sözləri "maliyyə" sözü ilə əvəz edilsin;

2.2. "Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini" abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini".

3. "Azərbaycan Respublikası Hökuməti və Monteneqro Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 7 mart tarixli 2784 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 3, maddə 290 (Cild I) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. "əmək və əhalinin sosial müdafiəsi" sözləri "maliyyə" sözü ilə əvəz edilsin;

3.2. "Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini" abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini".

4. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-3-cü hissələri ilə edilən dəyişikliklər barədə qarşı tərəflərə müvafiq bildirişlər göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 mart 2025-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"də, 2021-ci il 11 oktyabr tarixli 1462 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət Dəniz və Liman Agentliyinin Nizamnaməsi"ndə, 2022-ci il 8 sentyabr tarixli 1842 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin Nizamnaməsi"ndə, 2022-ci il 21 oktyabr tarixli 1861 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyinin Nizamnaməsi"ndə və 2022-ci il 21 oktyabr tarixli 1862 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 1, maddə 41 (Cild I); 2024, № 2, maddə 155, № 6 (I kitab), maddə 654, № 8, maddə 948, № 12 (I kitab), maddə 1287) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 5.5.11-ci yarımbəndə "vəsaitin" sözündən sonra "və büdcədənkənar vəsaitin" sözləri əlavə edilsin;

1.2. 5.5.11-1-ci yarımbəndə "sərəncamçısı" sözündən əvvəl ", habelə Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların gördüyü işlərdən (göstərdiyi xidmətlərdən) əldə olunan gəlirlərin" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 11 oktyabr tarixli 1462 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1106 (Cild I); 2024, № 2, maddə 150) ilə təsdiq edilmiş "Dövlət Dəniz və Liman Agentliyinin Nizamnaməsi"nin 5.4-cü bəndinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Agentliyin sərəncamında qalan vəsaitdən Nazirlik əməkdaşlarının vəzifə maaşlarına əlavə və mükafatların verilməsi üçün ayırmalar nəzərdə tutulur.".

3. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 sentyabr tarixli 1842 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1031 (Cild I); 2024, № 8, maddə 948, № 11, maddə 1199) ilə təsdiq edilmiş "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin Nizamnaməsi"nin 5.4-cü bəndinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Agentliyin sərəncamında qalan vəsaitdən Nazirlik əməkdaşlarının vəzifə maaşlarına əlavə və mükafatların verilməsi üçün ayırmalar nəzərdə tutulur.".

4. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 21 oktyabr tarixli 1861 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 10, maddə 1138 (Cild I) ilə təsdiq edilmiş "İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyinin Nizamnaməsi"nin 5.4-cü bəndinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Agentliyin sərəncamında qalan vəsaitdən Nazirlik əməkdaşlarının vəzifə maaşlarına əlavə və mükafatların verilməsi üçün ayırmalar nəzərdə tutulur.".

5. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 21 oktyabr tarixli 1862 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 10, maddə 1139 (Cild I) ilə təsdiq edilmiş "İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin Nizamnaməsi"nin 5.4-cü bəndinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Agentliyin sərəncamında qalan vəsaitdən Nazirlik əməkdaşlarının vəzifə maaşlarına əlavə və mükafatların verilməsi üçün ayırmalar nəzərdə tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 mart 2025-ci il*

## "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun Əsasnaməsi"nin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 72** **Bakı şəhəri, 12 mart 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 21 fevral tarixli 15 nömrəli Sərəncamının 2.4-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun Əsasnaməsi" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Nazir: "Ermənistanla Azərbaycan arasında sülh sazişi layihəsi ilə bağlı danışıqlar prosesi yekunlaşıb"

"Ermənistanla Azərbaycan arasında sülh sazişi layihəsi ilə bağlı danışıqlar prosesi yekunlaşıb. Biz bir neçə dəfə açıqlama vermişdik ki, son iki açıq maddə qalıb. Bu yaxınlarda Ermənistan tərəfi həmin açıq maddələr üzrə Azərbaycan tərəfinin təkliflərini qəbul edib, əlaqə kanalları vasitəsilə bizə çatdırıb. Ona görə mətn üzrə işlərin yekunlaşdırıldığını qeyd edə bilərik".

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə müsahibəsində xarici işlər naziri Ceyhun Bayramov deyib.

"Növbəti addım olaraq Azərbaycan tərəfinin gözləntisi Ermənistanın Konstitusiyasında və digər normativ-hüquqi aktlarında Azərbaycan Respublikasının ərazi bütövlüyünə və suverenliyinə olan iddiaların konstitusiyada dəyişiklik yolu ilə baş tutmasıdır. Təbii ki, bu, sazişin imzalanması üçün labüd şərtdir. Bundan əlavə, keçmiş münaqişənin qalıqları olan Minsk qrupu və onun digər təsisatlarının ləğv edilməsi vacib amildir", - deyə nazir diqqətə çatdırıb.

## Ceyhun Bayramov BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının Baş katibi ilə görüşüb



Martın 13-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov XII Qlobal Bakı Forumu çərçivəsində BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının Baş katibi Rebeka Qrinspa ilə görüşüb.

XİN-dən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan və BMT əməkdaşlığının müxtəlif aspektləri və perspektivləri, mina təhlükəsi ilə mübarizə səylərində qarşılıqlı fəaliyyət imkanları, habelə qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər müzakirə olunub.

Nazir Ceyhun Bayramov BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyimiz və tədbirin təşkil olunması üzrə BMT ilə əməkdaşlığımızın nümunəvi xarakter daşıdığını, bundan sonra da bu dinamikanın davam etdirilməsinin əhəmiyyətini qeyd edib. Ceyhun Bayramov ölkəmizin donor dövlət kimi həyata keçirdiyi beynəlxalq yardım təşəbbüslərindən ətraflı bəhs edib, xüsusilə COVID-19 pandemiyası dövründə inkişaf etməkdə olan ölkələrin pandemiya ilə mübarizəsi, o cümlədən postpandemiya dövründə dəstəklənməsi üzrə bir sıra yardımlar həyata keçirdiyini diqqətə çatdırıb. Qarşı tərəf həmçinin COP29 çərçivəsində əldə olunan nailiyyətlər, xüsusilə iqlim maliyyəsi üzrə yeni kollektiv kəmiyyət məqsədinin müəyyən olunması, Paris Sazişinin karbon bazarlarını tənzimləyən 6-cı maddəsi üzrə razılığın əldə edilməsi, bununla yanaşı həyata keçirilən bir sıra təşəbbüslər barədə ətraflı məlumatlandırılıb.

Görüş zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Azərbaycanla Yunanıstan arasında əməkdaşlığın perspektivləri müzakirə edilib



Martın 13-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov XII Qlobal Bakı Forumu çərçivəsində Yunanıstan Respublikasının parlamentinin üzvü Dmitris Avramopulos ilə görüşüb.

XİN-dən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan-Yunanıstan ikitərəfli və çoxtərəfli münasibətləri, habelə regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

Görüşdə Qlobal Bakı Forumu kimi tədbirlərin dünyanı narahat edən çağırışlarla mübarizədə rolu vurğulanıb.

Ötən il ölkəmizdə təşkil olunan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) Yunanıstanın Baş nazir səviyyəsində təmsil olunması məmnunluqla xatırlanıb, ali və yüksəksəviyyəli bu kimi təmasların qarşılıqlı dialoqa töhfə verdiyi qeyd olunub. İki ölkə arasında bir sıra, o cümlədən iqtisadiyyat, ticarət, enerji təhlükəsizliyi, turizm, humanitar istiqamətlər üzrə əməkdaşlığın perspektivlərinin mövcud olduğu qeyd olunub.

Ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında vacib tərəfdaşlardan biri olduğu diqqətə çatdırılıb, həyata keçirilən layihələrin, xüsusilə "Cənub qaz dəhlizi"nin enerji sahəsində əməkdaşlıqda çəkisi və rolu vurğulanıb.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Ceyhun Bayramov Çin nümayəndəsi ilə regional və beynəlxalq vəziyyəti müzakirə edib



Martın 13-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov XII Qlobal Bakı Forumu çərçivəsində Çin Xalq Respublikası Hökumətinin Avropa məsələləri üzrə sabiq nümayəndəsi Vu Honqbo ilə görüşüb.

XİN-dən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan-Çin strateji tərəfdaşlığından irəli gələn məsələlər, habelə regional və beynəlxalq vəziyyət müzakirə olunub. Qlobal Bakı Forumunun bəşəriyyəti narahat edən, habelə daha inklüziv dünya düzəni ilə bağlı məsələlərin müzakirəsi baxımından vacib platforma olduğu qeyd olunub, Azərbaycan tərəfinə yüksəksəviyyəli təşkilatçılığa görə təşəkkür edilib.

Nazir Ceyhun Bayramov inkişaf edən ikitərəfli və çoxtərəfli münasibətlərimizin tarixində xüsusilə ötən ilin Azərbaycan və Çin arasında strateji tərəfdaşlıq münasibətlərinin təsbit olunması baxımından əhəmiyyət kəsb etdiyini qeyd edib. Strateji tərəfdaşlığımızın bu dinamikasının qorunmasının, habelə əməkdaşlığın genişləndirilməsinin vacibliyi, bu istiqamətdə siyasi məsləhətləşmələr mexanizmindən istifadənin əhəmiyyəti vurğulanıb.

Azərbaycan və Çinin daim bir-birilərinin ərazi bütövlüyü, suverenliyinə davamlı dəstək göstərdiyi qeyd olunub və buna görə təşəkkür ifadə edilib.

Regional və beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstək və həmrəyliyin bundan sonra da davam etdirilməsinin vacibliyi qeyd olunub.

Ötən il ölkəmizdə keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) Çin tərəfinin iştirak və töhfələri xüsusi qeyd olunub.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

GLOBAL BAKU FORUM

# XII Qlobal Bakı Forumu

*"Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi"*

## Qlobal Bakı Forumunda "Geosiyasi dəyişmələr: Məsuliyyətli tərəfdaşlıq rəqabətə qarşı" adlı panel keçirilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə Bakıda keçirilən "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusunda XII Qlobal Bakı Forumu işini panel iclaslarla davam etdirir.




















AZƏRTAC xəbər verir ki, martın 13-də Gürcüstanın Baş nazirinin sabiq müavini Eka Tkeşelaşvilinin moderatorluğu ilə keçirilən "Geosiyasi dəyişmələr: Məsuliyyətli tərəfdaşlıq rəqabətə qarşı" adlı panel iclasında əvvəlcə Avropa İttifaqı Şurasının sabiq prezidenti, Belçikanın keçmiş baş naziri Şarl Mişel çıxış edib. İlk baxışda çağırışlara diqqət yetirilməsinin vacibliyini vurğulayan Ş.Mişel bildirib: "Mənim vəzifəyə başladığım ilk beş ilin əvvəli COVID-19 pandemiyası dövrünə təsadüf etdi. Bu da müxtəlif çətinliklərə gətirib çıxardı. O zaman qərarların qəbul edilməsi asan deyildi. Həmin illərdə peyvəndlərin vaxtında çatdırılmasına çalışırdıq. Daha sonra Rusiya-Ukrayna müharibəsi başladı. İlk olaraq Ukraynaya kömək etməyə çalışdıq".

Ş.Mişel deyib ki, biz çoxqütblü dünyaya hərtərəfli dəstəyimizi göstərməliyik. Avropalılar özlərinə heç vaxt olmadığı qədər inamla yanaşmalıdırlar. Biz birləşdiyimiz zaman güclü olarıq. Çünki bu, bizim gələcəyimizlə bağlıdır.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev çıxışı zamanı bildirib ki, ölkə olaraq biz baş verən prosesləri diqqətlə izləyirik. İlk növbədə qütbləşmənin artdığını müşahidə edirik. Çoxtərəfli diplomatiya bu kontekstdə böyük əhəmiyyət daşıyır. Eyni zamanda parçalanma meyilləri və Şərq-Qərb qarşıdurmasının dərinləşməsi nəzərə çarpır. Cənubi Qafqaz regionu böyük güclərin maraqlarının toqquşduğu məkandır və bu proseslər hər zaman bizim maraqlarımıza uyğun olmaya bilər.

O qeyd edib ki, Ermənistan-Azərbaycan müharibəsi regionda yeni reallıqlar formalaşdırıb. Azərbaycan Cənubi Qafqazda ölkələrin ərazi bütövlüyünə və suverenliyinə əsaslanan yeni status-kvonun əsasını qoyub. "Bu region bizə məxsusdur və biz transformasiyanın düzgün istiqamətdə irəliləməsinə çalışmalıyıq. Ümid edirik ki, Ermənistan da bunu dərk edəcək. Hazırda Azərbaycan sülh müqaviləsi danışıqlarının aparıldığı bir mərhələdədir. Ermənistan tərəfi tam şəkildə Azərbaycana qarşı iddialı olmalı deyil", - deyə Prezidentin köməkçisi diqqətə çatdırıb.

Hikmət Hacıyev bildirib ki, Avropa İttifaqının bizim regionla bağlı yeni siyasətini görmək istəyirik. Ermənistanın silahlandırılması parçalanmanın yeni elementi ola bilər.

Postsovet erasından sonra yeni reallıqların göz qabağında olduğunu deyən Prezidentin köməkçisi Azərbaycanın buna etibarlı şəkildə yanaşdığını qeyd edib.

"Biz gözləmirik ki, kimsə dünya düzənini formalaşdırsın. Biz regionla bağlı həmfikir olan ölkələri birləşdirməyə çalışırıq. Azərbaycan qonşuluqda baş verən hadisələrdən xəbərdardır. Rusiya-Ukrayna müharibəsi, Yaxın Şərqdə baş verənlər məlumdur. Bu reallıqları nəzərə alaraq biz xarici siyasətimizdə Mərkəzi Asiya-Azərbaycan əlaqələrini gücləndirməyə çalışırıq. Bizim bu ölkələrlə tarixi bağlılığımız var. Həmçinin Türk Dövlətləri Təşkilatı yeni reallıqdır. Gürcüstan-Azərbaycan əməkdaşlığı erməni həmkarlar üçün də nümunə ola bilər. Xəzər dənizi bizi ayırmır, birləşdirir", - deyə o əlavə edib.

Latviyanın sabiq Prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Freyberqa çağdaş dünyada populizmin önə çıxdığını, hazırda məntiqsiz arqumentlərə malik liderlərin çıxışlarının yayıldığını bildirib, bunun çox təəssüfedici hal olduğunu qeyd edib.

Paneldə çıxış edən Türkiyə Böyük Millət Məclisinin üzvü, sabiq xarici işlər naziri Mövlud Çavuşoğlu qlobal tarixin kəsişən nöqtəsində yaşadığımızı deyərək bildirib ki, bu dəyişikliklər təkcə nəzəri deyil, həmçinin real vaxtda ərsəyə gəlməkdədir.

İkinci Dünya müharibəsindən sonrakı düzənin hələ də tam başa çatmadığını söyləyən Mövlud Çavuşoğlu qeyd edib: "Lakin biz qəbul etməliyik ki, 80 il yaşadığımız dövr artıq dəyişir. Türkiyə olaraq düşünürük ki, əvvəlkindən fərqli olaraq Rusiya-ABŞ-dən çox, Çin-ABŞ rəqabətini görəcəyik. Parçalanmış dünyada yeni güclər səhnəyə çıxmaqdadır. Bu məsələlər qlobal Qərb tərəfindən başa düşülməlidir. Biz ən azından gözləntiləri başa düşməliyik. Əvvəlki sistem hələ tam dağılmayıb. Biz islahatlar apararaq hamının iştirakı ilə yeni sistem qurmalıyıq. Əməkdaşlıq çərçivəsində münasibətləri dəyişməliyik".

Çinin Avropa məsələləri üzrə xüsusi nümayəndəsi Vu Honqbo isə hazırda çoxqütblü dünya haqqında danışıldığını vurğulayaraq deyib: "Çoxqütblülər arasında çaşqınlıq və yaxud xaosla üzləşmişik. Bu yaxınlarda BMT 80 illik yubileyini qeyd edəcək. Hamı gələcəyi necə qurmaqla bağlı tarixə baxmalıdır. BMT fəaliyyətini davam etdirməli, yoxsa dayandırmalıdır? Biz çarxı yenidən icad etməməliyik. Hesab edirəm ki, BMT-nin effektivliyini təmin etməklə onu saxlamalıyıq".

O bildirib ki, qlobal səviyyədə idarəçilik dəyişməlidir: "Çoxqütblü dünya kiminsə ideyası, xülyası deyil. Çin inanır ki, ABŞ ilə həm dost, həm də tərəfdaş ola bilər. Sadəcə böyük güclər özlərini böyük kimi aparmalıdır. Biz tarixi ədaləti bərpa etməliyik, xüsusilə Afrika ölkələrinə qarşı".

ARTOC İnvestisiya və İnkişaf Qrupunun sədri və icraçı direktoru Şafik Qabrinin fikrincə, onların nəsli dünyanı daha gözəl bir məkana çevirməkdə uğursuz olub. Lakin gənc nəsil Qərblə Şərq arasında körpülər qurur. Həm nikbin, həm də realist olduğunu vurğulayan Şafik Qabri bildirib: "Geosiyasi dəyişikliklər tarixboyu daim baş verib. İkinci Dünya müharibəsi, "soyuq müharibə", pandemiya - bütün bu hadisələr dünyamızı dəyişib. Lakin hazırda proseslər daha da qütbləşir. Bəzi qüvvələr media vasitəsilə təsir göstərməyə çalışır. Yumşaq gücün təsiri azalır, möhkəm güc isə güclənir".

Şafik Qabri beynəlxalq təşkilatların əsas zəifliyinin onların daha çox hərbi xərclərlə bağlı müzakirələr aparmasında olduğunu vurğulayıb. "Anlamalıyıq ki, geosiyasi dəyişikliklər baş verdikcə geoiqtisadiyyat da dəyişəcək. Bu, bütün dünyaya təsir göstərəcək. Əgər geosiyasət sabit deyilsə, geoiqtisadiyyat da sabit olmayacaq", - deyə o əlavə edib.

Yunanıstan Baş nazirinin nümayəndəsi, Avropa İttifaqı (Aİ) Komissiyasının Miqrasiya, daxili işlər və vətəndaşlıq üzrə keçmiş komissarı, Yunanıstanın keçmiş xarici işlər və milli müdafiə naziri Dimitris Avramopoulos diqqətə çatdırıb ki, Avropa İttifaqında bir çox məsələdə birlik yoxdur və bu, onları parçalayır, millətçiliyi genişləndirir. Avropa ekzistensial böhrandadır.

Paneldə bir neçə münaqişə barədə danışdıqlarını qeyd edən Dimitris Avramopoulos Avropada 400 milyon insanın miqrant olduğunu diqqətə çatdırıb.

O, Azərbaycanı da sabitləşdirici amil adlandıraraq Qlobal Bakı Forumunun dünyada ən böyük tədbirlərdən birinə çevrildiyini bildirib.

Dimitris Avramopoulos BMT-nin əvvəlki kimi güclü olmadığını, dərin böhran yaşadığını diqqətə çatdıraraq deyib: "Ümid edirəm ki, təşkilat tezliklə bu böhrandan çıxa biləcək".

Panel mövzu ətrafında müzakirələrlə davam edib.

## Bakı növbəti dəfə beynəlxalq tədbirə evsahibliyi edir

Martın 13-dən paytaxtımız XII Qlobal Bakı Forumuna evsahibliyi edir. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən forum martın 15-dək davam edəcək. Budəfəki forumun mövzusu "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi"dir.

Qeyd edək ki, Qlobal Bakı Forumu aktual məsələlərin, dünyada baş verən mühüm hadisələrin və cərəyan edən proseslərin müzakirə olunduğu mühüm platformadır. Xüsusilə qeyd edilməlidir ki, bu müzakirələrə onlarca ölkədən görkəmli dövlət xadimləri, tanınmış siyasətçilər, diplomatlar qoşularaq diskussiya və dialoq aparırlar ki, bu da forumun nüfuzunu və çəkisini daha da artırır. Bu mənada forum keçmiş və indiki liderlərə qlobal problemləri müzakirə etməyə, onların həlli yollarını tapmaq yolunda səyləri birləşdirməyə şərait yaradır. Forumun dövlətlərarası əməkdaşlığa, siyasi münasibətlərə konstruktiv töhfə verdiyi, qarşılıqlı siyasi anlaşma üçün əlverişli imkan yaratdığı şübhəsizdir.

Xatırladaq ki, Birinci Qlobal Bakı Forumu 2013-cü ildə təşkil olunub. Prezident İlham Əliyevin himayəsi altında keçirilən Qlobal Bakı Forumuna ildən-ilə dünyada olan maraq daha da yüksəlib. İndiyədək keçirilmiş forumların hər birinin mövzularını nəzərdən keçirdikcə bir daha aydın olur ki, Bakıda siyasi liderlərin, politoloqların, nüfuzlu dövlət xadimlərinin iştirakı ilə dünyanı narahat edən ən aktual məsələlər müzakirə olunub. Habelə bu forumlarda iştirak edənlərin statistik göstəriciləri təsdiq edir ki, ildən-ilə müzakirələrdə iştirak edənlərin sırası genişlənib. Bu da foruma dünyada artan marağın bariz göstəricisidir.

Bu tədbirin məhz Bakıda keçirilməsi Azərbaycana dünya miqyasında verilən böyük önəmin bariz nümunəsidir. Coğrafi baxımdan Şərq ilə Qərbin kəsişməsində yerləşən Azərbaycanın belə bir mötəbər tədbirə evsahibliyi etməsi ölkəmizin dünyada dialoqun qurulmasında mühüm rol oynadığını göstərir. O cümlədən xalqımızın qədim tarixi, zəngin mədəniyyəti, tolerantlığı barədə vaxtilə yetərincə məlumatı olmayan dünya Azərbaycanı ildən-ilə daha yaxından tanıyır və onun artan gücünün, beynəlxalq nüfuzunun şahidinə çevrilir.

XII Qlobal Bakı Forumu da maraqlı mövzuya həsr olunub. "Builki forum xüsusilə əhəmiyyətli olacaq, çünki dünya genişmiqyaslı dəyişikliklərlə üzləşib". Bunu Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin Bakı Qlobal Forumunun İdarə Heyətinin mətbuat konfransında deyib. Onun sözlərinə görə, XII Qlobal Bakı Forumu dünyanın aparıcı liderlərini, beynəlxalq təşkilatların nümayəndələrini və alimlərini açıq, məzmunlu diskussiyalar üçün bir araya gətirən mühüm hadisə olacaq.

Qeyd edək ki, XII Qlobal Bakı Forumunda 400-ə yaxın iştirakçı, o cümlədən ən azı 50 fəaliyyətdə olan və sabiq prezident, Baş nazir, həmçinin BMT strukturlarının rəhbərləri, alimlər və ekspertlər iştirak edirlər.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

GLOBAL BAKU FORUM

# XII Qlobal Bakı Forumu

*"Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi"*

## Qlobal Bakı Forumunda çoxqütblü dünya üçün multilateralizmə yenidən baxılması mövzusu müzakirə olunub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə Bakıda keçirilən "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusunda XII Qlobal Bakı Forumu işini panel iclaslarla davam etdirir.









AZƏRTAC xəbər verir ki, Belçikanın sabiq Baş naziri İv Lötermin moderatorluğu ilə keçirilən "Çoxqütblü dünya üçün multilateralizmə yenidən baxılması" adlı panel iclasında əvvəlcə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Qebreyesus çıxış edib. O, ABŞ-nin ÜST-dən çıxmasını itki olaraq qiymətləndirərək deyib: "Təcrid olmaq bir seçim deyil. Beynəlxalq əməkdaşlıq vacibdir. Yeganə imkan birgə mübarizədir. ABŞ inkişafa dəstəyin 30 faizini ödəyir. Odur ki, bu maliyyənin ödənilməməsi səhiyyəyə təsir göstərəcək. Məsələn, Qazanılmış İmmunçatışmazlığı Sindromuna (QİÇS) qarşı mübarizəyə və digər sahələrə maliyyə yardımının göstərilməməsi qabaqcıl tədbirlərin görülməməsinə səbəb olacaq. Anbarlarda kifayət qədər dərmanların olmaması, çatdırılmanın gecikməsi müalicəni çətinləşdirir. Burada xüsusilə Afrika qitəsini qeyd etmək lazımdır. Yeddi yüzdən çox laboratoriyanın fəaliyyətini dayandırmalı olacağıq".

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov beynəlxalq münasibətlər sisteminin yeni mərhələdən keçdiyinə diqqət çəkib: "Geosiyasi dəyişikliklər, daha geniş münaqişələr müşahidə olunur. Məhz bu sahədəki böhran çağırışlarının həll variantlarının tapılması olduqca vacibdir. Bir çox təsisatlar təsirli yanaşmalar tətbiq etməyə çalışırlar. Gücün tətbiqindən əl çəkmək, tərəfləri daha çox bir araya gətirmək istəyirlər".

Nazir bildirib ki, çoxqütblülük qlobal səviyyədə güclərin dəyişməsi, tarazlığın bərpası deməkdir. Dövlətlər ideoloji baxımdan daha sıx işləməyə çalışırlar. İkitərəfli razılaşmalara daha çox üstünlük verilir, nəinki daha böyük razılaşmalara.

"Azərbaycan münaqişələrə və çağırışlara baxmayaraq, tərəfdaşlarla əməkdaşlıq edir. Biz bərabərliyi üstün tuturuq. Azərbaycan çoxtərəfli münasibətlərə önəm verir. Bütün beynəlxalq təşkilatlarla əlaqələr qururuq. Biz milli maraqlarımızı müdafiə edirik, eyni zamanda digərlərinin maraqlarına hörmət bəsləyirik", - deyə nazir əlavə edib.

Finlandiyanın sabiq Prezidenti Tarya Halonen çoxqütblü dünyanın hər kəs üçün vacib olduğunu bildirərək vurğulayıb: "Düşünürəm ki, Təhlükəsizlik Şurasının tərkibi daha çoxşaxəli olmalıdır. Hazırda bütün dünyada gedən dəyişikliklər olduqca mürəkkəbdir".

İspaniyanın sabiq xarici işlər naziri Ana Palasio isə sülhə nail olmağın yolunun qarşılıqlı məsləhətləşmələr olduğunu deyib. Onun sözlərinə görə, çoxqütblülük mövzusunun müzakirə edilməsi olduqca vacib məsələdir.

"Bir çox məsələlər müzakirə olunur. Ancaq əsas düşündürücü məqam bütün proseslərin başlama səbəbidir. İnsanlar süni intellekt, kosmos və insan irqi barədə narahatdırlar. Çalışmaq lazımdır ki, narahatlıq yaradan problemlərin həll yolları axtarılsın. Bu səbəbdən Qlobal Bakı Forumunun çox əhəmiyyətli platforma olduğunu düşünürəm", - deyə o əlavə edib.

BMT Baş Assambleyasının 62-ci sessiyasının sədri, Şimali Makedoniyanın keçmiş xarici işlər naziri Srgjan Kerim beynəlxalq münasibətlərdə dərin böhran və tektonik dəyişikliklərin olduğunu xatırladaraq qeyd edib: "Biz əsas diqqətimizi qeyri-tarazlığın necə aradan qaldırılmasına yönəltməliyik. Yeni dünya düzənində güclərin tarazlığı olacaqmı, yoxsa maraqların? Bu, ən vacib iki məqamdır".

O, həmçinin bildirib: "BMT yeganə beynəlxalq universal qurumdur. Onun buraxılması faciəvi səhv olardı. Tarixdən dərs çıxarmalıyıq. Belə bir qurumun mövcud olmaması İkinci Dünya müharibəsinə gətirib çıxardı. Artıq uzun müddətdir ki, BMT-də islahatların aparılmasının vaxtı yetişib. Bu sistem daxilində illərdir həmin istiqamətdə çağırışlar var. Biz əsas diqqətimizi məhz bu məsələyə yönəltməli və sadəcə, çoxqütblü dünyaya uyğunlaşmalıyıq".

Ərəb Liqasının sabiq Baş katibi, Misirin sabiq xarici işlər naziri Amr Musa beynəlxalq münasibətlərdə ünsiyyətin, qarşılıqlı əməkdaşlığın önəmini xatırladaraq vurğulayıb: "Mən səmimi-qəlbdən ümid edirəm ki, hazırda dünyadakı geosiyasi vəziyyəti olduğu kimi görürsünüz. Bu, gələcəyin gündəmidir. Beynəlxalq sülhə və təhlükəsizliyə təhdidlər birbaşa müharibələrlə əlaqəlidir".

"Reinventing Bretton Woods" Komitəsinin təsisçisi və icraçı direktoru Mark Uzan son 30 ildə qlobal maliyyə sisteminin bir çox maliyyə böhranı ilə üzləşdiyini bildirərək deyib: "İlk böhran ötən əsrdə başladı. Meksika böhranını xatırlaya bilərsiniz, sonra Kanada maliyyə böhranı gəldi və nəhayət, 2008-ci ilin böyük qlobal maliyyə böhranı baş verdi. Bütün bu böhranlar beynəlxalq əməkdaşlıq mexanizmi sayəsində həll edildi", - deyə o diqqətə çatdırıb.

Renmin Universitetinin Avropa Araşdırmaları Mərkəzinin direktoru Vanq Yivei isə çoxtərəfliliyi dəstəkləməyin vacibliyini vurğulayıb. O qeyd edib ki, bu, təkcə bir proses deyil, həm də əldə olunan nəticələrə əsasən daha çox üstünlük verilməli yanaşmadır.

"Çin də eyni mövqedədir və biz çoxtərəfliliyin tərəfdarıyıq. Çində biz deyirik ki, hər şey xalqa xidmət üçündür", - deyə o diqqətə çatdırıb.

Vanq Yivei həmçinin əlavə edib: "Suriyadan Avropaya axın edən qaçqınların sayına baxdıqda, bunun müxtəlif yan təsirlərlə bağlı olduğunu görürük. Biz dünyada bir ailə kimi yaşamalıyıq".

Panel mövzu ətrafında müzakirələrlə davam edib.

## Bakı Forumunda panel müzakirəsi: "Gələcək üçün BMT paktı: Yeni qlobal konsensusun yaradılması"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə Bakıda keçirilən "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusunda XII Qlobal Bakı Forumunun birinci gününün sonuncu paneli keçirilib.




AZƏRTAC xəbər verir ki, Bosniya və Herseqovinanın BMT yanında daimi nümayəndəsi, Bosniya və Herseqovinanın sabiq Baş naziri, Bosniya və Herseqovinanın sabiq Baş nazirinin müavini Zlatko Laqumdziyanın moderatorluğu ilə keçirilən "Gələcək üçün BMT paktı: Yeni qlobal konsensusun yaradılması" adlı panel iclasda Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-Davkova çıxış edib.



Türkiyə Respublikası Prezidentinin milli təhlükəsizlik və xarici siyasət üzrə baş müşaviri Akif Çağatay Kılıc, Beynəlxalq Telekommunikasiya Birliyinin Baş direktorunun müavini Tomas Lamanauskas, Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) Baş direktorunun müavini, Nüvə Elmləri və Tətbiqləri Departamentinin rəhbəri Nəcat Moxtar, BMT 77-ci Baş Assambleyasının Prezidenti Ksaba Korosi, İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi Əsəd M.Xan, Macarıstanın sabiq Prezidenti Katalin Novak və Dünya Bankının sabiq vitse-prezidenti Hafez Qanem, Sloveniyanın sabiq Prezidenti Borut Pahorun da çıxış etdikləri iclasa BMT Baş katibinin siyasət üzrə müavini Qay Rayder videoformatda qoşulub.

Qay Rayder bildirib ki, BMT-nin Gələcək üçün Paktı beynəlxalq səviyyədə əldə olunan vacib sənəddir. Bu sənəd, habelə onun ehtiva etdiyi Qlobal Rəqəmsal Saziş və Gələcək Nəsillər haqqında Bəyannamə yeni fürsətlərə və istifadə olunmamış imkanlara yol açır. Bu sənəd bütün xalqlar və millətlər üçün davamlı, ədalətli və dinc qlobal nizamın əsasını qoyacaq.

Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) Baş direktorunun müavini Tomas Lamanauskas çıxışında deyib: "Biz təmiz enerji həllərini də önə çəkməliyik, çünki süni intellektlə bağlı məlumat mərkəzləri artıq planetimizdə müəyyən gərginlik yaradır". O qeyd edib ki, "BMT və bir sıra təşkilatlar süni zəka, maliyyələşmə və təhlükəsizlik məsələləri kimi sahələrdə birgə işləyə bilmir" fikri formalaşıb. Lakin Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədləri və COP29 çərçivəsində birgə maliyyə fəaliyyəti üzrə əldə olunan irəliləyiş sübut edir ki, BMT və üzv ölkələr, təşkilatlar birgə səylər nəticəsində razılığa gələ bilirlər.

Türkiyə Respublikası Prezidentinin milli təhlükəsizlik və xarici siyasət üzrə baş müşaviri Akif Çağatay Kılıc qeyd edib ki, Türkiyə coğrafi mövqeyinə görə bütün münaqişələrin mərkəzinə çevrilib. Bu gün qonşuluğumuzda olan Qəzza, Ukrayna və münaqişə yaşanan digər bölgələrdə sabitlik çox həssasdır. Ermənistanla Azərbaycan arasında 30 illik müharibə öz həllini tapa bilmirdi. Minlərlə insanlar bu cür münaqişələrdə həyatlarını itirdi. Bu isə münaqişə tərəflərinin bir-birinə etimad göstərməməsindən irəli gəlir.

"Biz öz məsələlərimizi indidən həll etməliyik ki, gələcək nəsillər bu tələdə qalmasınlar", - deyə Akif Çağatay Kılıc əlavə edib.

Nüvə Elmləri və Tətbiqləri Departamentinin rəhbəri Nəcat Moxtar diqqətə çatdırıb ki, Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin bombalarla əlaqəsi yoxdur, bu təşkilat sülh naminə nüvə enerjisi istifadəsini təmin edir. Burada isə elm və texnologiya mühüm rol oynayır. Düşünürəm ki, alimlərin və siyasətçilərin bir masada oturmaları düzgün olardı.

BMT 77-ci Baş Assambleyasının Prezidenti Ksaba Körösi çıxışında qeyd edib ki, geosiyasi çağırışlarla mübarizə aparmaq üçün qurum olaraq adətən sıfır məbləğli oyun (zero-sum game) yanaşmasını tətbiq edirik. Qlobal iqtisadi artımla bağlı böhranları həll etmək üçün isə əməkdaşlığa ehtiyacımız var. Çünki yalnız birlikdə reallıqları və hazırkı vəziyyəti daha yaxşı həll yolu tapmaqla dəyişə bilərik.

İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi Əsəd M.Xan bildirib ki, mövcud çağırışları və Təhlükəsizlik Şurasının iflic olmasını nəzərə alaraq, Gələcək üçün BMT paktı çox mühüm məsələlərdən biridir. Onun icrası üçün yeni üfüqlər yaradılmalıdır.

Panel iclasda çıxış edən digər natiqlər BMT-nin daha səmərəli fəaliyyəti üçün bütün ölkələrlə sıx əlaqədə və əməkdaşlıq qurulmasının vacibliyini vurğulayıb, dünyada mövcud durumda konstruktiv dialoqun aparılmasının vacibliyini diqqətə çatdırıblar.

### *Sabiq prezident Andris BERZİNŞ:*

## "Latviya ilə Azərbaycan arasında elm və təhsil sahəsində əməkdaşlıq potensialı yüksəkdir"

"Latviya ilə Azərbaycan arasında uzunmüddətli sıx əlaqələr mövcuddur". Bu barədə AZƏRTAC-a müsahibəsində Latviyanın sabiq prezidenti Andris Berzinş deyib.

"Şəxsən öz adımdan deyə bilərəm ki, prezidentliyim müddətində Azərbaycan Prezidenti ilə gözəl əlaqələrimiz olub. Siyasi və iqtisadi əlaqələrimiz uğurla inkişaf edir və hazırda burada olmağımın əsas məqsədi bu pozitiv dinamikanı gücləndirməkdir. Təhsil sahəsinə gəldikdə isə fikrimcə, ölkələr arasında tələbə mübadiləsi aşağıdır. Ona görə də bu sahədə çoxlu sayda birgə layihələr icra olunmalıdır, təmaslar qurulmalıdır. Xüsusilə elm və təhsil sahəsində iki ölkə arasında əməkdaşlıq potensialı yüksəkdir. Düşünürəm ki, Azərbaycanda latviyalı tələbələrin və Latviyada azərbaycanlı tələbələrin sayında artım ölkələr arasında münasibətlərə pozitiv təsir göstərər", - deyə Latviyanın sabiq prezidenti əlavə edib.

### *Albaniya Prezidenti:*

## "Bu forum həm təcrübəmizi, həm də narahatlığımızı bölüşmək üçün yaxşı fürsətdir"

"Bakı Qlobal Forumu mühüm məsələlər haqqında müzakirələr aparmaq üçün çox yaxşı fürsətdir". AZƏRTAC xəbər verir ki, bu fikri Albaniya Respublikasının Prezidenti Bayram Beqay XII Qlobal Bakı Forumu çərçivəsində jurnalistlərə açıqlamasında deyib.

"Düşünürəm ki, dünyanın narahat olduğunu, o qədər çox mənfi hadisələrin olduğunu nəzərə alsaq, bütün bu çağırışları öz imkanlarımıza çevirmək üçün real imkanları müzakirə edə bilərik. Burada ən vacib məqamlardan biri hər bir təmsilçinin öz ölkəsində rastlaşdığı problemlərdən danışmasıdır. Bu problemlər barədə fikirlərimi əvvəlcə Prezident İlham Əliyevlə, eyni zamanda bir sıra forum iştirakçıları ilə bölüşmək istədim. Bu forum həm təcrübələrimizi, həm də narahatlıqlarımızı bölüşmək üçün yaxşı fürsətdir", - deyə Albaniya Prezidenti vurğulayıb.

# Milli Məclis hərbi cinayətlər törətməkdə təqsirləndirilən şəxslərlə bağlı beynəlxalq təsisatlara məktublar ünvanlayıb

Hərbi cinayətlər törətməkdə təqsirləndirilən şəxslərlə bağlı Azərbaycanda keçirilən məhkəmə prosesi ilə əlaqədar Milli Məclis tərəfindən xarici ölkələrin parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının rəhbərlərinə, parlamentlərin beynəlxalq komitələrinin sədrlərinə və beynəlxalq parlament təşkilatlarına məktublar ünvanlanıb.



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, məktublarda Azərbaycanın hərbi cinayətlər törətməkdə təqsirləndirilən şəxslərin məhkəmə prosesini pozmağa cəhd edən əsassız qarayaxma kampaniyası ilə üzləşdiyi qeyd olunub. Həmin şəxslərin Ermənistanın 30 il davam etmiş hərbi təcavüzü çərçivəsində hərbi cinayətlər, bəşəriyyətə qarşı cinayətlər, etnik təmizləmə, hərbi təcavüz, soyqırımı aktları, işgəncələr və digər ağır cinayətlər törətməkdə ittiham olunduqları diqqətə çatdırılır.

Bu məsələ ilə bağlı irəli sürülən yalan iddiaların məhkəmənin legitimliyini şübhə altına almaq məqsədi daşıdığı vurğulanaraq qeyd edilir ki, hərbi cinayətkarları "hərbi əsir" adlandırmaq və onların azad olunmasını tələb etmək vəziyyətin mahiyyətini bilməməkdən və ya onu qəsdən görməzdən gəlməkdən qaynaqlanır.

Həmçinin mühakimə olunanların Azərbaycan dövlətinə və xalqına qarşı törətdikləri cinayətlər faktlarla diqqətə çatdırılır. Bu şəxslərin Azərbaycan ərazilərinə qarşı həyata keçirilmiş hərbi təcavüzü planlaşdıran və icra edən, eyni zamanda hərbi cinayətlər, bəşəriyyətə qarşı cinayətlər törədənlər arasında olduqları vurğulanır. Lakin bu günədək bu müharibə cinayətlərinə və insanlıq əleyhinə cinayətlərə görə Ermənistanda bir nəfərin belə məsuliyyətə cəlb olunmadığı, əksinə, Ermənistanın bu cinayətkarları qəhrəman kimi tərənnüm etməkdə davam etdiyi vurğulanır.

Məktublarda deyilir ki, aparılan istintaq zamanı Ermənistanın və onun hərbi-siyasi rəhbərliyinin hərbi təcavüz və işğala görə məsuliyyət daşıdığını sübut edən mühüm faktlar aşkar olunub.

Eyni zamanda bildirilir ki, bəzi siyasətçilərin, parlament üzvlərinin və media nümayəndələrinin əsassız iddialarına baxmayaraq, bu şəxslərin vəkil tutmaq hüququ tam təmin edilir, onlara qarşı hər hansı pis rəftar barədə heç bir şikayət daxil olmayıb və məhkəmə prosesləri tam şəffaf şəkildə aparılır.

Yekunda vurğulanır ki, Azərbaycanın ərazisində müharibə cinayətkarlarının ədalətli mühakiməsinə qarşı çıxanlar açıq şəkildə etnik təmizləməni, işğalı və təcavüzü dəstəkləyirlər. Ədalət olmadan sülh mümkün deyil və ədalət yalnız cəzasızlıq sona çatdırıldıqda bərqərar ola bilər.

Məktublara Ermənistanın Azərbaycan ərazilərini işğal etdiyi dövrdə törətdiyi müharibə cinayətləri və insanlığa qarşı cinayətləri özündə ehtiva edən və BMT Baş Assambleyasının və BMT Təhlükəsizlik Şurasının rəsmi sənədi kimi qəbul edilmiş 2019-cu il tarixli "Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində müharibə cinayətləri və Ermənistan Respublikasının məsuliyyəti haqqında Hesabat" (A/74/676 - S/2020/90) da (https://www.mfa.gov.az/files/report-on-the-war-crimes-in-the-occupied-territories-of-the-republic-of-azerbaijan-and-the-republic-of-armenias-responsibility.pdf) əlavə edilib.

*"Azərbaycan"*

# Estoniyalı parlamentarilər Ulu Öndərin məzarını və Zəfər parkını ziyarət ediblər






Ölkəmizdə səfərdə olan Estoniya Respublikası Parlamentinin Estoniya-Azərbaycan parlamentlərarası İşçi qrupunun sədri Riina Solman və qrupun üzvü Maria Jufereva-Skuratovski martın 13-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə gül dəstələri düzüblər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin məlumatına görə, sonra nümayəndə heyəti Bakıda Zəfər parkını ziyarət edərək abidə önünə gül dəstələri düzüb. Qonaqlara Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə ətraflı məlumat verilib.




Ziyarət zamanı nümayəndə heyətini Milli Məclisin deputatı, Azerbaycan-Estoniya parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbəri Afət Həsənova və digər rəsmi şəxslər müşayiət ediblər.

*"Azərbaycan"*

# Milli Məclisdə görüş

Martın 13-də Milli Məclisin Sədr müavini Rafael Hüseynov Estoniya Respublikası parlamentinin (Riiqikoqun) Azərbaycanla parlamentlərarası dostluq qrupunun sədri Riina Solman ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin məlumatına görə, qonağı salamlayan Rafael Hüseynov Azərbaycanın Estoniya ilə əlaqələrin inkişafına böyük əhəmiyyət verdiyini bildirib. Ölkələrimizin müstəqillik tarixlərini müqayisə edən vitse-spiker 30 ildən artıq davam edən diplomatik münasibətlərimizdən söz açıb, müstəqillik illərində əlaqələrimizin yüksələn xətt üzrə inkişaf etdiyini deyib. Rafael Hüseynov ikitərəfli münasibətlərdə parlamentlərarası əlaqələrin xüsusi önəm daşıdığını söyləyib, beynəlxalq parlament təşkilatlarında əməkdaşlığın əhəmiyyətindən danışıb, parlamentlər arasında təmasların intensivliyinin vacibliyini, qarşılıqlı səfərlərin həyata keçirilməsinin əhəmiyyətini vurğulayıb.

Vitse-spiker qonaqlara bölgədəki vəziyyət, Azərbaycanın regionda davamlı sülhün bərqərar olunması istiqamətində atdığı konstruktiv addımlar barədə məlumat verib, ölkəmizin regionda və ümumən dünyada davamlı sülhün və sabitliyin tərəfdarı olduğunu diqqətə çatdırıb.



Riina Solman göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirib. O, ölkələrimiz arasında siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığın uğurla davam etdirildiyini vurğulayıb. Qonaq Estoniya parlamentinin də Azərbaycan parlamenti ilə münasibətlərin dərinləşməsində və əməkdaşlığın inkişafında maraqlı olduğunu diqqətə çatdırıb. O, parlamentlərarası əlaqələrin inkişafının hər iki tərəf üçün çox faydalı olacağına əminliyini bildirib. Söhbət zamanı tərəflər ölkələrimiz və parlamentlərimiz arasında əlaqələrin gələcək inkişaf istiqamətləri, regional təhlükəsizlik və onları maraqlandıran digər məsələlər ətrafında fikirlərini bölüşüblər.

Görüşdə Milli Məclisin Estoniya ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbəri Afət Həsənova, qrupun üzvləri Anatoliy Rafailov, Azər Kərimli, Estoniya parlamentinin Azərbaycanla parlamentlərarası dostluq qrupunun üzvü Maria Jufereva-Skuratovski, dostluq qrupunun katibi Susanna Veevo və digər rəsmi şəxslər iştirak ediblər.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Azərbaycan və Estoniya parlamentləri arasında əməkdaşlıq yüksələn xətlə inkişaf edir

Martın 13-də Milli Məclisdə Estoniya ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupu üzvlərinin ölkəmizdə səfərdə olan Estoniya Respublikası parlamentinin (Riiqikoqu) Estoniya-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Riina Solmanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşü keçirilib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin məlumatına görə, Milli Məclisin Estoniya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Afət Həsənova qonaqları salamlayaraq, belə görüşlərin əlaqələrin möhkəmlənməsinə xidmət etdiyini söyləyib. O, Azərbaycanla Estoniyanın birbirinin müstəqilliyini tanıyan ilk dövlətlər olduğunu qeyd edib. Ölkələrimiz arasında diplomatik, iqtisadi, mədəni sahələrdə əlaqələrin uğurlu inkişafından bəhs edib.

Millət vəkili son illər ərzində parlamentlər arasında əməkdaşlığın yüksələn xətlə inkişaf etdiyini bildirib. Hər iki ölkənin parlament sədrlərinin qarşılıqlı səfərlərinin, keçirdikləri görüşlərin münasibətlərin güclənməsində önəmli rolunu vurğulayıb. O, Estoniya-Azərbaycan parlamentlərarası dostluq qrupunun Xocalı soyqırımının ildönümü ilə bağlı verdiyi bəyanatın yüksək dəyərləndirildiyini qeyd edib. Parlamentlərarası əlaqələrin dövlətlərimiz arasında münasibətlərin inkişafına töhfə verdiyini bildirib.

Estoniya parlamentinin Azərbaycanla parlamentlərarası İşçi qrupunun sədri Riina Solman dövlətlərimiz arasında möhkəm dostluq əlaqələrinin olduğunu deyib. O, ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini söyləyib. Qonaq təmsil etdiyi dostluq qrupunda hər il Xocalı soyqırımı ilə bağlı sənəd qəbul edildiyini diqqətə çatdıraraq, Xocalıda dinc əhaliyə qarşı törədilmiş cinayəti pislədiklərini bildirib. O, parlamentlərarası əməkdaşlığın genişləndirilməsində dostluq qruplarının xüsusi rolundan danışıb.

Görüşdə Milli Məclisin Estoniya ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun üzvləri Nizami Səfərov, Anatoliy Rafailov, Erkin Qədirli, Estoniya parlamentinin Azərbaycanla dostluq qrupunun üzvü Maria Jufereva-Skuratovski qarşılıqlı əlaqələrin inkişafı ilə bağlı fikirlərini bölüşüblər.

Söhbət zamanı qonaqlara ərazilərimizin Ermənistan tərəfindən 30 illik işğalı nəticəsində ölkəmizə vurulmuş maddi və mənəvi ziyan barədə məlumat verilib. Bildirilib ki, 44 günlük Vətən müharibəsində qazanılmış Qələbədən sonra hazırda sülh müqaviləsinin bağlanması gündəmdədir və qarşı tərəfin törətdiyi maneələrə baxmayaraq, dövlətimiz bu istiqamətdə öz səylərini əsirgəmir. Bununla yanaşı, Azərbaycanda müxtəlif xalqların nümayəndələrinin dinc və qarşılıqlı anlaşma şəraitində yaşadığı, ölkəmizin multikulturalizm ənənələrinə sadiq olduğu söylənilib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# MDB PA-nın daimi komissiyasının onlayn iclasında

**Martın 13-də Müstəqil Dövlətlər Birliyi Parlament Assambleyasının (MDB PA) Aqrar siyasət, təbii ehtiyatlar və ekologiya üzrə daimi komissiyasının videokonfrans formatında iclası keçirilib.**




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin məlumatına görə, Milli Məclisin deputatı, MDB PA-nın Aqrar siyasət, təbii ehtiyatlar və ekologiya üzrə daimi komissiyasının sədr müavini Mixail Zabelin iclasda iştirak edib.

Tədbirdə "Radioaktiv tullantılarla rəftar haqqında", "İstixana qazlarının emissiyasının məhdudlaşdırılması haqqında", "Torpaq idarəçiliyi haqqında" və digər model qanun layihələrinə dair müzakirələr aparılıb.

*"Azərbaycan"*

# BMU-da mühəndislik problemlərinin həllində idarəetməyə dair beynəlxalq konfrans keçirilir

Martın 13-də Bakı Mühəndislik Universitetində (BMU) "Mühəndislik problemlərinin həllində menecment və idarəetmə" (MaCoSEP- 2025) mövzusunda beynəlxalq konfrans işə başlayıb.




Bu barədə AZƏRTAC-a BMU-dan məlumat verilib. Bildirilib ki, konfrans BMU, Elm və Təhsil Nazirliyinin İdarəetmə Sistemləri İnstitutu ilə yanaşı, ABŞ-nin Elektrotexnika və Elektronika Mühəndisləri İnstitutu (IEEE), Türkiyənin Ege, Macarıstanın Debrecen universitetləri, Ukraynanın Kibernetika İnstitutunun təşkilatçılığı ilə keçirilir.



Konfransda əvvəlcə şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad olunub, ardınca Dövlət himni səsləndirilib.

Tədbiri açan BMU-nun rektoru Yaqub Piriyev Türkiyə, Ukrayna, Qazaxıstan, Azərbaycan, Macarıstan, Polşa, Gürcüstan və digər ölkələrdən nüfuzlu alimlərin qatıldığı tədbirin təkcə mühəndislik sahəsində qazanılan nailiyyətlərin paylaşılması deyil, həm də ölkələrarası əlaqələrin möhkəmləndirilməsində mühüm bir platforma, gələcək əməkdaşlıqlar üçün körpü olduğunu bildirib. Azərbaycan təhsili və elminin əsas vəzifələrindən danışan rektor qloballaşan dünyanın müasir çağırışları, ölkədə yüksək biliyə malik cəmiyyətin qurulması zərurətinin Azərbaycan elmi qarşısında yeni tələblər qoyduğunu deyib və Prezident İlham Əliyevin bu istiqamətdə imzaladığı dövlət proqramlarını diqqətə çatdırıb.

Rektor elmi-tədqiqat müəssisələri, universitetlər, beynəlxalq təşkilatlar, dövlət və özəl sektorlardan olan nümayəndələrin bir araya gəldiyi konfransa yerli, eləcə də 17 xarici ölkə alimləri tərəfindən ümumilikdə 321 məqalənin təqdim olunduğunu və onlardan 180-nin qəbul edildiyini söyləyib. Eyni zamanda qida sənayesinin problemlərindən tutmuş süni intellektin və mühəndisliyin ən geniş problemlərinə dair ətraflı müzakirələrin konfransın işinə böyük töhfələr verəcəyini vurğulayıb.

Sonra çıxış edən İdarəetmə Sistemləri İnstitutunun baş direktoru akademik Əli Abbasov, Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyev, Sumqayıt Dövlət Universitetinin rektoru vəzifəsini icra edən Əminağa Sadıqov konfransın mühəndisliyin aparıcı sahələrinin problemlərinin araşdırılması baxımından önəmini diqqətə çatdırıb, elmi məruzələrin gələcək tədqiqatlar üçün baza rolunu oynayacağını qeyd ediblər.

Plenar sessiyada Səudiyyə Ərəbistanı KAPSARC tədqiqat mərkəzinin professoru Fateh Belaid, Avstriya İohann Kepler Universitetinin professoru İohann Reixl məruzələrlə çıxış ediblər.

Konfransın ikinci günündə Estoniyanın Tartu Universitetinin professoru Sedat Akleylek, İtaliyanın Palermo Universitetinin professoru Calogero Vetro və Hindistanın Rajagiri Texnologiya Məktəbinin professoru Sanni Josef Kalayathankalanın məruzələri dinləniləcək.

Martın 15-də başa çatacaq konfransın materialları "Scopus" və "Web of Science"ə daxil olan ABŞ Elektrotexnika və Elektronika Mühəndisləri İnstitutunun bazasında indeksləşəcək.

# Mədəniyyət naziri Neftçala rayonunda vətəndaşların müraciətlərini dinləyib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, hər ay mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən şəhər və rayonlarda qəbullar keçirilir.

Mədəniyyət naziri Adil Kərimli martın 13-də Neftçala rayon Heydər Əliyev Mərkəzində vətəndaşların müraciətlərini dinləyib. Bu barədə AZƏRTAC-a Mədəniyyət Nazirliyindən məlumat verilib.

Bildirilib ki, nazirliyin müvafiq struktur bölmələri rəhbərlərinin də iştirak etdiyi qəbulda Neftçala, Salyan, Biləsuvar, Hacıqabul rayonları və Şirvan şəhərindən olan vətəndaşlar müraciət və təkliflərini diqqətə çatdırıblar.

Vətəndaşların müraciətləri əsasən mədəniyyət sahəsinə dair təkliflər, məşğulluq, iş yerinin dəyişdirilməsi, maddi-texniki təchizatın yaxşılaşdırılması, əməyin qiymətləndirilməsi və digər məsələlərlə bağlı olub.

# Azərbaycanın xarici siyasətinin uğurları

## Şimali Makedoniya Prezidentinin səfəri münasibətlərin inkişafına töhfə verəcək

"Son dövrlər ölkəmizin dünyada artan nüfuzu Balkan dövlətləri ilə ikitərəfli əməkdaşlığın inkişafına da müsbət təsir göstərib. Bu müsbət tendensiya Azərbaycan-Şimali Makedoniya əlaqələrində də müşahidə olunur ".



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Zaur Şükürov deyib. O bildirib ki, Şimali Makedoniya 25 iyun 1995-ci ildə Azərbaycanın müstəqilliyini tanıyıb, 28 iyun 1995-ci ildə isə iki ölkə arasında diplomatik münasibətlər qurulub. Məhz həmin tarixdən dostluq və əməkdaşlıq əlaqələri ardıcıl şəkildə inkişaf edib və 2023-cü ildən yeni mərhələyə yüksəlib.

Bu il iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd ediləcəyini vurğulayan deputat əlavə edib ki, hazırda Azərbaycan-Şimali Makedoniya münasibətləri dostluq və əməkdaşlıq prinsiplərinə əsaslanaraq qarşılıqlı maraq doğuran müxtəlif sahələri əhatə edir: "Heç şübhəsiz, ali və yüksəksəviyyəli səfərlər əlaqələrin inkişafında vacib amillərdən biridir. Bu baxımdan Şimali Makedoniya Prezidenti Qordana Silyanovska-Davkovanın ölkəmizə rəsmi səfəri iki ölkə arasında münasibətlərin davamlı inkişafına mühüm töhfə verəcək. Prezident İlham Əliyevin mətbuata verdiyi bəyanat iki ölkə arasındakı münasibətlərin strateji inkişafı imkanlarını təqdim etməklə gələcək əməkdaşlıq perspektivlərinin müəyyən edilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Bu səfər və səsləndirilən bəyanatlar onu deməyə əsas verir ki, Azərbaycan və Şimali Makedoniya əməkdaşlığı yalnız ikitərəfli formatla məhdudlaşmır, həm regional, həm də qlobal məsələlərdə ortaq maraqlara əsaslanır".

Z.Şükürov qeyd edib ki, dövlət başçısının bildirdiyi kimi, indiyədək ticari-iqtisadi sahədə böyük nəticələr əldə olunmasa da, Şimali Makedoniya Prezidentinin rəsmi səfəri və nümayəndə heyətlərinin səmərəli görüşləri bu istiqamətdə də inkişafa mühüm töhfə verəcək. Prezident İlham Əliyev Azərbaycan və Şimali Makedoniya arasındakı dostluq əlaqələrinin möhkəmlənməsi, eləcə də iqtisadi, enerji və mədəni əməkdaşlığın genişləndirilməsi istiqamətində atılan addımların əhəmiyyətini vurğulayıb. Xüsusilə danışıqlarda enerji təhlükəsizliyi məsələsində Azərbaycanın Avropanın etibarlı tərəfdaşı kimi rolu və bu kontekstdə Şimali Makedoniya ilə əməkdaşlıq imkanlarının genişləndirilməsi əsas müzakirə mövzularından biri olub.

Deputat bildirib ki, Avropada Azərbaycan qazına ehtiyac var və Bakıda imzalanmış Avropa İttifaqı ilə Azərbaycan arasında energetika sahəsində strateji tərəfdaşlıq Bəyannaməsi bunun bariz nümunəsidir. Bu gün Azərbaycan qazı bir çox Avropa ölkəsinin enerji təhlükəsizliyini təmin edir. Azərbaycan hazırda Avropaya enerji resurslarının tədarükündə mühüm aktor kimi çıxış edərək bu qitənin 10 ölkəsinə təbii qaz ixrac edir. "Dövlət başçımız siyasi dialoqun inkişaf etdirilməsinin vacibliyini qeyd edərək beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin əhəmiyyətini də vurğulayıb. Azərbaycanın Qoşulmama Hərəkatında və digər beynəlxalq platformalarda fəal iştirakı, eləcə də regional və qlobal sabitliyə töhfə vermək məqsədilə göstərdiyi səylər Şimali Makedoniya ilə münasibətlərdə də öz əksini tapır. Xatırladaq ki, Prezident İlham Əliyevin keçən il noyabrın 14-də Bakıda keçirilən COP29 konfransı çərçivəsində də Şimali Makedoniya Prezidenti xanım Qordana Silyanovska-Davkova ilə görüşü olmuşdur. Azərbaycan və Şimali Makedoniya arasında mədəni və humanitar əlaqələrin gücləndirilməsi də mühüm məsələlərdən biri kimi diqqətdə saxlanılır. İki ölkə xalqları arasında tarixi və mədəni bağlar daha sıx əməkdaşlıq üçün geniş imkanlar yaradır. Bu xüsusda dünya miqyasında layiqli yer tutan Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən təşkil olunan XII Qlobal Bakı Forumunda Şimali Makedoniya Prezidentinin iştirakı humanitar əlaqələrin genişləndirilməsində mühüm rol oynayacaq", - deyə siyasətçi əlavə edib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Rusiyalı ekspert Darya Qrevtsova qlobal çağırışlar, geosiyasət və Azərbaycan haqqında danışıb

Darya Qrevtsova tanınmış rusiyalı politoloq, Siyasi Araşdırmalar İnstitutunun direktor müavinidir. O, beynəlxalq münasibətlər üzrə ixtisaslaşıb və postsovet məkanına, o cümlədən Cənubi Qafqaza xüsusi diqqət yetirərək geosiyasi prosesləri fəal təhlil edir. Darya özünün ekspert rəylərində Rusiya-Azərbaycan münasibətləri, Azərbaycanın regiondakı rolu və aparıcı qlobal oyunçularla qarşılıqlı əlaqəsini dəfələrlə şərh edib.

Biz bu müsahibədə təkcə qlobal çağırışlar və geosiyasəti müzakirə etməklə kifayətlənmədik, həm də Darya Qrevtsovanın Azərbaycanı necə gördüyünü, siyasət elminə necə gəldiyini və bu sahədə onu ən çox təəccübləndirən cəhətləri öyrəndik.

*- Darya Vasilyevna, dünyada mövcud geosiyasi vəziyyəti necə xarakterizə edərdiniz? Hazırda hansı regionlar daha qeyri-sabitdir?*

- Dünyada geosiyasi vəziyyət qeyri-sabitdir. Hadisələr çox böyük sürətlə dəyişir, xarici siyasət dinamik inkişaf edir, ağrılı nöqtələrə toxunur ki, bu da müxtəlif regionlarda münaqişələrə gətirib çıxarır. Hazırda ən gərgin nöqtələr Ukrayna, Yaxın Şərq və Suriyadır. ABŞ-də Donald Trampın hakimiyyətə qayıdışından sonra siyasi qruplar arasında mübarizə daha da şiddətlənib. Qondarma "dərin dövlət" - kəşfiyyat agentlikləri və Pentaqon rəsmiləri Prezidentlə münaqişəyə girərək öz gündəmini irəli sürürlər. Bundan əlavə, Afrikada qeyri-sabitlik davam edir. Konqoda döyüşlər səngimir və keçmiş Fransa koloniyalarında Parisin təsirinə qarşı müqavimət getdikcə güclənir.

Bu proseslər narahatlıq doğursa da, Azərbaycan kimi ölkələrin əvvəllər susqun vəziyyətdə olan məsələləri gündəmə gətirməsi ürəkaçandır. Dünya sürətlə dəyişir və hər an yeni münaqişə başlaya bilər. Əsas problem milli liderlərlə onların xalqlarının maraqları arasında uyğunsuzluqdur. İnsanlar yenidən siyasətə təsir etmək istəyirlər.

*- Əvvəllər dediyiniz kimi, İrəvan Ermənistan-Azərbaycan nizamlanması üzrə danışıqlarda qəbuledilməz şərtlər irəli sürür. Sizcə, indiki vəziyyətdə Ermənistanın strategiyası necədir?*

- Ermənistan hakimiyyətinin strategiyası Qərblə yaxınlaşmağa yönəlib, amma bu, vətəndaşların özlərinin və sülh prosesinin maraqlarına uyğun deyil. Baş nazir Nikol Paşinyan hesab edir ki, Qərb Ermənistana kömək edəcək, onu hərbi təchizatla və hətta əsgərlərin iştirakı ilə qoruyacaq. Lakin tarixi təcrübə göstərir ki, Qərbin öz eqoist maraqları var - Ermənistanın Rusiya ilə əlaqələrini kəsmək və onu Cənubi Qafqazda hərbi forpostuna çevirmək istəyir.

Qərb Ermənistanı aktiv şəkildə silahlandırır, lakin bundan heç bir iqtisadi fayda əldə etmir. Əvəzində bu ölkə qonşuları - Azərbaycan, Türkiyə və Rusiya ilə münasibətləri daha da korlayır və təcrid olunmuş vəziyyətdə qalır.

Qərb regionda sülh və təhlükəsizliyə can atmır, vəziyyətə nəzarət etmək üçün idarə olunan xaos yaradır.

*- Ermənistan-Azərbaycan nizamlanması prosesinin xarici qüvvələr tərəfindən bloklanması ehtimalı nə dərəcədə realdır?*

- Təbii ki, sülh yolu ilə həll prosesi xarici qüvvələr tərəfindən əngəllənir. Qərb dövlətləri, xüsusilə erməni lobbisinin fəal olduğu Fransa region üçün real olmayan şərtlər irəli sürür.

Fransa İkinci Qarabağ müharibəsindəki məğlubiyyətin qisasını almaq arzusunda olan erməni lobbisinin maraqlarından çıxış edərək vəziyyətin sabitliyini pozmağa yönəlmiş destruktiv siyasət yürüdür. Onlar Qərbin Ermənistanı qoruyacağını güman edərək hərbi dəstəyə ümid bəsləyirlər. Lakin bu, qeyri-real ssenaridir.

Qərb Ermənistandan istifadə edir, onu vədlərlə aldadır və faydalı əməkdaşlıq illüziyası yaradır. Əslində, bu kurs dalana dirənib, çünki sülh yolu ilə həlli öz şəxsi maraqlarını güdən lobbiçilər deyil, region ölkələri həll edir.



*- Beynəlxalq münasibətlərdən söz düşmüşkən, bilmək istərdim ki, sizi politologiya sahəsinə gətirən nədir? Niyə bu sahəni seçdiniz?*

- Lomonosov adına Moskva Dövlət Universitetinin Siyasi elmlər fakültəsini bitirmişəm və bu, mənim şüurlu seçimim olub. Uşaqlıqda nənəmlə xəbərlərə baxmağı, müzakirə etməyi, siyasi materialları oxumağı və namizədlərin platformalarını təhlil etməyi çox sevirdim. Sonra o, bu barədə siyasətlə çox da maraqlanmayan valideynlərimə danışdı. Məhz bu söhbətlərdən mənim siyasətə sevgim yarandı. Universitet seçmək vaxtı gələndə Rusiyanın ən güclü ali təhsil müəssisəsi olan Moskva Dövlət Universitetinə daxil olmaq qərarına gəldim. Amma ilk dəfə keçid balı toplaya bilmədim. Sonra təslim olmamaq qərarına gəldim, daha yaxşı hazırlaşdım və bir il sonra universitetə daxil oldum.

Araşdırmalar inanılmaz dərəcədə maraqlı oldu. Müəllimlərimiz həm dövlət orqanlarında, həm də beynəlxalq münasibətlər sahəsində çalışan praktiklər idilər. Biz onların təcrübəsindən öyrənə bilərdik.

Bundan əlavə, tələbə həyatı forumlarda, konfranslarda, beynəlxalq təşkilatların nümayəndələri ilə görüşlərdə iştirak etmək imkanı verirdi. Təhsil prosesi kim olmaq istədiyimi daha yaxşı anlamağa kömək etdi.

Müasir dünya çox sürətlə dəyişir və beynəlxalq münasibətlər mənim üçün bir çağırışa və təhsil almaq stimuluna çevrilib. Müxtəlif ölkələrin nümayəndələri, fərqli mədəniyyətləri təmsil edən siyasətçilər ilə qarşılıqlı əlaqə həmişə maraqlıdır. Bu, mənə müəyyən bir xalqın və ya siyasətçinin həyat tərzini daha dərindən başa düşməyə imkan verir, həm də özümü daha yaxşı anlamağa və bu dünyanın nə qədər müxtəlif olduğunu dərk etməyə kömək edir.

*- Karyeranızda öz nöqteyi-nəzərinizi müdafiə etməli olduğunuz çətin məqamlar olubmu?*

- Politologiya sahəsində çox vaxt öz nöqteyi-nəzərini müdafiə etməli olursan. Krakovda keçirilən Avropa forumunda Rusiyanın mövqeyinin düşmənçiliklə qarşılandığı müzakirələr xüsusilə yaddaqalan oldu. Min nəfərlik auditoriya qarşısında güclü rəqiblərlə mübahisə etmək asan deyildi, lakin peşəkar inkişaf üçün dəyərli idi.

Mən də Soçidəki vəziyyətlə bağlı yazı dərc edəndən sonra sosial şəbəkələrdə sərt reaksiya ilə üzləşdim. Qeyd etdim ki, regionun iqtisadiyyatını inhisara almış Ermənistandan olan insanların hökmranlığı səbəbindən şəhər "Adler Ermənistan Respublikası"na çevrilir.

Geniş təbliğatdan sonra təhdidlər almağa başladım və səhifəni bağlamalı oldum.

Politologiya təkcə təhlil deyil, həm də başqalarının maraqları ilə toqquşmadır. Amma çətin anlar belə öyrənmək, biliklərini artırmaq və öz mövqeyini sübut etmək imkanı verir ki, həqiqət həmişə təbliğatdan daha vacibdir.

*- Darya Vasilyevna, siz Rusiya ilə Azərbaycan arasındakı münasibətləri bir neçə dəfə şərh etmisiniz. Azərbaycan haqqında şəxsi təəssüratınız necədir? Oraya səfər etmisiniz?*

- Mən Azərbaycana ilk dəfə tələbə olanda getmişəm. Dostlarımla Qazaxıstan, Azərbaycan və Gürcüstanı gəzdik, sonra Türkiyə vasitəsilə Soçiyə qayıtdıq.

Bakıya gəlib şəhərin mərkəzinə çatanda, mən paytaxtın memarlığına, ab-havasına, insanların qonaqpərvərliyinə heyran oldum. Küçələrdə gəzib Azərbaycan yeməklərini dadarkən bu şəhərin unikallığını dərhal hiss etdim.

Həmin günlərdə Azərbaycanda 28 May - Respublika Günü qeyd olunurdu. Bulvarla gəzirdik və mən odlu fəvvarələr gördüm ki, sudan alov dilləri çıxırdı. Bu o qədər qeyri-adi idi ki, hətta illər sonra başqa ölkələrə gedəndə də deyirəm: "Siz sadəcə Bakıda fəvvarələri görməmisiniz!"

Daha sonra işlə əlaqədar, o cümlədən parlament və prezident seçkilərində beynəlxalq müşahidəçi kimi Azərbaycana gəldim. Azərbaycanlı politoloqlar, ekspertlərlə birgə konfranslar təşkil etdik, Rusiya-Azərbaycan münasibətləri ətrafında fikir mübadiləsi apardıq.

Bakı durmadan inkişaf edir. Hər gəlişim yeni binaların, obyektlərin açılışı ilə müşayiət olunurdu. Bir çox deputat Azərbaycana ilk dəfə səfər edəndən sonra Azərbaycanla dostluq qruplarına yazılıb, çünki bu dövlətlə əməkdaşlığın nə qədər perspektivli olduğunu anlayırlar. Qonaqpərvərlik, mehribanlıq və gözəllik ecazkar ölkə - Azərbaycanla bağlıdır.

Azərbaycan öz maraqlarını müdafiə etməyi bacaran müstəqil dövlət kimi tanınır. O, onilliklər ərzində bütün gücünü Qarabağ həqiqətlərinin təbliğinə və beynəlxalq təşkilatların aciz olduğu yerdə ədalətin bərqərar olmasına sərf edib. Prezident İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın və bütün kollektivin apardığı siyasət hörmətə layiqdir. Azərbaycanda hər zaman kiminsə siyasi maraqları yox, insan, ölkə vətəndaşının mənafeyi birinci yerdədir. Bu, təqdirəlayiqdir.

Prezident seçkilərində olan fəallıq, seçki məntəqələrində yaranan növbələr məni xüsusilə heyran etdi. Hər yaşda olan insanlar ölkənin gələcəyinə sadiq olduğunu nümayiş etdirərək səsverməyə çıxdılar. Aydındır ki, insanlar özlərini siyasi subyekt kimi hiss edirlər. Avropada gənclər nadir hallarda səsverməyə gəlirlər, amma Azərbaycanda hamı fəal iştirak edir. Bu, vətəndaş şüurunun yüksək səviyyəsindən xəbər verir.

## Bakı və Tehran Xəzər regionunun nəqliyyat-iqtisadi inteqrasiyasında əsas yer tutur

İranlı politoloq, beynəlxalq münasibətlər üzrə ekspert Əmir Məhəmmədi Çahaki ilə AZƏRTAC-ın müsahibəsini təqdim edirik.

*- Cənab Çahaki, III Xəzər İqtisadi Forumu Xəzəryanı dövlətlər üçün nə dərəcədə əhəmiyyətlidir?*

- Fevralın 17-18-də Tehranda keçirilən III Xəzər İqtisadi Forumu İran, Rusiya, Azərbaycan, Qazaxıstan və Türkmənistan üçün mühüm hadisə oldu. Bu forum əvvəlki görüşlərin ənənəsini davam etdirdi: 12 avqust 2019-cu ildə Türkmənbaşıda baş tutan birinci forum iqtisadi-ticarət əməkdaşlığı və enerji məsələlərinə həsr olunmuşdu, 5 oktyabr 2022-ci ildə Moskvada keçirilən ikinci forum isə nəqliyyat dəhlizlərinin inkişafı, ekoloji problemlər və investisiya layihələri mövzusuna fokuslanmışdı. Tehranda keçirilən forum mövqelərin əlaqələndirilməsi, 2018-ci il Xəzər dənizinin hüquqi statusu Konvensiyası da daxil olmaqla, əvvəlki razılaşmaların icrasının müzakirəsi və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi kimi strateji təşəbbüslərin irəlilədilməsi üçün platforma rolunu oynadı.

*- Xəzəryanı ölkələrin liderlərinin görüşündə regional dialoqun gücləndirilməsi çərçivəsində hansı əsas məsələlər müzakirə olunub?*

- Görüşün ən mühüm mövzuları iqtisadi-ticarət əməkdaşlığının genişləndirilməsi və infrastruktur layihələrinin inkişafı olub. Məsələn, Azərbaycan 2024-cü ildə Xəzəryanı dövlətlərlə ticarət dövriyyəsinin 6 faiz artacağını bildirərək, gələcək iqtisadi artım üçün əhəmiyyətli potensialı vurğulayır. Nəqliyyat marşrutlarının inkişafına, xüsusilə Rusiya, İran və Hindistanı birləşdirən "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi layihəsinə xüsusi diqqət yetirilib. Türkmənistan Xəzər dənizinin şərq sahillərində regionun tranzit imkanlarını artıracaq logistika mərkəzlərinin yaradılmasını təklif edib. Digər mühüm mövzu isə Xəzər dənizində suyun səviyyəsinin aşağı düşməsi olub ki, bu da birgə elmi tədqiqatların aparılmasını və ekoloji fəlakətin qarşısının alınması üçün tədbirlərin işlənib hazırlanmasını tələb edir. Bununla bağlı 2025-ci ilin yayında Dağıstanda Xəzər Ekoloji Forumunun təşkili barədə qərar qəbul edilib. Azərbaycan və Qazaxıstan baş nazirləri, İranın birinci vitse-prezidentinin iştirakı ölkələrin regional dialoqu gücləndirmək və regionun davamlı inkişafı üçün həll yollarını birgə axtarmaq istəyini nümayiş etdirdi.

*- Yaxın illərdə Xəzər əməkdaşlığının perspektivlərini necə görürsünüz?*

- Tehranda keçirilən forum mürəkkəb beynəlxalq şəraitdə baş tutdu ki, bu da onu xüsusilə əhəmiyyətli bir hadisəyə çevirir. Beş əsas Xəzəryanı ölkənin iştirakı və onların iqtisadi, ekoloji və mədəni əməkdaşlığı tərəfdaşlıq ruhunda inkişaf etdirmək istəyi regionun xarici müdaxiləni istisna edərək müstəqil yol tutmaq niyyətini göstərir. Xəzər dənizi zəngin təbii ehtiyatlara və strateji cəhətdən vacib yerləşməyə malikdir. Forumun nəticələri göstərdi ki, region ölkələri onun gələcəyini müstəqil şəkildə müəyyənləşdirməyə və qarşılıqlı əməkdaşlığı gücləndirməyə hazırdırlar. Yaxın illərdə iqtisadi əlaqələrin dərinləşməsi, genişmiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsi və ekoloji problemlərin həlli Xəzər regionunu təkcə iqtisadi artım mərkəzinə çevirməyəcək, həm də Avrasiyada sabitliyin vacib amili edəcək.

*- İran Xəzər regionunda iqtisadi əməkdaşlığın inkişafında hansı rolu oynayır?*

- İran Xəzər regionunda iqtisadi əməkdaşlıqda mərkəzi yer tutur, çünki onun strateji mövqeyi Xəzər dənizini Körfəzi ilə birləşdirir. Bu, ölkəni regiondaxili və regiondan kənar iqtisadi-ticarət əlaqələrinin genişlənməsinə töhfə verən mühüm tranzit mərkəzinə çevirir. Tehran Xəzər hövzəsinin qlobal iqtisadiyyata inteqrasiyasını fəal şəkildə təşviq edir, nəqliyyat infrastrukturuna - dəmir yollarına, limanlara və logistika mərkəzlərinə investisiya yatırır. İranın strateji Bəndər-Abbas və Çabahar limanlarına nəzarəti Mərkəzi Asiya, Qafqaz və Cənubi Asiyanı birləşdirməyə imkan verir ki, bu da regional əməkdaşlığın möhkəmlənməsinə şərait yaradır. Bundan əlavə, İran enerji sektorunda da mühüm rol oynayır, neft və qazın nəqli üçün öz resurslarını və tranzit marşrutlarını təqdim edir. Qlobal dəyişikliklər fonunda onun regionda etibarlı tərəfdaş kimi əhəmiyyəti artır və bu da bütövlükdə Xəzər regionunun iqtisadi inkişafına və sabitliyinə töhfə verir.

*- Xəzər dənizi ilə Körfəz arasında nəqliyyat dəhlizinin həyata keçirilməsi nə yerdədir?*

- Xəzər dənizi ilə Körfəz arasında nəqliyyat dəhlizinin həyata keçirilməsi regionun əsas infrastruktur layihələrindən biridir. Bu marşrutun ideyası hələ sovet dövründən müzakirə olunsa da, son illərdə İran və Rusiyanın birgə səyləri sayəsində yeni təkan qazanıb. Layihə mərhələli şəkildə həyata keçirilir və əsas diqqət dəmiryol şəbəkəsinin inkişafına və liman infrastrukturunun modernləşdirilməsinə yönəldilib. Ən vacib mərhələlərdən biri Rəşt - Astara dəmiryol hissəsinin tikintisi olub ki, onun tamamlanması ilə bağlı razılaşma Rusiya və İran tərəfindən 2025-ci ilin fevralında imzalanıb. Bu magistral İranın Xəzər dənizindəki şimal limanlarını Körfəzdəki cənub limanları ilə birləşdirəcək və yüklərin daşınması üçün rahat marşrut təmin edəcək. Artıq Qəzvin-Rəşt dəmir yolu istismara verilib, eləcə də Rəşt - Xəzər arasındakı 37 kilometrlik hissə tamamlanıb ki, bu da regionun nəqliyyat sistemlərinin inteqrasiyası üçün mühüm addımdır. Gözlənilir ki, dəhlizin işə salınması Hindistandan Avropaya Rusiya vasitəsilə yük daşınma müddətini iki dəfə azaldacaq və bu da onu iqtisadi cəhətdən son dərəcə cəlbedici edəcək.

*- "Şimal-Cənub" və "Şərq-Qərb" beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı region iqtisadiyyatı üçün nə dərəcədə əhəmiyyətlidir?*



- "Şimal-Cənub" və "Şərq-Qərb" beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı Xəzər regionunun və ona bitişik ərazilərin iqtisadi artımında mühüm rol oynayır. Bu marşrutlar təkcə qitələrarası əlaqələri gücləndirmir, həm də ticarət dövriyyəsinin artmasına, investisiyaların cəlb olunmasına və sənaye əməkdaşlığının inkişafına kömək edir. 7200 km uzunluğa malik "Şimal-Cənub" dəhlizi Hind okeanı və Körfəzi Xəzər dənizi vasitəsilə Avropa ilə birləşdirir. Onun inkişafı İran, Rusiya və Azərbaycan kimi region ölkələrinə Hindistan və Cənubi Asiyadan Avropaya yüklərin daşınması üçün öz tranzit potensiallarından istifadə etməyə imkan verir. Bu marşrut yüklərlə dolu olan dəniz yollarını, məsələn, Süveyş kanalını keçmədən daha qısa və səmərəli bir alternativ təqdim edir. Mütəxəssislərin hesablamalarına görə, bu dəhlizin tam fəaliyyəti 2030-cu ilə qədər ticarət dövriyyəsini üçqat artıra bilər və region ölkələrinə tranzitdən milyardlarla dollar gəlir qazandırar.

"Şərq-Qərb" dəhlizi isə, o cümlədən Trans-Xəzər marşrutu Çini Mərkəzi Asiya və Qafqaz vasitəsilə Avropa ilə birləşdirir. O, "Şimal-Cənub" dəhlizini tamamlayaraq, regionun vahid nəqliyyat arteriyalar şəbəkəsinə çevrilməsinə şərait yaradır. Xəzəryanı dövlətlər üçün bu, xammal, kənd təsərrüfatı məhsulları və sənaye mallarının ixracı üçün yeni imkanlar, eləcə də qlobal bazarlara çıxışın genişlənməsi deməkdir. Nəqliyyat infrastrukturuna yatırılan investisiyalar regionun rəqabət qabiliyyətini artırmaqla yanaşı, onun beynəlxalq logistika mərkəzi kimi mövqeyini də gücləndirir.

*- İran və Azərbaycan Xəzər regionunun nəqliyyat və iqtisadi inteqrasiyasında hansı rolu oynayırlar?*

- Hər iki ölkə Xəzər regionunun nəqliyyat və iqtisadi inteqrasiyasında əsas mövqeyə malikdir, strateji ticarət əməkdaşlığı və tranzit logistika mərkəzləri kimi çıxış edirlər. İnfrastruktur layihələri, o cümlədən "Şimal-Cənub" və "Şərq-Qərb" kimi beynəlxalq marşrutlarda iştirak edən Tehran regional və qlobal iqtisadi əlaqələrin möhkəmlənməsinə sadiqliyini təsdiqləyir. Bu təşəbbüslərin inkişafı təkcə ticarət və investisiyalar üçün yeni imkanlar açmır, həm də Xəzər regionunu qlobal ticarətin mühüm halqasına çevirərək geosiyasi sabitliyə töhfə verir.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Rəsmi Parisin xarici siyasəti tam iflasa uğrayıb

### Fransanın ölkəmizə qarşı hibrid müharibəsinin heç bir nəticəsi olmayacaq



"İstər tarixi Zəfərimizlə başa çatan 44 günlük İkinci Qarabağ müharibəsi, istərsə postmüharibə dönəmində Fransanın anti-Azərbaycan mövqeyində dayanması artıq adi hala çevrilib. Fransa Ermənistanı açıq şəkildə dəstəkləməklə, bu ölkənin rəsmiləri bir-birinin ardınca məsuliyyətsiz bəyanatlar, sərsəm fikirlər səsləndirməklə, ən yumşaq halda desək, dünyada özünü nüfuzdan salmaqla məşğuldurlar".

Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Vüqar Rəhimzadə deyib. O bildirib ki, Makron hakimiyyətinin həyata keçirdiyi riyakar, yarıtmaz siyasət bu ölkənin beynəlxalq imicinə ciddi zərbə vurub və vurmaqda davam edir. Rəsmi Parisin həyata keçirdiyi xarici siyasət tam şəkildə iflasa uğrayıb. "Dünya siyasətində baş verən hadisələr də bunun təsdiqidir. Makronun həyata keçirdiyi uğursuz siyasət nəticəsində Fransaya bu gün heç bir beynəlxalq platformada hörmət edilmir, sözü eşidilmir. Fransa rəsmiləri bu uğursuzluqlardan nəticə çıxarmaq əvəzinə sərsəm bəyanatlarla ölkəmizə qarşı əsassız iddialar səsləndirirlər. Əli milyonlarla insanın qanına batmış, ayrı-ayrı xalqlara qarşı soyqırımı törətmiş Fransa keçmişindən utanmaq əvəzinə Cənubi Qafqazda sülh üçün yaranmış tarixi imkanı heçə endirməyə çalışır", - deyə siyasətçi əlavə edib.

Deputat qeyd edib ki, Ermənistanı silahlandırmaqla bölgədə yeni eskalasiya törətməyə, yaranmış reallığı dəyişməyə çalışan uğursuz Makron hakimiyyəti bu arzusuna çatmayacaq: "Fransadan fərqli olaraq, öz xarici siyasətində və bütün addımlarında beynəlxalq hüququn əsas norma və prinsiplərini rəhbər tutan Azərbaycanı əsassız yerə günahlandıran Paris müstəmləkəçilik keçmişini davam etdirmək naminə müxtəlif ölkə və xalqlara qarşı atdığı qeyri-demokratik addımlarla özünü rüsvay edir. Fransanın riyakar iddialar səsləndirməklə ölkəmizə qarşı apardığı hibrid müharibənin, əsassız qarayaxma kampaniyasının heç bir nəticəsi olmayacaq. Çünki Azərbaycana qarşı aparılan kampaniya, çirkin təbliğat iradəmizə təsir edə, ölkəmizi düz yolundan döndərə bilməz. Haqq-ədalət, beynəlxalq hüquq bizim tərəfimizdədir".

V.Rəhimzadə bildirib ki, dünyada böyük nüfuza, güclü iqtisadiyyata və orduya sahib olan dövlətimiz heç kimdən qorxmur və bunu həm döyüş meydanında, həm də siyasi müstəvidə sübut edib. Sərsəm açıqlamalar verən Fransa rəsmiləri bunu nə qədər tez anlasalar, onlar üçün o qədər yaxşı olar.

***Ə.QABİLQIZI,***
***"Azərbaycan"***

## Aİ separatizmi və terrorçuları açıq şəkildə dəstəkləyir

### Özü də bunu insan haqları adı altında edir

"Hindistana səfəri çərçivəsində Ermənistanın xarici işlər nazirinin Azərbaycanın ünvanına ittihamlar səsləndirməsi, Bakını regionda sülh və sabitlik qarşısında əsas əngəl kimi təqdim etməyə çalışması qəbuledilməzdir və birmənalı şəkildə İrəvanın regionda dayanıqlı sülhün formalaşmasında maraqlı olmadığını göstərir. Xüsusən antiterror tədbirlərindən sonra yaxalanaraq Azərbaycanın ədalət mühakiməsinə təhvil verilən, əməlləri öz etirafları və digər təkzibedilməz çoxsaylı sübutlarla təsdiq edilən separatçıların "liderləri"ni qanunsuz həbsdə saxlanılan etnik ermənilər qismində təqdim etməyə çalışması təsdiqləyir ki, Paşinyan iqtidarı, əslində, mahiyyətcə Serj Sarkisyan və Robert Koçaryan hakimiyyətindən heç nə ilə fərqlənmir və Ermənistanda hakimiyyətin rusiyayönümlü klandan Soros marionetlərinə ötürülməsi bu ölkənin təcavüzkar niyyətdə ehtiva olunan dövlət siyasətində hər hansı köklü dəyişikliyə səbəb olmayıb".



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib. Deputat bildirib ki, Paşinyanın, Mirzoyanın və parlament sədrinin zaman-zaman verdiyi bəyanatlar göstərir ki, hərbi və siyasi müstəvidə aşkar və ağır məğlubiyyətə uğrayan Ermənistan Azərbaycanla düşməncəsinə mübarizəsini tamamilə başqa müstəviyə daşımaq fikrindədir. Sirr deyil ki, Azərbaycanın Vətən müharibəsində böyük Zəfərinin ardınca cənab İlham Əliyevin təşəbbüsü ilə Bakı və İrəvan arasında sülh prosesinə start verilib, Brüssel, Moskva və Vaşinqton platformaları çərçivəsində Azərbaycan mümkün qədər tez sülhə və dayanıqlı sabitliyə nail olmaq üçün çoxsaylı cəhdlər göstərib. "Lakin bütün platformalar üzrə danışıqlarda Ermənistanın qeyri-praqmatik mövqe nümayiş etdirməsi, ənənəvi "böyük Ermənistan" mifindən əl çəkmək istəməməsi, habelə erməni cəmiyyətində revanşizm niyyətlərinin daha da dərinləşməsi fonunda münasibətlərin normallaşması istiqamətində göstərilən səylər bir qayda olaraq daşa dirənib. Habelə Makron diktaturasının timsalında Fransanın, o cümlədən korrupsiya yuvasına çevrilmiş avrostrukturların aşkar təşviqi Ermənistanı pozuculuq fəaliyyətində daha da ümidləndirib, İrəvan işğal dövrünün statuskvosunu təkrar bərqərar edə biləcəyinə inanmağa başlayıb. Eyni zamanda antiterror tədbirlərinə qədərki dövrdə Qarabağda Ermənistan orudusunun hissələrinin, həmçinin separatçıların qeyri-qanuni birləşmələrinin mövcudluğu, ayrı-ayrı dövlətlərin separatizmə açıq formada dəstəyini göstərməsi Ermənistan üçün əlavə effektiv rıçaq kimi görünürdü və Paşinyan hökuməti əlavə vaxt qazanmaqla həm ölkəsinin güclənməsinə, həm də separatizmin beynəlxalq səviyyədə leqallaşdırılmasına ümid edirdi. Cənab İlham Əliyevin qətiyyətli mövqeyi və müzəffər sərkərdəlik məharəti ilə antiterror tədbirlərində separatizmə son qoyulması Ermənistanı bu rıçaqdan məhrum etməklə bərabər, İrəvanın bölgədə Bakı tərəfindən yaradılmış geosiyasi konfiqurasiya ilə barışması zərurətini bir daha aşkar formada üzə çıxardı. Ermənistan 2023-cü ilin sentyabr ayından sonra fərqinə varmağa başladı ki, Cənubi Qafqazda söz sahibi Azərbaycandır və cənab İlham Əliyevin dediyi kimi, "bu regionun siyasi gündəmini məhz Azərbaycan müəyyən edir". Nəticə etibarilə cənab İlham Əliyevin bu ilin yanvarında yerli televiziya kanallarına müsahibəsində də ifadə etdiyi kimi, Azərbaycanın diktəsi, yəni monoloq yolu ilə Ermənistan bəzi iddialarından əl çəkərək sərhədlərin delimitasiya və demarkasiyası, o cümlədən sülh prosesi istiqamətində metodologiyanın ümumilikdə müəyyənləşməsi istiqamətində müəyyən qədər irticaçı mövqeyindən geri çəkilməli oldu", - deyə o əlavə edib.

Deputat xatırladıb ki, ötən ilin birinci rübündə Azərbaycan və Ermənistan arasında dayanıqlı sülhün imzalanması üçün tarixin heç bir dövründə olmadığı qədər real situasiya formalaşıb. Lakin proseslər bir daha təsdiq etdi ki, Qərb, xüsusən Fransa, Avropa İttifaqının aidiyyəti strukturları, o cümlədən Avropa Parlamenti, Soros imperiyası Cənubi Qafqaz regionunda dünyanın digər coğrafiyalarında olduğu kimi, sülh və sabitliyə öz maraqlarına təhdid kimi baxır. Beləliklə, Qərbin davamlı təşviqi ilə Ermənistan yenidən sülh prosesindən kənarlaşmalara start verdi. Vətən müharibəsindən antiterror tədbirlərinə qədərki dövrdə Qarabağın erməni əhalisinin "hüquq"larını daha çox qabardan Qərb təbliğat maşını bu dəfə Azərbaycanın antiterror tədbirlərində ələ keçirdiyi terrorçuların azadlığını qlobal medianın trendinə çevirməyə çalışdı və bu prosesdə Ermənistan, xüsusən bu ölkənin diplomatik xidməti fəallıq göstərməyə və Azərbaycan əleyhinə iki ölkə arasında sülh və mümkün əməkdaşlıq mühitinə əhəmiyyətli zərər vuran fəaliyyətə ortaqlıq etməyə başladı. Özünü beynəlxalq ictimaiyyət adlandıran adıçəkilən dairələr isə bu prosesdə yenidən ənənəvi üsullara - demokratiya və insan haqları amillərinə söykənmək adı ilə 30 ildən artıq bir müddətə əli azərbaycanlıların qanına batmış çoxsaylı cinayətlər, sülh və insanlıq əleyhinə müharibə cinayətləri törətmiş separatçı "lider"ləri qəhrəmana çevirərək Azərbaycan əleyhinə guya onların azadlığı naminə növbəti xaç yürüşünü təşkil etməyə cəhd göstərməkdədirlər.

B.Məhərrəmov vurğulayıb ki, baş verənlər istər beynəlxalq münasibətlər, istərsə də beynəlxalq hüququn ümumtanınmış normalarında öz əksini tapan prinsiplər, o cümlədən insan haqlarının müdafiəsində ehtiva olunan ümumbəşəri dəyərlər adına utancverici mənzərə ortaya çıxarır: "Beləliklə, bir daha şahidlik etməkdəyik ki, insan haqlarının beynəlxalq müdafiəsi mexanizmləri faktiki olaraq ikili standartlar üzərində qurulub. Bir daha şahidlik etməkdəyik ki, hamının qanun və məhkəmə qarşısında bərabərliyindən dəm vuranlar konkret əməlinə görə barəsində cinayət təqibi başlanmış ayrı-ayrı şəxslərin ətrafında istintaqı şouya çevirmək cəhdlərindən əl çəkmirlər. Yaxud heç bir dəlil, sübut olmadan terrorçu elan etdiyi şəxsləri və toplumları sərhədlərindən min kilometrlərlə kənarda yerlə yeksan edənlər Azərbaycandan terrorçuların azadlığını tələb edirlər. Xocalı soyqırımına, məruz qaldığımız etnik təmizləməyə, 1 milyondan artıq insanın məhrumiyyətlərinə, təməl haqlardan məhrum olduğu situasiyaya göz yuman BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı əməlləri təkzibedilməz sübutlarla təsdiq olunmuş terrorçuların, separatçıların adını qlobal mediaya "qanunsuz saxlanılmış etnik ermənilər" şəklində təqdim edərək cinayətlərə ortaq olur. Azərbaycanda insanların hüquqları barədə "narahatlıq" yaşayan ölkələr yaxşı olar ki, öz gözlərində tiri görsünlər. İnsanların yaşadığı bölgələrdə nüvə sınağı keçirən, dənizaşırı ərazilərdə xalqlara minimum haqlar tanımayan Fransa kimi subyektlər, Avropa İttifaqının korrupsiya yuvası olan təsisatları bizə insan adına, bəşəri dəyər adına nəyisə öyrədə, diktə edə bilməz".

Siyasətçi bildirib ki, insan hüquqlarının təməl prinsiplərindən biri, Konstitusiyada da əksini tapdığı kimi, hüquqlar və azadlıqlar hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini də əhatə edir. Hüquqlardan sui-istifadəyə yol verilmir, amma bu gün ölkə daxilində haqdan, hüquqdan danışıb imperializmə kuklalıq edənlər birmənalı şəkildə bu prinsipi inkar edən davranış xətti tutublar. Bu çərçivədə Azərbaycan məhkəmə hakimiyyəti üzərində köklü basqı formalaşdırmaq cəhdləri səngimir, polisdən düşmən obrazı formalaşdırmaq üçün planlı təbliğat qurulur. Təbii ki, Azərbaycan xalqı müdrikdir və bu kimi təxribatçı cəhdləri rədd edir. O cümlədən Azərbaycan dövləti daxili stabilliyi, hüquq məkanını sarsıtmağa, 1990-cı illərin hüquqsuzluq dövrünün bərpa olunmasına imkan verməyəcək qədər qüdrətlidirlər. Görünən odur ki, Qərb imperialist dairələri də bu reallığın fərqindədirlər və insan haqları və demokratiya pərdəsi altında bölgəyə hər hansı müdaxilənin mümkün ola bilməyəcəyini anlayaraq yenidən əsas gücü Ermənistanın revanşist dairələrin təşviqinə yönəldiblər. Ermənistanın silahlandırılması, bu və ya digər formada hərbi-siyasi dəstək verilməsi ilə Ermənistan hakimiyyətinin Azərbaycan əleyhinə bəyanatlarını son vaxtlar intensivləşdirməsi də yalnız bu istiqamətdə şərh oluna bilər. Ermənistan tərəfi də yaxşı anlayır ki, istər Hindistan, istər Fransa, istərsə də əhatə dairəsi daralmaqda olan digər havadarlarının cəhdləri Cənubi Qafqaz coğrafiyasında Azərbaycanın iradəsi qarşısında heç bir təsir gücünə malik deyil və bu mənada təxribatçı nazirin Azərbaycanı ittiham etməsi, o cümlədən Qərb dairələri tərəfindən separatçıların müdafiəsinə hesablanmış tezisləri dilə gətirməkdən başqa çarəsi qalmır. "Təbii ki, bu prosesdə Ermənistanın alət kimi istifadə olunması açıq şəkildə görünməkdədir, lakin hazırkı situasiyada ən çox ifşa olunan və ikili standartları ilə siyasi rüsvayçılığa məruz qalan ayrı-ayrı Qərb ölkələri oldu. Görünən odur ki, Fransa hakimiyyəti, o cümlədən Avropa İttifaqının ayrı-ayrı strukturları açıq şəkildə separatizmi, terroru insan haqları adı altında müdafiə etməkdən çəkinmir və terrorçuların azadlığa çıxmasını "tələb" etməklə öz siyasətlərinin mahiyyətinin terrordan ibarət olduğunu göstərmiş olurlar", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, Ermənistan daxilində müşahidə olunan siyasi proseslər birmənalı şəkildə bu ölkənin yeni müharibəyə hazırlaşması barədə ehtimallar irəli sürmək üçün əsas verir. Xüsusən separatçıların məhkəməsi fonunda Qərb imperializminin Azərbaycan əleyhinə yeni kampaniyaya start verməsi, Ermənistanın aidiyyəti strukturlarının, ələlxüsus xarici işlər nazirinin qeyri-adekvat bəyanatları göstərir ki, proses Qərbdən idarə olunan vahid konsepsiya əsasında aparılır. Eyni zamanda Avropa İttifaqının "müşahidə missiyası"nın öz "monitorinq"lərini intensivləşdirməsi, bir neçə gün əvvəl şərti sərhədlərdə yenidən atəş səsi eşidilməsi, o cümlədən Ermənistan tərəfinin təmas boyu istehkamlar formalaşdırması İrəvanın işğal və təcavüzdə ehtiva olunan Vətən müharibəsinə qədərki status-kvonu bərpa etmək arzusunda olduğunu, Qərbin isə bu prosesdə İrəvanı təşviq etdiyini demək üçün əsaslar verir. Təbii ki, bölgədə müharibə başa çatıb, Azərbaycan yeni münaqişənin alovlanmasını arzulamır, Vətən müharibəsindən və antiterror tədbirlərindən qalib tərəf kimi ayrılmasına baxmayaraq, sülh təşəbbüslərini birmənalı şəkildə dəstəkləyir və regionda dayanıqlı sabit əməkdaşlıq mühitinin formalaşmasını istəyir. Lakin dövlət başçısının da ifadə etdiyi kimi, "əgər ölkəmizə münasibətdə hər hansı formada təhdid yaranarsa, bu təhdidin harda yerləşməsindən asılı olmayaraq, Azərbaycan istənilən yolla öz təhlükəsizliyini təmin edəcək və bu təhdidləri aradan qaldıracaq". Ermənistan isə anlamalıdır ki, Azərbaycan əleyhinə istənilən hərbi gediş bu ölkənin dövlətçiliyinin sonu ola bilər.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Minalanma Vardanyanın Xankəndiyə gəlişindən sonra geniş vüsət alıb

Planları üzrə, mərhələli şəkildə zəbt etdikləri ərazilərimizdə özlərinə dövlət qurmuş erməni qəsbkarları bununla da qane olmayıblar. "Böyük Ermənistan" uydurmalarını fürsət düşdükcə yalandan həqiqətə çevirməyə cəhd göstəriblər. Tarixin ayrı-ayrı illərində ermənilərin azərbaycanlılara qarşı törətdikləri kütləvi qırğınların, soyqırımların əsl səbəbi də bu olub.

"Yersiz gəldi, yerli qaç" prinsipi ilə hərəkət edən erməniləri arxayınlaşdıran, növbəti vəhşiliklərini həyata keçirməyə həvəsləndirən isə cəzasız qalmaları olub. Hər dəfə ara sakitləşəndə azərbaycanlılar ermənilərin dağıtdıqları ev-eşiklərini yenidən tikərək, viran qoyduqları yurdlarını abadlaşdıraraq, şikəst etdikləri doğmalarının, qohum-qonşularının yaralarını bağlayaraq, şəhidlərinə ağlayaraq həyatlarına davam etməyə çalışıblar. Bədxah ermənilər isə dərhal simalarını dəyişib, qınlarına çəkilib yenidən mehribanlıq göstəriblər.

Məkrli ermənilər XX əsrin sonlarında da ərazilərimizin işğalına hər dəfə olduğu kimi, gizli şəkildə və ciddi hazırlıqlar görmüşdülər. Odur ki, dövrün müasir silahları ilə silahlandırılan, bir çoxu xüsusi hərbi təlim görmüş erməni quldurlarının dinc azərbaycanlılara qarşı hücumları 1980-ci illərin axırları, 1990-cı illərin əvvəllərində də pərakəndə, kortəbii deyil, hərzamankı kimi plana uyğun, mütəşəkkil oldu.

O vaxtdan illər keçib. Ermənistan tərəfindən işğal olunmuş Qarabağ və Şərqi Zəngəzur əraziləri otuz il sonra azad edilib. Birinci və İkinci Qarabağ müharibələrinin təşkilatçıları və icraçıları olan, azərbaycanlılara qarşı ən dəhşətli cinayətlər törətmiş, soydaşlarımıza vəhşicəsinə işgəncələr verərək onları şəhid və ya şikəst etmiş cinayətkar ermənilərin adları məlumdur. Və onların bir hissəsi həbs olunaraq ölkəmizin paytaxtına gətirilib. Artıq qanun qarşısında əməllərinə görə cavab verirlər.

Onlardan birinin - Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesinin baxış iclası martın 11-də davam etdirildi.

Məhkəmədə iş üzrə dindirilən şahidlər onun qanuna və insanlığa zidd əməllərini bir-bir söylədilər. Şahid qismində ifadə verən Qarabağda yaşayan erməniəsilli şəxs Hayrapetyan Kamo Eduardoviç 44 günlük müharibədən bir müddət sonra Ruben Vardanyanın Xankəndiyə gəldiyini dedi. Onun sponsorluq edərək Azərbaycana qarşı vuruşmaq üçün yaşı 45-50-dək insanlardan ibarət dəstələr yaratdığını, onları maliyyələşdirdiyini bildirdi: "Çox sayda cavan insan gedib o qruplaşmalara yazılmışdı. Mənim üçün maraqlı o idi ki, dünyada tanınmış biznesmen, oliqarx Ruben Vardanyan, - mən demirəm ki, o, mənim düşmənimdir, yox, - nəyə görə öz biznesini qoyub Qarabağa gəlmişdi?"

Ruben Vardanyan Xankəndiyə gəldikdən sonra 44 günlük müharibədə Azərbaycanın qaytardığı ərazilərin sərhədlərində onun maliyyəsi ilə minalanma işləri aparıldığını deyən şahid həmin minaların Laçın yolu ilə Ermənistandan Qarabağa çatdırıldığını açıqladı: "Xankəndidə yaşayan ermənilər də Qarabağ ərazisində minalanma işlərinin Ruben Vardanyan gələndən sonra geniş vüsət aldığını biliblər. Məktəblərdə, binaların ətrafında, meşələrdə və boş ərazilərin yaxınlığında həmin minalarla bağlı məlumat xarakterli plakatlar yerləşdirilib. Halbuki 44 günlük müharibəyə qədər minalarla bağlı heç bir plakat olmayıb".



Şahid ifadəsində Ruben Vardanyanın maliyyələşdirməsi nəticəsində Xankəndi ətrafında 2, Əsgəranda isə 1 ədəd olmaqla, ümumilikdə 3 hərbi anbar yaradıldığını bildirdi. Yerləşdiyi yerə gedən yol silahlı şəxslər tərəfindən mühafizə edilən anbarlarda Ermənistan ordusu, Qarabağdan seçilmiş hərbçilər fəaliyyət göstəriblər. Ruben Vardanyan tərəfindən həmin anbarlara Qarabağa gətirilmiş xeyli sayda silah və döyüş sursatı, eləcə də pilotsuz kvadrakopterlər və digər pilotsuz uçuş aparatları yığılıb. Xankəndidə çoxunun bu barədə məlumatı olub. Ruben Vardanyan bütün erməni sakinlərinin silahlanaraq azərbaycanlılara qarşı vuruşmasını təbliğ edib. Bu silahlı dəstələri yaratmaqda onun məqsədi Azərbaycana qarşı mübarizə aparmaq olub.

Şahid Ruben Vardanyan Qarabağa gələnədək erməni sakinlər arasında Azərbaycana inteqrasiya məsələsinin ciddi formada yayıldığını deyib. Onlar Azərbaycanla əlaqələr qurmağa çalışıblar. Bir çoxu Azərbaycanın tərkibində yaşamaq və vətəndaşlıq almaq barədə ciddi fikirləşiblər.

Ruben Vardanyan 2022-2023-cü illərdə Xankəndi şəhərinə gəlib və Azərbaycana qarşı təbliğata başlayıb. Şahidin sözlərinə görə, bundan sonra erməni sakinlərdə Azərbaycana qarşı düşmənçilik meyilləri güclənib: "Ruben Vardanyan erməni sakinlərin azərbaycanlılara nifrət etməsinə çalışırdı".

Məhkəmədə ifadə verən digər erməniəsilli şahid - Qriqoryan Muşeq Qurgenoviç Ruben Vardanyan Qarabağda qondarma rejimdə vəzifəyə təyin olunduqdan sonra muzdlu döyüşçülərdən ibarət dəstələr toplamağa başladığını diqqətə çatdırıb. Həmin şəxslərə Xocalıda yerləşən düşərgədə hərbi təlimlər keçilib: "Əsgərlikdən yeni gəlmiş şəxslərin hərbi xidmətdə olan ixtisaslarını öyrənib və onlardan istifadəyə yararlı olan şəxsləri dəstələrə cəlb edib. Əsasən radiotexniki sahədə hərbi təcrübəsi olan əsgərlərin öz könüllü muzdlu dəstələrinə qoşulmasını həyata keçirib. O, bu məqsədlə Xocalı rayonunun Badara kəndi yaxınlığında dağlıq və meşəlik ərazidə çay kənarında əvvəllər "İdman Turizmi Federasiyası"nın nəzdində olmuş düşərgədə hərbi təlim məntəqəsi yaradaraq əsasən əsgərlikdən yeni gəlmiş gənclər, tələbələr və yuxarı sinif şagirdlərinə hərbi təlimlər keçilməsini təşkil edib. Mən Vardanyanı başa düşmürəm, əgər xalq üçün yaxşılıq edirsənsə, niyə silah alırsan, mina basdırırsan, adamlara pul verirsən, düşərgə açırsan? Əgər silah yaxşı şeydirsə, al apar evinə, övladların döyüşsün. Vardanyan elə bilirdi ki, Qarabağdakılara yaxşılıq edib, amma onların evini yıxıb".

Məhkəmədə ifadə verən zərərçəkmişlərdən biri - Səyyad Ələkbərli açıqlayıb ki, Ruben Vardanyanı media vasitəsilə tanıyıb. O, özünün Ermənistandan gətirilərək Azərbaycanın suveren ərazilərində basdırılmış minaya düşərək xəsarətlər aldığını deyib. Bildirib ki, hadisə 2023-cü ilin avqustunda Xocalıda kənd təsərrüfatı işləri görərkən baş verib. Zərərçəkmişlər - Cəlal Quliyev, Rəvan Ağazadə, Nəriman Abışlı, Elbrus Əzimli, Elməddin Ağayev, Faiq Əzizov, Səxavət İsmayıl, İsmayıl Hüseynov və İbrahim Həmidli Kəlbəcərdə hərbi xidmət zamanı yaralandıqlarını söyləyiblər. Zərərçəkmişlər məhkəmədən təqsirləndirilən şəxs Ruben Vardanyana ən ağır cəzanın verilməsini xahiş ediblər.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Qondarma rejimdə yüksək rütbələri Ermənistanın hərbi-siyasi rəhbərliyi verirmiş

Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, Davit Babayan, Lyova Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə məhkəmə prosesinin baxış iclası martın 13-də davam etdirilib.



AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, habelə müdafiələri üçün vəkillərlə təmin olunub.

Məhkəmənin baxış iclasında təqsirləndirilən şəxslər və onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, habelə dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Məhkəmə prosesi təqsirləndirilən şəxs Davit Babayanın suallara cavab verməsi ilə davam etdirilib.

O, təqsirləndirilən şəxslərin müdafiəçilərinin və zərərçəkmiş şəxslərin nümayəndələrinin suallarını cavablandırarkən digər təqsirləndirilən şəxs Bako Sahakyanı tanıdığını, onunla birgə işlədiyini bildirib.

Ermənistan Respublikasında anadan olmuş və orada qeydiyyatda olan, həmin ölkənin vətəndaşı, Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçusu, general-mayor ali hərbi rütbəsində xidmət etmiş təqsirləndirilən şəxs David Manukyan dövlət ittihamını müdafiə edən Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandırarkən "Miatsum" haqqında məlumatının olmadığını deyib. O, Qarabağda Azərbaycan dövlətinə qarşı vuruşmuş "Şuşi" xüsusi hərbi batalyonunun komandirinin Jirayr Səfilyan olduğunu etiraf edib.

Bundan sonra dövlət ittihamını müdafiə edən prokurorlar, təqsirləndirilən şəxslərin müdafiəçiləri və zərərçəkmiş şəxslərin nümayəndələri David Manukyan, Lyova Mnaksakanyan, Melikset Paşayan və Madat Babayana Ermənistan SSR-in ərazisində və Azərbaycan SSR-in tərkib hissəsi Qarabağda Ermənistan tərəfindən yaradılan, onun dəstəyi və rəhbərliyi altında fəaliyyət göstərən, cinayətkar birliyin özəyini təşkil edən qanunsuz silahlı birləşmələrin rəhbərləri və iştirakçıları, Ermənistanla, onun rəhbərliyi və yüksəkvəzifəli şəxsləri ilə əlaqələri, fəaliyyəti, onların bu birləşmələrin fəaliyyətində iştirakı, habelə "böyük Ermənistan" cinayətkar ideologiyası, "Miatsum" və "Qarabağ" hərəkatlarının məqsədi, hərəkatlara rəhbərlik edən şəxslər və təqsirləndirilən şəxslərlə onların əlaqələri, Qarabağda keçirilən qanunsuz mitinqlərdə təqsirləndirilən şəxslərin iştirak edib-etməmələri, həmin qanunsuz mitinqlərdə çıxış edənlər, insanların qanunsuz mitinqlərə kim tərəfindən və hansı formada cəlb edilmələrinə, yaxud dəvət olunmalarına dair suallar veriblər.

D.Manukyan suallara cavabında J.Səfilyanın Livanın paytaxtı Beyrut şəhərində doğulduğu barədə məlumatsız olduğunu bildirərək deyib: "O, "Qərbi Ermənistan"dan gəlmişdi, amma Ermənistan vətəndaşı idi".

Təqsirləndirilən şəxs Qarabağda Azərbaycana qarşı vuruşmuş "Daşnak" adlandırılan taborun müxtəlif dəstələrdən ibarət olduğunu bildirib.

"Dəstələrdə Qarabağdan olanlar və Ermənistan vətəndaşları var idi", - deyə o əlavə edib.

D.Manukyan 1992-ci ildə Qarabağda hərbi dəstələrin fəaliyyətinin normativ aktlarla fəaliyyət göstərmədiyini də etiraf edərək diqqətə çatdırıb: "1992-ci ildə dəstələrin fəaliyyəti "insani qanunlarla" tənzimlənirdi".

O, daha sonra müdafiə tərəfinin və zərərçəkənlərin suallarını cavablandırıb.

Təqsirləndirilən şəxs Levon Mnatsakanyan suallara cavab verərkən 1988-ci ildə qanunsuz mitinqlər keçirilən zaman İrəvanda tələbə olduğu üçün həmin aksiyalarda iştirak etmədiyini bildirib.

Təqsirləndirilən şəxs Melikset Paşayan dövlət ittihamçısı Təranə Məmmədovanın suallarına cavabında Qarabağda keçirilən qanunsuz mitinqlərdə iştirak etdiyini deyib.

O, 1989-1990-cı illərdə sovet ordusunda hərbi xidmət keçdiyini, 1993-cü ildə isə Qarabağda yaradılmış "Əsgəran alayı"na qoşulduğunu qeyd edib.

Bundan sonra təqsirləndirilən şəxs Madat Babayan suallara cavabında Ağdərədə silahlı dəstənin tərkibində olduğunu, onlara verilən silahların dəstə rəhbəri tərəfindən Xankəndidən və Ermənistandan gətirildiyini bildirərək vurğulayıb ki, silahlı birləşmənin rəhbəri Vanik Petrosyan idi.

Daha sonra təqsirləndirilən şəxslərə cinayətkar birliyin tərkibində funksiya və vəzifələr, habelə vaxtilə Ermənistan tərəfindən işğal edilmiş Qarabağda hakimiyyətin zorla ələ keçirilməsi, o cümlədən Ermənistanın rəhbərliyi və nəzarəti altında fəaliyyət göstərmiş qondarma rejimdə inzibati ərazi bölgüsü, müxtəlif vəzifələrə təyinatların aparılması və vəzifədən çıxarma, dövriyyədə olan pul vahidi, xarici və daxili bank əməliyyatlarının aparılması, müxtəlif malların idxal və ixracı, qondarma rejimin qanunsuz iqtisadi fəaliyyəti nəticəsində istehsal olunan məhsulların üzərində istehsal yeri kimi hansı ölkənin adının qeyd edilməsi, gömrük məsələləri, qondarma rejimin fəaliyyət göstərdiyi ərazilərə səfərə gedən şəxslərə icazə və ya vizaların verilməsi, erməni sakinlərin hansı ölkənin vətəndaşları olmaları, onlara şəxsiyyəti təsdiqləyən sənədin hansı qurum tərəfindən verilməsi, büdcəyə vəsaitlərin toplanma qaydası, qeyd olunan proseslərdə Ermənistan dövlətinin, onun dövlət qurumlarının, silahlı qüvvələrinin, yüksəkvəzifəli şəxslərinin rolu və iştirakına dair suallar ünvanlanıb.

A.Qukasyan qeyd edib ki, onun hakimiyyəti dövründə Laçında və Kəlbəcərdə qanunsuz məskunlaşdırma aparılıb.

O, dövlət ittihamını müdafiə edən prokurorlar Vüsal Əliyev, Tuqay Rəhimli və Nəsir Bayramov tərəfindən verilən suallara cavabında qondarma rejimin "büdcə"sinin Ermənistan tərəfindən formalaşdırıldığını etiraf edib. O, qondarma rejimin "büdcə"sinə Ermənistan tərəfindən ayrılan vəsaitin "kredit" adlandırıldığını, lakin həmin "kredit"in faizsiz və müddətsiz olduğunu bildirib.

"O zaman "faizsiz kreditlər" adlandırılırdı. Yəni yaxın müddətdə kreditlərin geri qaytarılması məsələsi yox idi. Bundan əlavə, Qarabağdan "ixrac olunan" və "idxal edilən" məhsulların gömrük məsələləri Ermənistanda həyata keçirilirdi. Qarabağdakı "idxal" və "ixrac"la bağlı Ermənistan Respublikasının Dövlət Gömrük Xidmətində toplanan vəsaitlər də "faizsiz kreditlər"ə daxil idi", - deyə o əlavə edib.

Təqsirləndirilən şəxs deyib ki, "Qarabağın məhsulları"nın Ermənistan vasitəsilə xaricdə satışından əldə olunan gəlir Ermənistanın "kredit" adı ilə qondarma rejimin "büdcə"sinə ayırdığı vəsaitdən az idi.

O, Ermənistan gömrüyü vasitəsilə xarici ölkəyə "ixrac edilən" "Qarabağ məhsulları"nın üzərində onların hansı ölkəyə aid olması barədə yazılanlarla bağlı isə məlumatsız olduğunu bildirib.

Bundan başqa, A.Qukasyan qondarma rejimin ərazisində Ermənistan dramının dövriyyədə olduğunu da etiraf edib və deyib: "Buna görə də biz çalışırdıq ki, vahid bir iqtisadi məkan olsun. Həmçinin əməkhaqları da Ermənistan dramı ilə ödənilirdi".

O, qondarma rejimin "müdafiə naziri" və "ordunun baş komandanı" "vəzifə"lərinə təyinatın Ermənistanın hərbi-siyasi rəhbərliyi ilə razılşadırıldığını, general-mayor rütbəsindən yuxarı rütbələrin Ermənistanda verildiyini də etiraf edib və bildirib: "Bütün təhlükəsizlik məsələləri Ermənistan rəhbərliyi ilə birgə həll edilirdi. Mən 1997-ci ildən 2007-ci ilədək olan müddətdən danışıram, sonrakı vaxtı bilmirəm".

A.Qukasyan işğal dövründə təmas xəttində baş verən atışmalar, hadisələr ilə bağlı məlumatların ilk olaraq Ermənistan Müdafiə Nazirliyinə verildiyini bildirərək qeyd edib: "Sonra bizə də məlumat verilirdi ki, məlumatımız olsun".

O, qondarma rejimdə yaşayan erməni sakinlərə Ermənistan pasportu verildiyini söyləyib: "Dağlıq Qarabağ" heç bir ölkə tərəfindən tanınmadığına görə pasportlarımızda "Ermənistan Respublikası" yazılırdı. Lakin orada harada yaşadığı ünvan göstərilirdi: Xankəndidirsə Xankəndi, Ağdərədirsə Ağdərə. Bu pasportlar imkan verirdi ki, insanlar Rusiyaya, Avropaya və digər yerlərə gedə bilsinlər. Ona görə də belə bir qərar qəbul olunmuşdu ki, pasportlar Ermənistanda alınsın. Ermənistan vətəndaşları və Qarabağda yaşayan erməni sakinlərinin istifadə etdikləri pasportlar xarici görünüşünə görə eyni idi. Fərq yalnız seriya nömrələrində idi. Qarabağda yaşayan erməni sakinlər üçün Ermənistan tərəfindən ayrıca seriya nömrəsi verilmişdi.

Qarabağa səfər edən Ermənistan vətəndaşlarının qeydiyyatının aparılmadığını bildirən A.Qukasyan qeyd edib: "Ermənistan vətəndaşlarının Qarabağa gəldikdə və Qarabağda yaşayan erməni sakinlərinin Ermənistana getdikdə qeydiyyatı aparılmırdı. Ermənistandan Qarabağa xarici vətəndaşlar gələndə və qayıdanda onların qeydiyyatı aparılırdı. Çox ölkələrdən gəlirdilər. Bir müddət bundan əvvəl "hakimiyyətdə olanlar" bu suallara cavab verə bilərlər. Çox insan - deputatlar, senatorlar, konqresmenlər və digərləri gəlirdilər".

O, Ermənistan rəhbərliyi tərəfindən "Maarifçi Qriqori" ordeni ilə təltif edildiyini, qondarma rejimin "prezidenti" "vəzifə"sindən ayrıldıqdan sonra 9 il Ermənistanın xüsusi tapşırıqlar üzrə səfiri vəzifəsini tutduğunu da diqqətə çatdırıb.

Daha sonra ittihamının hakimiyyətin zorla ələ keçirilməsinə dair hissəsinə aid sənədlərin tədqiqinə başlanılıb.

Məhkəmənin növbəti iclası martın 14-nə təyin olunub. Növbəti proses təqsirləndirilən şəxslərə sualların verilməsi ilə davam etdiriləcək.

Qeyd edək ki, Ermənistan dövlətinin onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə erməniəsilli 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan Davit Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırım), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

## Ermənistan təhlükəli oyun oynayır

### Qərb regionda yeni müharibə planı hazırlayır

Ermənistandan ziddiyyətli məlumatlar gəlməkdə davam edir. Bu ölkənin xarici işlər naziri Ararat Mirzoyan niderlandlı həmkarı Kaspar Veldkampla birgə mətbuat konfransında bildirib ki, Ermənistan Azərbaycanla sülh sazişini yaxın zamanda imzalamağa və ədavət səhifəsini bağlamağa hazırdır.

Mirzoyan qeyd edib ki, bu saziş, əlbəttə, bütün məsələləri həll edə bilməz, lakin bütün prosesin müsbət yekunlaşmasının başlanğıcı ola bilər. Eyni zamanda erməni nazir deyib: "Biz Türkiyə ilə dialoqu qısa zamanda müsbət sonluğa çatdırmağa, diplomatik əlaqələr qurmağa və sərhədləri açmağa hazırıq. Bu barədə həm Ermənistan, həm də Türkiyə mütəmadi olaraq bəyanatlar veriblər. Müəyyən mənada bu proseslər hətta Ukrayna ətrafında baş verən hadisələri qabaqlaya və ya onlarla paralel gedə bilər".

Ermənistandan gələn xəbərləri təhlil etdikdə hayların təhlükəli oyunlara hazırlaşdığını görməmək mümkün deyil. Heç şübhəsiz ki, Ararat Mirzoyanın ölkəsinin sülhə hazır olması barədə bəyanatı xarici auditoriyaya hesablanıb. Dünyada sülhə hazır olduğu görüntüsünü yaratmağa çalışan rəsmi İrəvanın son hərəkətləri, mövcud revanşist əhvali-ruhiyyə bu ölkənin Azərbaycanla yeni müharibəyə fəal şəkildə hazırlaşdığını göstərir. Məsələ burasındadır ki, Ermənistan artıq qarşıdurmanın yeni mərhələsinə hazırlıqlarını gizlətmir də. "Hraparak" nəşri yazır ki, baş nazir Nikol Paşinyan hökumət üzvləri və hakim Mülki Müqavilə Partiyasının nümayəndələri ilə keçirdiyi görüşdə Azərbaycanla sülh prosesinin dalana dirəndiyini qeyd edib. Partiyadaşları ilə görüş zamanı Paşinyanın "Bakı dəhliz tələbindən geri çəkilmir, razılaşmasaq, müharibə qaçılmaz olacaq. O, ictimaiyyəti bu barədə məlumatlandırmağın zəruri olduğunu bildirib".

Xəbərlərdə bu ölkənin Azərbaycanla şərti sərhədinin müxtəlif istiqamətlərinə qoşunlarını cəmləşdirməsi və hücum xarakterli dayaq məntəqələrinin qurulması, müxtəlif istiqamətlərdə uzunmüddətli atəş nöqtələrinin yaradılması, yeni inşa edilmiş dəmir-beton fortifikasiya qurğularında Ermənistan silahlı qüvvələrinin artilleriya sistemləri, digər hücum silahları və ağır atəş vasitələrinin yerləşdirilməsi kimi ciddi narahatlıq doğuran məqamlar var. Son günlər Paşinyanın partiyasının üzvləri də Zəngəzura (Sunik) intensiv səfərlər etməkdədirlər. İqtisadiyyat naziri Gevorq Papoyan da ötən həftə iki dəfə bölgəyə səfər edib və yerli əhali ilə söhbətində müharibənin qaçılmaz olduğunu xüsusi olaraq vurğulayıb. Görünən budur ki, Ermənistan yeni muharibə hazırlığındadır. Elə erməni mətbuatında da bu gün daha çox gündəm olan müharibə mövzusudur. Ehtiyatda olan əsgər və zabitlərə çağırış vərəqələri göndərilməsi, apreldən iyuna qədər 10 həftəlik hərbi hazırlığa cəlb ediləcəkləri barədə məlumatlar müharibə anonsunun ciddi olduğuna əsas verir.

Sülhün aktuallaşdığı və delimitasiya komissiyalarının görüşlərinin keçirilməsi fonunda Fransa öz maraqlarını bölgədə gücləndirmək məqsədilə Ermənistanı hava hücumundan müdafiə sistemləri, artilleriya və zirehli texnika ilə təchiz edir. Qeyd edək ki, sülh müqaviləsini imzalamağa "hazırlaşan" Ermənistan son vaxtlar "CAESAR 155" mm-lik özüyeriyən artilleriya qurğuları və onların komplekt hissələri, həmçinin tank əleyhinə raket sistemləri və "hava-hava" tipli raketlərlə təmin edilib. Ermənistan ordusunun son zamanlar tədarük etdiyi müasir slihların siyahısında R511 və R530 "hava-hava" raketləri, 30 ədəd ERYX tank əleyhinə raket kompleksi, Almaniya istehsalı olan DM32 ("bunkerfaust") qumbaraatanları və "Panzerfaust 3" tank əleyhinə sistemləri də var. Bundan əlavə, Ermənistan silahlı qüvvələrinin arsenalına Fransanın "Apilas" tipli 500 ədəd birdəfəlik reaktiv qumbaraatanı və ABŞ istehsalı olan 50 ədəd BGM-71 TOW tank əleyhinə raket kompleksi daxil olub.

Ermənistanın silahlanması regionda təhlükəsizlik risklərini artırır. Bu məqamda xüsusi olaraq qeyd edək ki, Avropa İttifaqının Sülh Fondunun Ermənistana yardım ayırması açıq-aşkar regionda reallıqları dəyişməyə hesablanmış addımlardır. Regionda sülh ritorikası arxa plana keçir, müharibə ehtimalı artır. İstər Ermənistan Müdafiə Nazirliyi, istərsə də bu ölkəni silahlandıranlar "silahlanmanın hər bir ölkənin suveren hüququ" olduğunu dəfələrlə qeyd ediblər. Təbii ki, bu, hüquqi baxımdan belədir. Amma müharibə vəziyyətində olan bir ölkənin o silahları kimə yönəldəcəyini də izah etməyə qəti ehtiyac qalmır. Hadisələrin gedişi deməyə əsas verir ki, Qərb açıq şəkildə regionda yeni müharibə planı hazırlayır. Bu səbəbdən də Ermənistana hər cür dəstək verir. Lakin bu, Ermənistana heç də xeyir gətirməyəcək. Dövlətimizin başçısının da qeyd etdiyi kimi: "Biz bütün dünyaya sübut etmişik ki, heç kim bizim iradəmizə təsir edə bilməz. Bunu biz müharibə dövründə göstərmişik, 44 gün ərzində ancaq və ancaq irəli gedərək, düşməni məhv edərək, bayrağımızı qaldıraraq göstərmişik".

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## Moskva Paşinyanın səmimiliyinə inanmır

Ermənistan ərazisindəki rus hərbi bazalarını çıxarmaq baş nazir Nikol Paşinyanın qarşısında duran prioritetdir və mütəmadi olaraq nəyin bahasına olursa-olsun, bu tələbi reallaşdırmağa çalışdığını açıqlayıb. Şübhəsiz, bu istiqamətdə növbəti addım Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında (KTMT) iştirakını dondurmaq qərarı idi.



Belə qənaətə gəlmək olar ki, Paşinyan təşkilatı tərk etmək barədə Qərbin qoyduğu tələbi artıq reallaşdırıb. Bundan öncəki açıqlamalarında Ermənistan baş naziri bir çox problemin yaranmasında Rusiyanı günahkar hesab edərək deyib ki, Moskvanın hərbi mövcudluğu İrəvanın təhlükəsizliyinə təhdid yaradır.

Bu gün isə tam fərqli ssenarinin şahidi olmaqdayıq. Belə ki, Ermənistanın "Hraparak" nəşri yazıb ki, Paşinyan bu gün mövqeləri güclənən Rusiyaya növbəti dəfə reveranslar etmək qərarına gəlib. Qeyd edib ki, bu, referendum layihəsinin 2 ay müddətinə təxirə salınmasına və Rusiya ilə yaxınlaşma istiqamətində addımların atılmasına, xüsusən də idarələrarası münasibətlərin bərpasına dair göstərişin verilməsinə səbəb olub: "Ancaq Rusiyada Paşinyanın səmimiyyətinə inanmırlar və xəbərlərə görə, Rusiya Federal Məclisinin Federasiya Şurasının sədri Valentina Matviyenkonun səfərinin təxirə salınması Paşinyanın hərəkətlərinin səmimiliyini yoxlamaq, Ermənistanın hakimiyyəti ilə əməkdaşlığı necə davam etdirmək lazım olduğunu anlamaq istəmələri ilə bağlıdır. Matviyenko ilkin razılaşmaya görə, fevralın sonunda gəlməli idi, ancaq iyunun 5-6-da gələcəyi deyilib. Rusiyada mayın 9-da Qızıl Meydanda keçiriləcək tədbirlərdə Paşinyanın iştirak edib-etməyəcəyini gözləyirlər. Hökumət mənbələrində onun iştirak edəcəyinə şübhə yoxdur, o, 2023-cü ildə iştirak edib, 2024-cü il mayın 8-də isə Avrasiya İqtisadi Birliyinin sammitində iştirak edib və geri qayıdıb".

Əlavə edilib ki, Matviyenkonun gəlişindən əvvəl Alen Simonyan aprelin 17-18-də MDB Assambleyasının qələbənin 80 illiyinə həsr olunmuş sessiyasında iştirak etmək üçün Rusiyaya yola düşəcək. Dövlət Dumasının sədri Volodinin Ermənistana gətirilməsi ilə bağlı da danışıqların getdiyi barədə məlumatlar var. May ayına kimi Qafanda Rusiya konsulluğu da açılacaq.

"Əgər biz indi faktiki olaraq fəaliyyətimizi dondurmuşuqsa, məsələlər həllini tapmasa, de-yure də bunu edəcəyik" deyən baş nazir konkret olaraq Moskvanı təxribata çəkməyə çalışır və müəyyən jestlərlə Kremli qıcıqlandırmağa cəhd edirdi. Deməli, rəsmi İrəvan çox açıq tezislərlə Rusiya ilə əməkdaşlığı mənasız sayır və ya bu birgə fəaliyyətdən birmənalı formada imtina edirdi. Bütün bunlar Avropa İttifaqının və Qərb institutlarının hazırladığı plana uyğun şəkildə həyata keçirilirdi. Buna görə də Paşinyan maksimum şəkildə diplomatik qaydada Moskva ilə münasibətlərinə son qoymaq üçün ölkəsinin təhlükəsizlik məsələlərinə diqqət çəkirdi.

"4rd.am" nəşri yazıb ki, Paşinyan və onun komandası siyasi cəhətdən Qərb kosmopolitizmi ilə rusofobiya ideologiyası əsasında formalaşıb və öz elektoratına da bunu aşılaya bilib: "Sələflərinə qarşı nifrətlə və Rusiyanı lənətləməklə siyasi intihara doğru getdiklərini belə anlamırlar. Siyasət sevgi və nifrətlə deyil, soyuq başla idarə olunur. Ən azı böyük geosiyasi alova odun olmamaq üçün Gürcüstan və Ukrayna nümunələri bizə dərs olmalıdır. Qərb və ya başqası bizdən ötrü döyüşmək üçün öz qoşunlarını gətirəcəkmi? Gürcüstan və Ukraynanın nümunələri göstərdi ki, Qərb öz oyununu ustalıqla oynayır və nəticə acınacaqlı olur".

Beləliklə, Ermənistanda hazırda baş verənlər bu ölkəni daha sürətlə hərtərəfli iflasa doğru aparır. Çünki İrəvan xarici himayədarlarsız yaşaya bilmək iqtidarında olan ölkə deyil.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

**İŞİMİZ, GÜZƏRANIMIZ**

# Yaxın qonşuluq, etibarlı dostluq

## Azərbaycan-Gürcüstan əlaqələrini yalnız belə dəyərləndirmək olar

**Azərbaycanın bu gün bölgənin aparıcı ölkə olması çoxları tərəfindən qəbul edilir və bu, təsadüfi deyil. Ölkəmizin region, o cümlədən qonşu dövlətlərlə dostluq əlaqələri, ortaq layihələrin həyata keçirilməsində etibarlı tərəfdaş olması hər zaman nümunə kimi göstərilir. Bu baxımdan, qonşu və dost ölkə Gürcüstan da istisna deyil.**

Azərbaycanla Gürcüstanı mehriban qonşuluq və tarixi dostluq əlaqələri birləşdirir. Prezident İlham Əliyev bu ilin əvvəlində Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin qısa zaman ərzində Azərbaycana üçüncü dəfə səfər etməsini iki ölkə arasında əlaqələrin dərinliyinin və strateji xarakterinin göstəricisi kimi dəyərləndirmişdir. Eyni zamanda İrakli Kobaxidze Gürcüstanda keçirilən parlament seçkisindən sonra ilk xarici səfərini Azərbaycana etməklə iki dövlət arasındakı regional əməkdaşlığa və strateji tərəfdaşlığa verilən yüksək önəmi nümayiş etdirmişdir.

Həmin önəmi Prezident İlham Əliyev Baş nazir İrakli Kobaxidze ilə mətbuata birgə bəyanatında da səsləndirmişdir: "Bu gün Gürcüstan-Azərbaycan əlaqələri bütün istiqamətlər üzrə uğurla inkişaf edir. Hesab edirəm ki, bizim siyasi əlaqələrimiz bütün qonşular üçün nümunə ola bilər. İqtisadi sahədə yaxşı nəticələr var. Azərbaycan Gürcüstan iqtisadiyyatına 3,6 milyard dollar sərmayə qoyub. Əlbəttə, bu onu göstərir ki, hökumətinizin uğurlu iqtisadi siyasəti, sərmayələrin cəlb edilməsi, Gürcüstanda olan çox müsbət sərmayə iqlimi bütün investorları həvəsləndirir. O cümlədən Azərbaycan investorları da böyük həvəslə Gürcüstana öz sərmayələrini qoyurlar".

Qeyd edək ki, Azərbaycanın Gürcüstan iqtisadiyyatına qoyduğu sərmayə yalnız iqtisadi əlaqələrin güclənməsini deyil, həm də Gürcüstanda müsbət investisiya iqliminin yarandığını və bu ölkənin beynəlxalq investorlar üçün cəlbedici olduğunu nümayiş etdirir. Yeri gəlmişkən, qeyd edək ki, bu günlər Gürcüstanda səfərdə olan Milli Məclisin Sədri Sahibə xanım Qafarova ilə Baş nazir İrakli Kobaxidzenin görüşündə də iki ölkə arasında əlaqələrin bütün istiqamətlər üzrə uğurla inkişaf etdiyi vurğulanıb, bu münasibətlərin qarşılıqlı hörmətə və etimada əsaslandığı, strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi diqqətə çatdırılıb. Qeyd olunub ki, ölkələrimiz arasında yüksəksəviyyəli münasibətlər xalqlarımızın əsrlər boyu davam edən dostluq əlaqələrinə söykənir. Azərbaycan-Gürcüstan dostluğu və strateji tərəfdaşlığı böyük enerji, nəqliyyat layihələrinin həyata keçirilməsinə imkan yaradıb ki, indi həmin layihələr nəinki Cənubi Qafqazda, daha geniş regionda mühüm amilə çevrilib.

Sahibə xanım Qafarovanın Gürcüstanın Prezidenti Mixeil Kavelaşvili ilə görüşündə isə beynəlxalq və regional formatda uğurlu əməkdaşlıq məsələlərindən bəhs olunub. Üçtərəfli formatda uğurlu əməkdaşlıq əlaqələri-



nin olduğu diqqətə çatdırılaraq Azərbaycan-Türkiyə-Gürcüstan əməkdaşlıq formatının həm ölkələrimizə, həm də regiona qazandırdığı faydalar ifadə edilib. Söhbət zamanı həmçinin regionda vəziyyət barədə fikir mübadiləsi aparılıb. Tərəflər regionda sülh və sabitliyin təmin olunmasının əhəmiyyətini vurğulayıblar.

Məlumdur ki, Azərbaycan-Gürcüstan münasibətlərində iqtisadi sahə mühüm yer tutur. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, Gürcüstanın sərmayə cəlb etmə siyasəti azərbaycanlı investorları özünə cəlb edir. Azərbaycanlı iş adamları Gürcüstanda müxtəlif sahələrə investisiya qoyurlar. Bu, iki ölkə arasındakı ticarət və iqtisadi əməkdaşlığın daha da inkişaf etməsinə imkan yaradır.

Azərbaycan və Gürcüstanı bir-birinə Bakı-Supsa, Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC), Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərləri və TRASEKA kimi qlobal nəqliyyat-kommunikasiya layihələri birləşdirir. Bu sırada Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, BMT, ATƏT və digər qurumlar çərçivəsində əməkdaşlıqlar da mühüm əhəmiyyət kəsb edir. Əlaqələrin genişlənməsində 1998-ci ildə keçirilmiş tarixi böyük İpək yolunun bərpası üzrə Beynəlxalq Konfransın da özünəməxsus rolu olmuşdur. 1999-cu il aprelin 17-də Bakı-Supsa neft kəmərinin işə salınması isə iqtisadi sahədəki irəliləyişlərə təkan vermişdir.

Bu gün Azərbaycan 12 ölkəyə Gürcüstan üzərindən təbii qaz ixrac edir. "Cənub qaz dəhlizi" Gürcüstanın enerji təhlükəsizliyində mühüm rol oynayır. 2024-cü ildə Azərbaycan, Gürcüstan vasitəsilə 25 milyard kubmetrə qədər təbii qaz ixrac edib və bu ixracın 10 faizi Gürcüstanın payına düşür. Bu, sadəcə iki ölkə üçün deyil, ümumilikdə Cənubi Qafqaz və Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm bir layihədir. Hər iki ölkənin tarixi İpək yolu üzərində yerləşməsi, birgə irimiqyaslı enerji və nəqliyyat layihələrinin həyata keçirilməsi regionumuzdan keçən yükdaşımaların həcmini xeyli artırıb. Uğurlu regional əməkdaşlıq çərçivəsində qlobal enerji, nəqliyyat-kommunikasiya layihələrinin həyata keçirilməsi Azərbaycanla Gürcüstan arasında həm də regional sülhə və sabitliyə xidmət edir. Daha geniş bir perspektivdən baxdıqda, Azərbaycan və Gürcüstanın birgə həyata keçirdiyi neft-qaz layihələri Avropa və Asiyanın enerji ehtiyaclarını təmin edən strateji layihələrdir. "Cənub qaz dəhlizi" və Bakı-Tbilisi-Ceyhan neft boru kəməri kimi mühüm layihələr, həm enerji təhlükəsizliyinin təminatında, həm də iqtisadi əməkdaşlıqda böyük əhəmiyyətə malikdir. Bu layihələr həmçinin hər iki ölkənin enerji sektorunda beynəlxalq müstəvidə mövqeyini gücləndirir.

Bu gün hər iki ölkədə nəqliyyat infrastrukturunun genişləndirilməsi layihələri həyata keçirilir. Azərbaycanın və Gürcüstanın regionun ən böyük logistika mərkəzləri arasında yer alır. Ələt və Batumi limanları tranzit daşımalarının təmin edilməsində mühüm rol oynayır. Eləcə də Bakı-Tbilisi-Qars dəmir yolu Şərq və Qərb arasında qısa və sərfəli bir əlaqə yaradaraq iki ölkənin iqtisadiyyatına müsbət təsir edir. Birbaşa investisiyaların cəlb edilməsi sahəsindəki etibarlı tərəfdaşlıq bu gün yükdaşımalar və logistika imkanlarının genişləndirilməsində də böyük əhəmiyyətə malikdir. Azərbaycan və Gürcüstan arasında nəqliyyat və logistika sahəsindəki əməkdaşlıq ölkələrimizin Avropa ilə Asiya arasındakı ticarət əlaqələrində mühüm rol oynadığını göstərir. Orta dəhliz layihəsi də Azərbaycan-Gürcüstan əməkdaşlığı sayəsində genişlənir və inkişaf edir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Ölkə üzrə 19 milyard manatlıqdan çox ÜDM istehsal olunub

**Bu ilin yanvar-fevral aylarında ölkədə 19 milyard 72,2 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,2 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 2,7 faiz azalmış, qeyri-neft-qaz sektorunda isə 1,7 faiz artmışdır.

ÜDM istehsalının 38,5 faizi sənaye, 10,1 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 6,9 faizi nəqliyyat və anbar təsərrüfatı, 4,6 faizi tikinti, 2,9 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,5 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,9 faizi informasiya və rabitə sahələrinin, 22,0 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 10,6 faizini təşkil etmişdir.

Əhalinin hər nəfərinə düşən ÜDM 1864,7 manata bərabər olmuşdur.

## Qeyri-neft-qaz sektorunda sənaye məhsulları istehsalı 6,7 faiz artmışdır

**Cari ilin yanvar-fevral aylarında Azərbaycanda 10,7 milyard manatlıq sənaye məhsulları istehsal edilmişdir. Neft-qaz sektorunda məhsul istehsalı 3,2 faiz azalmış, qeyri-neft-qaz sektorunda isə 6,7 faiz artmışdır.**

Sənaye məhsullarının 60,9 faizi mədənçıxarma sektorunda, 31,8 faizi emal sektorunda, 6,4 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,9 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur.

Dövlət Statistika Komitəsinin məlumatına görə, mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 6,2 faiz azalmış, əmtəəlik qaz hasilatı isə 0,1 faiz artmışdır.



Emal sektorunda ağacın emalı və ağacdan məmulatların istehsalı 88,1, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 47, kompüter, elektron və optik məhsulların istehsalı 27,8, maşın və avadanlıqların istehsalı 22,4, toxuculuq sənayesi məhsullarının istehsalı 21,8, əczaçılıq məhsullarının istehsalı 21,4, neft məhsullarının istehsalı 15,6, kimya sənayesi məhsullarının istehsalı 11,4, qida məhsullarının istehsalı 10,7, içkilərin istehsalı 5,4, elektrik avadanlıqlarının istehsalı 5,2 faiz artmış, rezin və plastik kütlə məmulatlarının istehsalı 3,6, mebel istehsalı 5,7, metallurgiya sənayesi məhsullarının istehsalı 5,9, hazır metal məmulatlarının istehsalı 9, tikinti materiallarının istehsalı 12,3, tütün məmulatlarının istehsalı 25,4, kağız və karton istehsalı 32,2, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 35,1, geyim istehsalı 39,8, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 41,5, poliqrafiya məhsullarının istehsalı isə 60,1 faiz azalmışdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 5,1, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 4,3 faiz artmışdır.

## 2 ayda 2 milyard manatlıqdan çox investisiya

**Dövlət Statistika Komitəsinin məlumatına görə, yanvar-fevral aylarında əsas kapitala 2 milyard 8,9 milyon manat məbləğində investisiya yönəldilmişdir.**

Neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi 32,5, qeyri-neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi isə 20,8 faiz az olmuşdur. İstifadə olunmuş investisiyanın 1 milyard 50,6 milyon manatı və ya 52,3 faizi məhsul istehsalı sahələrinə, 661,5 milyon manatı (32,9 faizi) xidmət sahələrinə, 296,8 milyon manatı (14,8 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur.

Əsas kapitala yönəldilmiş investisiyaların 1 milyard 422,4 milyon manatını və ya 70,8 faizini daxili investisiyalar təşkil etmişdir. Əsas kapitala yönəldilmiş investisiyaların 1 milyard 558 milyon manatı (77,6) faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

## TANAP-la qaz ixracında 12,5 faiz artım qeydə alınıb

**Cari ilin yanvar-fevral aylarında ölkədə təbii qaz hasilatı 1,22 faiz azalaraq 8,1 milyard kubmetr olub.**

Energetika Nazirliyinin yaydığı məlumata görə, qazın 2,2 milyard kubmetri "Azəri-Çıraq-Günəşli"nin, 4,3 milyard kubmetri "Şahdəniz"in, 0,3 milyard kubmetri "Abşeron" yatağının, 1,3 milyard kubmetri SOCAR-ın payına düşüb.

Hesabat dövründə xaricə qaz satışı 3,8 milyard kubmetr təşkil edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 7,3 faiz və ya 0,3 faiz azdır. Bundan 1,9 milyard kubmetr Avropaya (9,52 faiz azalma), 1,4 milyard kubmetr Türkiyəyə (ötən illə eyni səviyyədə), 0,5 milyard kubmetr Gürcüstana (16,7 faiz azalma) satılıb. O cümlədən TANAP-la 0,9 milyard kubmetr (12,5 faiz artım) qaz nəql olunub.




# Aqroparklar ümidləri doğruldur

## Ötən il bu təsərrüfatlarda 34,1 min ton buğda, 25,5 min ton arpa istehsal edilib

**Müasir dünyada ölkələrin əsas inkişaf göstəricisi iqtisadiyyatın sənayeləşməsi ilə ölçülür. Sənayesi inkişaf edən ölkələr bu imkandan istifadə edərək bol və keyfiyyətli məhsul istehsalına nail olurlar. Məsələn, ərazisi və təbii sərvətləri az olan Yaponiya, Almaniya, Böyük Britaniya geniş ərazisi və zəngin təbii sərvətə malik bəzi ölkələrdən bir neçə dəfə çox məhsul istehsal edirlər. Bunun da başlıca səbəbi sənayenin inkişafı, elmin və texnologiyaların son nailiyyətlərindən istehsal proseslərində istifadə edilməsidir.**

Hazırda dünya iqtisadiyyatında yeni bir tendensiya da müşahidə olunur. Əvvəllər aqrar sektorda az istifadə olunan texnika və texnologiyalar indi bu sahədə geniş tətbiq edilir. Başqa sözlə, kənd təsərrüfatı da müasir texnologiyalar hesabına sürətlə sənayeləşdirilir. Özgə yol da yoxdur. Dünyada ərzağa artan tələbat bunu qaçılmaz edir.

Bunun üçün isə təbii ki, meydan, yəni iri aqrar müəssisələr - aqroparklar lazımdır. Aqropark kənd təsərrüfatı məhsullarının istehsalını, emalını, logistikasını və digər xidmətləri əhatə etməklə bu zənciri özündə birləşdirən təsərrüfat subyektidir. Belə müəssisələrdə həmçinin ətraf mühitin qorunması, torpaq və su resurslarından səmərəli istifadə, onların mühafizəsi təmin olunur, eləcə də bitkiçiliyin, heyvandarlığın, emal sənayesinin və digər sektorların inkişafı üçün möhkəm əsaslar yaradılır. Bununla yanaşı, ərzaq məhsullarının istehsalı ilə bağlı əsas fəaliyyətləri - enerji, su və tullantıların idarə edilməsi, logistika, nəqliyyat, ərazinin planlaşdırılması və digər proseslərin həyata keçirilməsini təmin edən aqroparklar habelə davamlı inkişaf prinsiplərinə əsaslanaraq istehsal, emal, tədarük, tədqiqat və inkişaf, ticarət və sosial funksiyaları özündə birləşdirən bir mərkəz kimi xarakterizə olunur.

Hazırda Azərbaycanın qarşısında duran əsas vəzifələrdən biri qeyri-neft sektorunun aparıcı bölməsi olan aqrar sənaye sahəsinin inkişafını təmin etməkdir. Bu məqsədlə aqrar sektorun innovativ meyarlara uyğun qurulması, o cümlədən aqroparkların inkişafı əsas istiqamətlərdəndir. Prezident İlham Əliyev kənd təsərrüfatında aqroparkların yaradılmasının zəruriliyini vurğulayaraq demişdir: "Hesab edirəm ki, aqroparkların yaradılması üçün şərait artıq yetişib. Bu məsələlərlə bağlı başqa ölkələrin təcrübəsi də öyrənilə bilər, harada ki bu aqroparklar mövcuddur. Hesab edirəm ki, bu da müasir bir yanaşma və kənd təsərrüfatının inkişafı üçün növbəti bir təkan olacaqdır".

İqtisadi Zonaların İnkişafı Agentliyi (İZİA) tərəfindən 2023-cü ilin yanvar ayından etibarən aqroparkların reyestrinin aparılması, həmçinin orada fəaliyyət göstərən hüquqi və fiziki şəxslərə aqroparkın rezidentinin qeydiyyat şəhadətnaməsinin verilməsi ilə bağlı işlərə başlanılıb. İndiyəcən 2-si dövlət, 22-si özəl olmaqla ümumilikdə 24 aqropark qeydiyyata alınıb. Ümumilikdə isə ölkə üzrə 32 rayonda 239312 hektar ərazidə ümumi layihə dəyəri 2,3 milyard manat olan 51 aqroparkın yaradılması nəzərdə tutulub.




Hazırda 23 aqropark artıq fəaliyyətə başlayıb, 1 aqroparkda isə tikinti-quraşdırma işləri aparılır. Aqroparklardan 6-sı heyvandarlıq, 6-sı meyvəçilik, 11-i əkinçilik, 1-i çeşidləmə, qablaşdırma və logistika üzrə ixtisaslaşıb. Ümumilikdə aqroparkların layihə dəyəri 1,1 milyard manat təşkil edir. Həmin vəsaitin faktiki olaraq 900 milyon manatı özəl investisiya şəklində sahibkarlar tərəfindən layihələrin reallaşdırılmasına qoyulub. Bununla yanaşı, indiyədək aqroparkların yaradılması və ya fəaliyyətlərinin genişləndirilməsi məqsədilə 158,9 milyon manat dövlət dəstəyi göstərilib. Yeri gəlmişkən, qeyd edək ki, indiyədək Sahibkarlığın İnkişafı Fondu tərəfindən 16 aqroparkın yaradılmasına 142,4 milyon manat güzəştli kredit ayrılıb. İnvestisiya təşviqi sənədi almış 17 aqroparka texnika, texnoloji avadanlıqlar və qurğuların idxalına görə 16,5 milyon manat dəyərində güzəşt edilib. Qeydiyyata alınan aqroparklarda 3720 nəfər daimi işlə təmin edilib, 4878 nəfər isə mövsümi işlərə cəlb olunub. Növbəti mərhələdə əlavə olaraq 1600-dən çox daimi iş yerinin yaradılması nəzərdə tutulur.

İqtisadi Zonaların İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Seymur Adıgözəlov deyir ki, ötən il əkin dövriyyəsinə cəlb olunmuş 42,5 min hektar torpaq sahəsinin 35,7 min hektarı suvarılan ərazilərdir. Onun da 26 min hektarında (73 faizi) mütərəqqi suvarma sistemləri qurulub: "2024-cü ildə aqroparklarda 34,1 min ton buğda, 25,5 min ton arpa, 91,8 min ton dən və silos qarğıdalı, 49,7 min ton şəkər çuğunduru, 22,4 min ton pambıq, 17,3 min ton kartof, 11,6 min ton yonca, 1,1 min ton soya, 3,5 min ton tərəvəz məhsulları, 14 min ton qüvvəli yem istehsal olunub, 18,1 min ton qarışıq meyvə yığılıb və 606 min ting əkilib. Aqroparklarda istehsal olunmuş kənd təsərrüfatı məhsullarının ümumi dəyəri 150 milyon manat təşkil edib. Heyvandarlıq üzrə ixtisaslaşmış 6 aqroparkda 32,4 min ton süd və 1,3 min ton ət istehsal olunub".

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# REGİONLAR

## Şirvanda şəhid polkovnik-leytenant Rəşad Hüseynovun doğum günü qeyd olunub

**Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasovun, Daxili Qoşunlar Komandanının müavini general-mayor Fəxrəddin Səmədovun, şəhər Polis Şöbəsinin rəisi Seymur Əfəndiyevin, Daxili Qoşunların Şirvan şəhərindəki hərbi hissəsinin komandiri Rəşadət Süleymanovun, Daxili İşlər Nazirliyi əməkdaşlarının, şəhid ailə üzvləri, müharibə iştirakçıları, din xadimləri və ictimaiyyət nümayəndələrinin iştirak etdikləri tədbir şəhidin məzarını ziyarətlə başlamışdır.**



Çıxış edən ŞİH-in başçısı İlqar Abbasov şəhid Rəşad Hüseynovun doğmalarına dərin hüznlə başsağlığı verib, şəhidlərin bizim qürur yerimiz, fəxrimiz olduğunu, xalqımızın heç zaman Vətən naminə canını qurban vermiş şəhidləri unutmayacağını, onları əbədi xatirə kimi qəlbində yaşadacağını qeyd edib. Bildirib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsi, uzaqgörənliyi, qətiyyəti sayəsində "dəmir yumruq" ətrafında sıx birləşən xalqımız Vətən müharibəsində düşməni diz çökdürüb, 30 illik vətən həsrətinə son qoyub: "44 günlük müharibədən sonra Ermənistanın kapitulyasiya aktına imza atmasına baxmayaraq, erməni silahlı birləşmələrinin Qarabağda terror fəaliyyətlərini davam etdirmələri antiterror əməliyyatlarının keçirilməsini qaçılmaz edib. Bu əməliyyatla cəmi 23 saat ərzində terrorçular məhv edilib, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam təmin olunub".

Daha sonra çıxış edən general-mayor Fəxrəddin Səmədov antiterror tədbirlərindən, xalqımıza Zəfər bəxş edən Rəşad Hüseynov və digər döyüşkən ruhlu şəhidlərimizdən, müharibə iştirakçılarımızdan söhbət açıb.

Şəhidin atası Rəhim Hüseynov dövlət səviyyəsində şəhid ailələrinə və qazilərimizə göstərilən diqqət və qayğıya görə Prezident, Qalib Ali Baş Komandan İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlığını ifadə edib.

Qeyd edək ki, şəhid polkovnik-leytenant Hüseynov Rəşad Rəhim oğlu 10 mart 1980-ci ildə Şirvanda anadan olub, şəhərdəki 21 saylı tam orta məktəbdə təhsil alıb. C.Naxçıvanski adına hərbi liseyin və Azərbaycan Ali Hərbi Məktəbinin məzunu olub, Daxili Qoşunlarda xidmət edib. 19-20 sentyabr 2023-cü ildə keçirilən lokal xarakterli antiterror tədbirləri zamanı şəhidlik zirvəsinə ucalan Rəşad Hüseynov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda" medalı ilə təltif olunub.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## "Qərbi Azərbaycan bizim tarixi torpağımızdır..."

**Gəncə Şəhər İcra Hakimiyyətinin, Qərbi Azərbaycan İcmasının və YAP Gəncə şəhər təşkilatının birgə təşkilatçılığı ilə Gəncə Dövlət Filarmoniyasında "Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bizim tariximiz təsdiqləyir" mövzusunda konfrans keçirilib.**



Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki Baş konsulu Recep Öztop, Gürcüstanın Gəncədəki Baş konsulu Kaxaber Abdaladze, YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov, Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərov, İdarə Heyəti sədrinin müavini, Milli Məclisin deputatı Hikmət Babaoğlu, Milli Məclisin deputatları Musa Quliyev, Pərvin Kərimzadə, Naqif Həmzəyev, Qərbi Azərbaycan İcmasının Gəncə şəhər üzrə nümayəndəsi Mübariz Yusifov, idarə, müəssisə, təşkilat rəhbərləri və ziyalılar iştirak ediblər.

Onlar öncə Ulu Öndər Heydər Əliyevin şəhərin mərkəzi meydanında ucaldılan abidəsini ziyarət etmiş, filarmoniyanın foyesində Qərbi Azərbaycana həsr olunan dekorativ tətbiqi sənət nümunələri ilə tanış olmuşlar.

Konfransı giriş sözü ilə şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov açaraq qədim Nizami yurdunda Qərbi Azərbaycanla bağlı belə tədbirin keçirilməsinin önəmindən danışmış və demişdir ki, bu gün Prezident İlham Əliyevin Qərbi Azərbaycana Böyük qayıdış ideyasının həyata keçirilməsi istiqamətində mühüm işlər görülür. Bu baxımdan Qərbi Azərbaycan İcmasının fəaliyyəti və qəbul edilən "Qərbi Azərbaycana Qayıdış Konsepsiyası" böyük əhəmiyyətə malikdir.

Sonra Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərov "Qərbi Azərbaycan İcmasının məqsəd və hədəfləri, qayıdış uğrunda mübarizə" mövzusunda çıxış edərək icmanın yaranma tarixi, görülən işlər və qarşıda duran məsələlər barədə məlumat vermişdir. Bildirmişdir ki, son 200 ildə ata-baba yurdlarından zorla çıxarılan qərbi azərbaycanlıların geri qayıdışı mütləq təmin olunacaqdır.

"Qərbi Azərbaycan həqiqətləri, Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyevin Qərbi Azərbaycana qayıdış uğrunda apardıqları mübarizənin tarixi əhəmiyyəti" mövzusunda çıxış edən Milli Məclisin deputatı Musa Quliyev isə Qərbi Azərbaycandakı yurd yerlərimizdən, doğma torpaqlara qayıdışın vacibliyindən danışmışdır.

Milli Məclisin deputatı Hikmət Babaoğlu "İndiki Ermənistandan zorla çıxarılmış azərbaycanlıların Qərbi Azərbaycana qayıdışı regionda qalıcı sülhün təminatı kimi" mövzusunda çıxış edərək bildirmişdir ki, soydaşlarımızın geri qayıdışı regionda sabitliyin yaranmasında mühüm rol oynayacaqdır.

Tədbir YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanovun "Qərbi Azərbaycan toponimlərinin dəyişdirilməsinin siyasi və sosial təsirləri", professor Mübariz Yusifovun "Qərbi Azərbaycan İcmasının Gəncə şəhəri üzrə nümayəndəsinin fəaliyyət istiqamətləri barədə hesabat xarakterli icmal", Gəncə şəhərində yaşayan Qərbi Azərbaycan kökənli gənclər adından çıxış edən Sevinc İsgəndərovanın "Azərbaycanlıların tarixi vətənlərinə qayıdış hüquqlarının bərpası və Qərbi Azərbaycan həqiqətlərinin təbliğində gənclərin rolu" mövzularında çıxışları ilə davam etmişdir.

Konfransın sonunda bir qrup Qərbi Azərbaycan kökənli şəxslərə Qərbi Azərbaycan İcmasına üzvlük vəsiqələri və döş nişanları təqdim olunmuşdur.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Bu gün Tovuzda "Aqrar sahədə fəaliyyət göstərən kooperativlərin inkişafı" forumu keçirilir

**Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı ilə bu gün Tovuz rayon Mədəniyyət Evində "Aqrar sahədə fəaliyyət göstərən kooperativlərin inkişafı" forumu keçirilir.**

Aqrar Biznes Festivalı çərçivəsində baş tutacaq forumun keçirilməsində məqsəd aqrar sahədə istehsalın və səmərəliliyin artırılması, həmçinin sahibkarlıq ekosisteminin inkişafına töhfə verməkdir.

Forumun əsas hədəfləri sahibkarların kooperativlər vasitəsi ilə aqrar biznesə daha səmərəli inteqrasiyasını təşviq etmək, onların iqtisadi müstəqilliyini artırmaq və kooperativlərin inkişafına dəstək verməkdir.




Tədbirdə 20-dən çox rayondan kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan 30-dan artıq qadın inkişaf və müəssisə qrupu iştirak edir.

Forumun ilk hissəsində dövlət qurumları və assosiasiyaların iştirakı ilə "Kooperasiyaların formalaşmasına və strateji inkişafına dəstək" mövzusunda panel müzakirə təşkil ediləcək. Müzakirələr zamanı kooperativlərin qurulması, idarə olunması və inkişaf perspektivləri barədə fikir mübadiləsinin aparılması nəzərdə tutulur. İkinci hissədə isə regional sərgilərdə fəal iştirak edən kooperativ rəhbərlərinin qatılacağı "Kooperativlərin inkişafı: təşəbbüslər və uğurlu təcrübələr" mövzusunda panel müzakirələr aparılacaq, uğurlu sahibkarlıq nümunələri və aqrar sahədə kooperativlərin inkişafına dair praktik təcrübələr paylaşılacaq.

Bu tədbirin aqrar sektorun inkişafına töhfə verməsi, regionlarda sahibkarların biznes mühitində daha fəal iştirakını stimullaşdırması və kooperativlər arasında əməkdaşlığın gücləndirilməsi baxımından mühüm platforma olacağı gözlənilir.

# Bu il mart Boz aya bənzəmir

### Belə bir vaxtda tərtərli əkinçini harada axtarsan, çöldə taparsan

**44 günlük Vətən müharibəsində əldə olunan şanlı qələbə və 24 saatdan az davam edən antiterror tədbirlərindən sonra Tərtər rayonunun da tarixində yeni dövr başladı. İllərdir düşmənlə üz-üzə dayanan, nankor qonşuların hər cür əməllərinə mərdliklə sinə gərən tərtərlilər nəhayət ki, rahat nəfəs aldılar.**

Əlbəttə, bu rahatlıqla bərabər, qəlblərdə şəhid yarası, ömrünün bahar çağında gözünün nurunu, sağlamlığını itirən oğulların dərdi də var idi. Amma bu dərd Tərtər camaatını əymədi, əksinə, onları Müzəffər Ali Baş Komandanın ətrafında daha sıx birləşdirdi, ölkəmizin, dövlətimizin xoş gələcəyi naminə səfərbər etdi. Nəticələr göz qabağındadır. Prezident İlham Əliyevin tapşırıq və tövsiyələri ilə ilk növbədə müharibənin rayonun infrastrukturuna, yaşayış evlərinə vurduğu ziyanlar aradan qaldırıldı.

Ötən il bu istiqamətdə Tərtər şəhərində tikinti və abadlıq-quruculuq işləri davam etmişdir. Bu gün şəhərin küçələri müasir memarlığın tələblərinə uyğun yenidən qurulur. Bir sıra işlər, o cümlədən Tərtər Peşə Məktəbinin əsaslı təmiri, bir sıra küçələrin abadlaşdırılması yekunlaşmış, yeni yaşıllıq zolaqları salınmış, işıq, qaz, telekommunikasiya xətləri təmir edilmiş, ehtiyac olan ərazilərdə divarlar aqlay və bəzək daşları ilə üzlənmişdir. Bunlardan əlavə, respublika və yerli əhəmiyyətli avtomobil yollarında cari təmir işləri görülmüşdür.

"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində keçirilən tədbirlərdə hər bir tərtərli böyük həvəslə iştirak etmişdir. Bu çərçivədə rayon üzrə imeciliklərlə yanaşı, maarifləndirmə işləri də önə çəkilmiş, xüsusən məktəblilərdə ekologiyanın qorunmasına maraq oyatmaq üçün tədbirlər həyata keçirilmişdir. Konkret faktlara gəldikdə "Yaşıl dünya naminə həmrəylik ili"ndə ekoloji tarazlığın qorunması məqsədi ilə Bərdə-Ağdam magistral yolunun kənarlarına 11,2 min, Tərtər-Goranboy, Tərtər-Bərdə yolları istiqamətində yol kənarlarına və rayonun digər yaşayış məntəqələrinə 21 min olmaqla ümumilikdə 32 min ağac və gül kolu əkilmişdir. Onu da qeyd edək ki, Tərtər təbiətinə, iqliminə görə həmişə seçilən rayonlardan olub. Bu yaşıllığı, səliqə-sahmanı qorumaq üçün rayonda keçirilən tədbirlər kampaniya xarakteri daşımır, davamlıdır və hər kəs yaşadığı kəndin, küçənin, həyətin özünəməxsusluğunu qorumaq üçün ümumi işə töhfə verir.

Rayonda görülən abadlıq, tikinti-quruculuq işləri ilə yanaşı, iqtisadiyyatın, o sıradan aqrar sektorun inkişafı da diqqətdə saxlanılır. Konkret rəqəmlərə keçək: 2024-cü il ərzində rayon üzrə istehsal edilən kənd təsərrüfatı məhsullarının dəyəri 112,3 milyon manatdan çox olmuşdur ki, onun da 61,1 milyon manatlığı bitkiçilik, 51,2 milyon manatlığı heyvandarlıq məhsullarının hesabına formalaşmışdır. Ötən il kənd təsərrüfatı bitkilərinin əkin sahəsi 23136,2 hektar olmuşdur. Onun 7978 hektarını (34,5 faizini) dənli və dənli paxlalı, 4611,7 hektarını (20 faizini) texniki bitkilər, 1466 hektarını (6,3 faizini) kartof, bostan və tərəvəz, 9080,5 hektarını (39,2 faizini) yem bitkiləri təşkil etmişdir. 2024-cü ildə sahələrdən qarğıdalı da nəzərə alınmaqla ilkin çəkidə 24752,9 ton dənli və dənli paxlalı bitkilər toplanmışdır. Həmin dövr ərzində 7797 hektar taxıl sahəsindən 23676 ton məhsul biçilmiş, orta məhsuldarlıq 30,4 sentner olmuşdur. 3712 hektardan 11628,7 ton buğda, 4085 hektardan 12047,3 ton arpa götürülmüşdür ki, bu da buğda üzrə 31,3, arpa üzrə 29,5 sentner məhsuldarlıq deməkdir. Məhsuldarlığa görə buğda üzrə ən yüksək nəticə Mamırlı (49 sentner), Borsunlu (43 sentner), Seydimli (40 sentner), arpa üzrə Mamırlı (50 sentner), Borsunlu (41 sentner), Sarov (40 sentner) kəndlərində olmuşdur.

Pambıqçılıq Tərtərdə kənd təsərrüfatının ənənəvi sahələrindən sayılır. Hələ sovet dönəmində tərtərlilər bu sahədə zəngin təcrübə toplamışlar. Yaşlı insanlar Ulu Öndər Heydər Əliyevin pambıqçılarla görüşlərini, onlara verdiyi tövsiyələri bu gün də minnətdarlıq hissi ilə xatırlayırlar. Ötən mövsüm rayon üzrə 2306,5 hektarda pambıq əkilmişdir ki, bu da 2023-cü ilə nisbətən 2,9 faiz çox idi. Tarlalardan 6696,8 ton pambıq toplanmış, orta məhsuldarlıq inişilki göstəriciyə nisbətən 4,6 faiz artaraq 29,5 sentnerə çatmışdır. Pambıqçılıqla yanaşı, rayonda çuğundur, günəbaxan, tərəvəz, meyvə istehsalı da yeni texnologiyaların tətbiqi hesabına artır.



Son illər Tərtərdə tingçilik sürətlə inkişaf edir. 2024-cü ildə rayonun təsərrüfatlarında 2468 min meyvə və 844 min dekorativ bitki tingləri yetişdirilmişdir. Paralel olaraq baramaçılıq sahəsində irəliləyiş var. Keçən il kümçülər 370 qutu baramaqurdu saxlamış və 9271 kiloqram barama tədarük etmişlər. Hər qutudan orta hesabla 39,4 kiloqram barama istehsal olunmuşdur ki, bu da 2023-cü ildəkindən 8,6 kiloqram və ya 27,9 faiz çoxdur.

Müstəqilliyimizin ilk illərində baramaçılıq unudulmuşdu. Amma son illər ölkədə ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər insanlarda bu xeyirli və vacib sahəyə marağı artırmışdır. İlk növbədə kəndlərdə ipəkçiliyin yem bazası yaradılmışdır ki, bu da kənd əməkçilərinə az müddət ərzində yüksək gəlir əldə etməyə kömək edir. Söz düşmüşkən qeyd edək ki, ötən il baramaçılara 54,3 min manat subsidiya verilmişdir.

Ölkəmizdə ət məhsullarına artan tələbat təsərrüfatlarda mal-qara və qoyun-keçilərin baş sayının artırılması üçün yeni üsullar axtarılmasını tələb edir. Tərtər rayonunda bu məqsədlə süni mayalanmaya diqqət artırılmışdır. 2024-cü il ərzində rayonda süni mayalanma yolu ilə 1161 baş buzov doğulmuşdur. Bu cür üsulla doğulmuş 1311 baş buzova görə 131,1 min manat subsidiya verilmişdir. Həmçinin baytarlıq xidmətinin daha yüksək, müasir səviyyəyə qaldırılması üçün tədbirlər görülmüşdür.

Bol kənd təsərrüfatı məhsulları istehsalında suvarmanın düzgün təşkili həmişə vacib məsələlərdən olub. Bu sahədə tərtərlilər uzun müddət ciddi çətinliklərlə üzləşmişlər. Sərsəng və Suqovuşan su anbarları işğaldan azad edildikdən sonra isə əkinçilərin üzü gülür. Prezident İlham Əliyevin sərəncamları ilə yeni subartezian quyularının vurulması, mövcud quyuların təmir edilərək istismara verilməsi də fermerlərin su sarıdan problemlərini həll edib.

Tərtər Su Meliorasiya Sistemləri İstismarı İdarəsinin müdiri Murad Zeynalov deyir ki, rayonda mövcud olan 599 subartezian quyusundan 37-si içməli, 562-si kommunal, məişət və suvarma məqsədi ilə istismar olunur: "591 subartezian quyusu saz və işlək vəziyyətdədir. Qalan 8 quyu təmir olunur. Keçən il 274 subartezian quyusunun nasosları əsaslı təmir olunmuş, 27 subartezian quyusunun yararsız nasosları yenisi ilə əvəz edilmişdir. Ötən il həmçinin kəndlərdə 8 yeni subartezian quyusu qazılmışdır. Yaxın günlərdə onların istismara verilməsi nəzərdə tutulur". Fermerlər də suvarma işçilərinin onların problemlərinə operativ və həssas yanaşdıqlarını deyirlər.

Bu bahar günlərində tərtərliləri harada axtarsan, sahələrdə taparsan. Həmişə Boz ay kimi gördüyümüz mart da bu il sanki həmin ay deyil, özünün istisi ilə kəndlini çölə çağırır. Belə bir vaxtda Tərtər əkinçisi evdə otura bilərmi?!

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## "Bir ağac - bir xatirə, bir ümiddir"

**1918-ci ildə azərbaycanlılara qarşı törədilmiş soyqırımının 107-ci ildönümü ilə əlaqədar olaraq Qubada ağacəkmə kampaniyası keçirilir.**

Quba şəhərində "Soyqırımı Memorial Kompleksi" və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşəbbüsü ilə keçirilən layihəyə martın 13-dən start verilib. AZƏRTAC xəbər verir ki, "Bir ağac - bir xatirə, bir ümiddir" devizi ilə keçirilən aksiya həm soyqırımı qurbanlarının xatirəsini anmaq, həm də təbiətin qorunmasına töhfə vermək məqsədi daşıyır.

Əkin sahəsi və əkilən ağacların növləri ərazinin coğrafi və iqlim xüsusiyyətlərinə uyğun olaraq müəyyən edilir. Ağacların əkilməsi və onlara aqrotexniki qulluğun göstərilməsi "Azərbaycan Yaşıllaşdırma və Landşaft Quruluşu" ASC-nin ixtisaslı mütəxəssisləri tərəfindən həyata keçirilir.

## Naxçıvanda ixrac məqsədi ilə verilən mənşə sertifikatlarının sayı 13,3 faiz artıb

**Cari ilin 2 ayı ərzində özəl sektorun inkişafı, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi istiqamətində sahibkarlara 4 lisenziya verilib.**

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, muxtar respublikanın müvafiq qurumları tərəfindən verilmiş 1304 icazə reyestrdə qeydiyyata alınıb. Qeydiyyata alınmış icazələr ötən ilin müvafiq dövrü ilə müqayisədə 26,1 dəfə, verilmiş icazələrdən büdcəyə daxilolmalar isə 4,6 dəfə artıb.

Bu ilin 2 ayı ərzində Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində "Sertifikatlaşdırma və Metrologiya Mərkəzi" publik hüquqi şəxs tərəfindən sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərə 51 mənşə sertifikatı verilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 13,3 faiz çoxdur.

2025-ci ilin yanvar-fevral ayları ərzində verilmiş mənşə sertifikatlarından daxilolmalar 2024-cü ilin eyni dövrü ilə müqayisədə 13,3 faiz artıb.




# Mərasim və ayinlərlə zəngin milli bayram

**Novruz təbiətin oyanışı, təbiət qüvvələrinə inam hissini aşıladığı üçün əziz bayram kimi qeyd olunmuşdur. Təzə ilin gəldiyi dəqiq vaxt münəccimlər tərəfindən hesablanar, bununla da "təhvil saxlamaq" adəti icra olunardı. Ümumiyyətlə, ötüb keçmiş dövrlərdə ilin təhvil olunma anına xüsusi diqqət yetirilərdi. Hətta əhaliyə ilin təhvil olunduğunu bəyan etmək məqsədilə evlərin damlarında tonqallar qalanar, təbil çalınardı, Novruz "topu" atılardı. Bundan əlavə, iltəhvil saatını hər kəs öz evində də müəyyənləşdirə bilərdi, bunun üçün müəyyən məqamlara diqqət yetirmək vacib sayılırdı.**



Məsələn, xırda balıqların bir anlığa donub qalması, yaxud əksinə, onların sudan quruya can atması, "təhvil suyu" adlandırılan, xüsusi qaba yığılmış suyun üzərindəki zeytun yarpaqlarının, güzgü üzərində yumurtanın hərəkəti və s. iltəhvil anının göstəriciləri hesab olunurdu. İlin təhvil olunduğu zaman ailə başçısının evinə, ailəsinə xeyir-dua verməyi də xüsusi əhəmiyyət daşıyırdı ki, buna "təhvil-təslim duası" deyilirdi.

Maraqlı rituallardan biri də budur ki, il təhvil olunduqda evin ən kiçiyi şamları yandırır, evin böyüyü isə səməni otunu bir az qayçılayır, sonra onu özündən kiçik ailə üzvlərinə verərdi. Bu ayini kiçikdən tutmuş böyüyə kimi hamı icra etməli idi. Bu ritualdan sonra ailə başçısı öz hədiyyələrini hamıya paylayardı. Hədiyyələr arasında qızıl, gümüş, mis pullar, nabat, bal xüsusi önəm daşıyırdı. Həmçinin bayram günü hamı qırmızı və ya yaşıl rəngdə təzə paltar geyinməli idi.

Novruz axşamında icra olunan adətlərdən biri də dünyasını dəyişən əzizlərin ruhlarını yad etmək, məzarlarını ziyarət etməkdir. Bayram plovu bişirilərkən onların adları bir-bir çəkilməlidir ki, həmin adamların ruhları sevinsin, ailəyə, evə xeyir-dua versinlər. Hətta adətə görə, bayram axşamı süfrənin künc tərəfində heç kim oturmamalıdır, çünki inanca görə "ata-baba ruhları" süfrəyə küncdən yaxınlaşıb Novruz təamlarından dadmalıdır. Əgər evlənmə yaşına çatan gənclərdən kimsə ruhların qarşısını kəsərsə, onda onlar qəzəblənər, həmin cavanlar yeddi il ailə qura bilməzlər. Mənbələrə görə, ailənin ağsaqqalı, böyüyü evin başına üç dəfə dolandıqdan sonra gəlib evin qapısını döyür, ondan "kimsən, nəçisən, nə gətirmisən?" soruşanda isə cavab verir ki: "Sizə özümlə təzə il, səadət və əmin-amanlıq gətirmişəm, izn verin gəlim". Sonra qapını açıb onu içəri dəvət edirlər. "Müjdəçi" adlandırılan həmin adam evə əlidolu daxil olmalı idi, o, əlindəki naz-neməti evin hər tərəfinə, qalanını isə ailə üzvlərinin üzərinə səpərdi. İnanca görə, bayram axşamı kim hansı əhvali-ruhiyyədə olarsa, bütün ilboyu o cür olar, ona görə də ulu babalarımız "Novruzda gülən, ilboyu gülər" demişlər.

Novruz bayramının möhtəşəm ayin və ritual sistemi vardır. Mənbələrə görə , həmin adətlər içərisində qıfıl və ya düyünaçma maraq doğurur. Bu adətin məqsədi odur ki, insanların müşkül işləri həll olunsun, çətinliklərdən, əzab-əziyyətdən çıxsınlar. Həmin rituala görə, paltar, dəsmal, yaxud çarşablarının ucunu düyünləyib niyyət edirlər, evdən çıxıb bir yerdə oturar və həmin yerdən keçən ilk şəxsdən xahiş edərlər ki, düyünü açsın. Əgər bu işi rahatlıqla icra edirdilərsə, niyyətin baş tutacağına inanardılar. İnanca görə, bayram günü evdə bağlı, düyünlü, qıfıllı heç nə qalmamalı, hətta paltarların yaxası belə açılmış vəziyyətdə olmalı idi. Mənbələrə görə, Novruzun axır çərşənbəsində icra olunan ayinlərdən biri də qaşıqla kasa çalmaqdır. Tədqiqatçılar hesab edirlər ki, "bu adət əkinçi tayfalarının birinin digərindən əkin üçün toxumluq dən nümunələri toplamaq adətini xatırladır".

Şalsallama isə əsasən cavanların iştirak etdiyi bir ayindir. İlaxır çərşənbədə subaylar örpək, kəlağayı, torba, corab, dolça, dəsmal və ya bel şalını götürüb sevib-seçdikləri qızların yaşadığı evlərə gedib damdan, bacadan, yaxud pəncərədən "şal sallayardılar". İnanca görə, şalı boş qaytarmaq qəbahət sayılar, şalın içinə evdə olan bayram nemətlərini doldurub qoyar və şala bağlayardılar. Şala qızların toxuduqları corab, dəsmal və sairə əşyaları bağlayar, bununla da oğlana öz razılıqlarını bildirərdilər. Mənbələrə görə, bu ayinə Urmiyada da rast gəlmək mümkündür, fərqli cəhət isə ondan ibarətdir ki, cavanlar damdan şal əvəzinə dolça, yaxud kəcavə sallayardılar, bununla da niyyətlərinin boş olmamasına inanardılar.

Müasir dövrümüzdə qədim şalsallama adəti "papaqatdı" ilə əvəz olunub, bu da səbəbsiz deyildir. Şəhər mühitində yaşadığımız bina evlərinin damından, bacasından, yaxud pəncərəsindən şal sallamaq qeyri-mümkündür. Təəssüf ki, qədim şalsallama adəti bir çox digər ayinimiz kimi, milli məişət həyatımızı tərk etməkdədir. Amma bu ayinin yaranması təsadüfi olmayıb. Çünki qədim ənənəni özündə yaşadan şalsallama, əslində, "ata-baba ruhunu" təmsil etmək məqsədilə yaranıb, yəni bu adəti icra edən cavanlar gözə görünməyən "ata-baba ruhlarını" təcəssüm etdirir.

XX yüzilliyin Şərq şeirinin görkəmli simalarından olan Şəhriyarın "Heydərbabaya salam" poemasında Novruz bayramı, onun adət-ənənələri və sair poetik dillə diqqətə çatdırılır:

*Bayram yeli çardaxları yıxanda,*
*Novruzgülü, qarçiçəyi çıxanda*
*Ağ buludlar köynəklərin sıxanda*
*Bizdən də bir yad eləyən sağ olsun,*
*Dərdləriniz qoy dikəlsin, dağ olsun...*
*Bayram idi gecə quşu oxurdu,*
*Adaxlı qız bəg corabı toxurdu,*
*Hər kəs bir bacadan soxurdu,*
*Ay nə gözəl qaydadı şal sallamaq,*
*Bəg şalına bayramlığın bağlamaq.*

*Şal istədim mən də evdə ağladım,*
*Bir şal alıb tez belimə bağladım,*
*Qurbangilə qaşdım, şalı salladım,*
*Fatma xala mənə corab bağladı,*
*Xan nənəmi yada salıb ağladı.*

*Bayram olub, qızıl palçıq əzəllər,*
*Naxış vurub, otaqları bəzəllər*
*Taxçalara düzmələri düzəllər,*
*Qız-gəlinin findıqçası, hənası,*
*Həvəslənər anası, qaynanası...*

Mənbələr göstərir ki, bayram axşamlarında kuzə falını icra edərdilər. Axşamüstü xanımlar bir kuzəni götürüb onun içinə müxtəlif əşyalar atardılar, məsələn, üzük, sırğa, düymə və sair. Kuzəni bulaq suyu ilə doldurub ağzını güzgü ilə örtüb qoyurlar. Çərşənbə gecəsinin səhəri gün çıxandan sonra qadınlar ayini sona çatdırmaq məqsədilə yenə bir yerə yığışır. Balaca bir qız kuzədən əşyaları bir-bir çıxarır, çıxardıqca iştirakçılardan biri həmin tərəfə baxmır, ürəyində niyyət tutur. Kuzədən çıxarılan əşyalar barədə müəyyən sözlər deyilir ki, bu da həmin əşyanın yiyəsinin niyyətindən xəbər verir.

Novruz süfrəsi insan sağlamlığını möhkəmləndirən, insanın ömrünü uzadan müxtəlif nemətlərlə zəngindir. Bu nemətlər arasında "yeddiləvin", yəni "s" hərfi ilə başlanan nemətlərin - su, səməni halvası, südlü aş, süd, süzmə, səməni şorbası və onun üzərinə səpmək üçün sumaq qoyulmalıdır. Vaxtilə hamı bayram süfrəsinin ətrafına "Novruz topu" atılandan sonra toplaşardı. Bayram axşamı hər evdə bayram plovu dəmlənir, bəzi bölgələrdə quru balıqla bişirilən südlü plov, şirin plov, əriştəli aş, qaralı aş və s. təamlar hazırlanır. Novruz xonçasının tarixi çox qədim dövrlərlə bağlıdır. Xonçaya düzülən ənənəvi Novruz şirniyyatları, qırmızı alma, boyanmış yumurta və s. hər biri erkən mifoloji təsəvvürləri əks etdirir.

Etiqada görə, Novruz süfrəsində hər ailə üzvünün adına şam yandırılır, hətta evdə olmayan, yaxud dünyasını dəyişmiş üzvü də yad edilsin deyə adına şam yandırılardı. Şamları yarımçıq söndürmək olmaz, onlar axıra kimi yanmalıdır.

Novruz həm də sülh, dostluq, həmrəylik, humanizm bayramıdır. Bu bayramda hamı öz sevinci ilə paylaşmalı, hər kəs kədərdən uzaq olmalıdır. İnsanlar bu əziz bayramı səbirsizliklə gözləyir, çünki onun gəlişilə qəlblərə istilik , xoşbəxtlik və xoş duyğular gəlir.

Azərbaycanda olan milli-mənəvi və multikultural ənənələr dünyanın əksər dövlətlərinə nümunə olacaq mədəni, etik-estetik dəyərlərin göstəricisi olduğu kimi, həm də müxtəlif xalqlar arasında möhkəm birliyin, sülhün və həmrəyliyin əyani sübutudur.

***Ülkər NƏBİYEVA,***
***Bakı Dövlət Universitetinin professoru,***
***filologiya elmləri doktoru***

# Yazın gəlişini axıskalılar da təntənə ilə qeyd edirlər

**Novruz Azərbaycan xalqının zəngin maddi və mənəvi dəyərlərinin mühüm bir hissəsini özündə ehtiva edən mədəniyyət hadisəsidir. Bu bayram ən qədim bayramlardan olduğundan bir çox xalq onu müxtəlif rəvayət və bağlarla "özününküləşdirməyə" səy göstərir.**

Tədqiqatçı-alim Elməddin Əlibəyzadə qeyd edir ki, qədim şumer eposu "Bilqamış" dastanında bahar bayramımız "yeni il", "yeni gün", "yazın ilk günü","bahar bayramı" adlandırılır, bolluq, bərəkət rəmzi kimi xatırlanır. Təbiət ilə həmahəng yaşanan, torpağı "ana" qədər dəyərləndirilən Azərbaycanda "baharın gəlişi" önəmli bir hadisədir. Keçmişdə olduğu kimi, bu gün də Azərbaycanda və digər dövlətlərdə yaşayan türk mənşəli toplumlar Novruzu Bahar bayramı kimi qeyd edirlər.

Ölkəmizdə yaşayan 15-dən artıq azsaylı xalqın nümayəndələri, o cümlədən Axıska türkləri də Novruz bayramını bizimlə birlikdə "hamımızın bayramıdır" deyə yüksək əhvali-ruhiyyə ilə qeyd edirlər. Novruz quruluşca mürəkkəb, məzmunca dərin və geniş məna kəsb edir.

Xatırladaq ki, Axıska türkləri sovet lideri Stalin tərəfindən 1944-cü il noyabr ayının 14-də öz tarixi torpaqlarından yük vaqonlarına doldurularaq keçmiş SSRİ-nin müxtəlif ərazilərinə, xüsusən də Mərkəzi və Orta Asiya ölkələrinə sürgün olunublar. 1959-cu ildən etibarən onlar müxtəlif respublikalara köç ediblər. O cümlədən vaxtilə Qafqazda yaşayan altı etnik xalqdan biri olan axıskalılardan Gürcüstana və Azərbaycana gələnlər də çox olmuşdur. Onların Şəmkir, Quba, Xaçmaz, Saatlı, Sabirabad, Şabran və digər bölgələrdə toplum halında yaşadıqları məlumdur. Məmnunluq doğuran odur ki, Axıska türkləri yaşadıqları kənd və qəsəbələrdə yerli azərbaycanlı əhali ilə daha səmimi, daha mehriban münasibət yaratmışlar. Onlar da elin, obanın xeyrində, şərində canyanğısı ilə iştirak edir, xalqımızın milli bayramlarında, Ramazan və Qurban bayramlarında, habelə Novruzda ailəlikcə, böyük həvəslə bu bayramların iştirakçısına çevrilirlər.



Gəncə şəhər sakini, pensiyaçı-ağsaqqal Qasım Əliyev bildirir ki, qədim Gəncədə, eləcə də ətraf rayonlarda çoxsaylı Axıska türkləri yaşayır: "Mən onları Gəncəyə 1959-1960-cı illərdə Orta Asiyadan sürgündən dönəndən tanıyıram. O vaxtdan onlar yerli camaatla - böyükləri böyüklərlə, uşaqları uşaqlarımızla elə qaynayıb-qarışıb ki, indiki gənclər bəzən bilmirlər ki, o, Axıska türküdür, ya azəri türkü. Çünki xeyrimizi, şərimizi, bayramlarımızı, el şənliklərimizi, eləcə də bütün türk dünyası üçün çox əziz olan Novruz bayramını birlikdə keçiririk.

Novruz çərşənbələri yaxınlaşdıqca bayram hazırlıqlarına başlanılır. Buraya ev-eşiyin, həyət-bacanın təmizlənməsi, bayram sovqatlarının və yeməklərinin hazırlanması və sair daxildir. Azərbaycanlılarda olduğu kimi, axıskalı ailələrdə də bu adət var. Küsülülük barışla əvəzlənəndə sosial harmoniya bərpa olunur.

Yumurta döyüşdürülməsi iki dünyanın - qışla yazın, soyuqla istinin mübarizəsini nümayiş etdirməkdir. "Toxum cücərtmək", "səməni qoymaq" təbiəti canlandırmaq, ona təsir etmək vasitəsi kimi anlaşılır. Axıska türklərində Novruza aid olan bayram adətlərindən biri də müxtəlif şəkildə adlandırdıqları, azərbaycanlı azyaşlılarla birlikdə icra etdikləri torba atmaq, "qulaq falı" və ya "qapı pusmaq"dır. Sonrakı dövrlərdə bəzi axıskalılar "torba atmağ"ı "qurşaq tutmaq" və ya şal sallamaqla əvəzləmişlər.

Axıskalılar azəbaycanlı qonşu və qohumları kimi, müasir dövrün "torba atmaq" mədəniyyətində "dəsmal atmaq" və "papaq atmaq" kimi yeni vasitələrdən istifadə edirlər. Ənənəyə görə papağı boş qaytarmaq olmaz. Novruzun papaq atmaq kimi dillər əzbəri olan bu adətini yerinə yetirən uşaqlar yetərincə əylənirlər.

Novruz Şərq ölkələrini - Mərkəzi Asiya (Qazaxıstan, Sibir, Altay və Şimal Qərbi Çin türkləri - uyğurlar), Ön Asiya (Şərqi Anadolu, Zaqafqaziya, Cənubi Azərbaycan və Özbəkistan türkləri) və Şərqi Avropanı (qaqauzlar, Krım, Bolqarıstan, Yuqoslaviya, Kipr türkləri) əhatə edən coğrafiyada yaşayan türk xalqları və axıskalılar tərəfindən məzmun etibarilə eyni, şəkilcə müxtəlif formada həyata keçirilir.

Novruz şənliklərində məktəblilər müxtəlif kompozisiyalarda səhnəciklər hazırlayırlar. Vaxtilə Əlican Əzizovun da iştirak etdiyi "Özbək, türkmən, uyğur, tatar, azər bir boydur" mahnısı şənliyin ən yaddaqalan və insanları coşduran parçasıdır. Qaşıqda yumurta daşıma, kisə (çuval) geyinərək qaçma yarışı, bir-birini arxasında daşımaq kimi yarışlar və məclisə ağ geyimli, əli çiçəkli Bahar qızın gəlişi Axıska türklərinin iştirakı ilə təşkil edilən Novruz şənliklərinin ən gözəl çalarlarıdır.

Ölkəmizdə azsaylı xalqların böyük sevinc hissi ilə azərbaycanlılarla birgə keçirdiyi Novruz mədəniyyətlərin ortaq bir bayramıdır. Müasir dövrümüzün bu ortaq bayramı yaşamaq sevinci, bolluq, bərəkət və barış harmoniyalı olaraq ənənələşmişdir.

Qeyd edək ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və şanlı ordumuzun şücaəti ilə 30 illik erməni işğalından azad edilən Qarabağ və Şərqi Zəngəzur bölgələrində bayram əhvali-ruhiyyəsi çox yüksəkdir. Böyük qayıdışın sədaları altında öz doğma yurdlarına qovuşan soydaşlarımızın həyətlərindəki tonqalların, yeni mənzillərində yandırdıqları bayram şamlarının şöləsi, habelə Novruz şirniyyatlarının özəlliyi könülləri riqqətə gətirir, insanlarda daha xoş ovqat yaradır.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Elimizə bahar gəlir...

Yurdumuza bahar gəlir... Gəlişi ilə təbiətə gözəllik, insanlara xoş əhvali-ruhiyyə, sevinc, sevgi, xoşbəxtlik gətirir... Bahar fəsillərin şahı, onun gəlişini müjdələyən Novruz bayramı isə tacıdır. İlıq nəfəsi ilə ana torpağı oyadan Novruzun gəlişi ilə eldə, obada toy-büsat qurulur.

Novruz - yeni gün, yeni arzu, yeni istək deməkdir. Əsrlərin sınağından çıxmış mənəvi dəyərlərimizi, adət-ənənələrimizi özündə yaşadan bu bayram insanlar arasında birliyin və mehribanlığın, barışın rəmzi kimi qəbul edilir. Novruz başdan-başa ruh yüksəkliyi, əmək coşqunluğu, torpağa, insana məhəbbət bayramıdır.











Yurdumuzda hər il bu bayrama 40 gün qalmış hazırlıq işlərinə başlanır. Hər il xalqımız Novruzun Su, Od, Yel və Torpaq çərşənbələrini tonqal ətrafında bayram əhvali-ruhiyyəsi ilə qeyd edir. Bayram ərəfəsində Azərbaycanın hansı guşəsinə ayaq bassan, orada yüksək ovqatla qarşılanarsan. Novruz bayramı təzə ili, baharın ilk gününü qarşılamaq deməkdir. Novruz həm də bərabərlikdir. Yalnız insanların yox, həm də təbiətin bərabərliyi... Günəş dünyanın cənub yarımkürəsindən şimal yarımkürəsinə keçdiyi vaxt gecə ilə gündüz bərabərləşir. Bu vaxt qış qurtarır, yaz başlayır. İnsanlar yazın gəlişini, baharın ilk gününü, təbiətin canlanmasını, torpağın oyanmasını bayram edirlər... Novruz bolluq, xeyirxahlıq, gözəllik bayramıdır. Bu bayramda Novruz süfrəsi, Novruz xonçası qurulur. Bu süfrəni hazırlamağa İlaxır çərşənbədən başlanılır. Süfrəyə düzmək üçün müxtəlif şirniyyatlar bişirilir. Bunlara şəkərbura, paxlava, şəkərçörəyi və sair aiddir.

Novruz gecəsi insanlar ürəklərində yeni arzu, yeni dilək tutarlar. Onu da qeyd edək ki, illərlə dilimizdə bir dua, ürəyimizdə bir istək var idi. Yurdumuz düşmən işğalından azad edilsin! Şuşada, Laçında, Qubadlıda, Zəngilanda, Xocalıda dağların başında bayram tonqalları alovlansın! Yurdundan məcburi didərgin düşmüş insanlarımız öz torpaqlarına qayıtsınlar...

Şükürlər olsun ki, bu duamız da qəbul edildi. Tanrıya uzanan əllərimiz naümid yanımıza düşmədi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə torpaqlarımız işğaldan azad edildi. Qarabağımızın və Şərqi Zəngəzurun başı üzərindən qara buludlar çəkildi. Elə bu torpaqlarda ilk Novruz tonqallarını da Qarabağın xilaskarı, o torpaqlara yenidən həyat verən, cənnətə döndərən Prezident İlham Əliyev və xalqımızın sevimli qızı, kimsəsizin, maddi və mənəvi dəstəyə ehtiyacı olanların mənəvi anası Mehriban xanım Əliyeva alovlandırdılar.

İndi yurdumuzun hər yerində bayram tonqalları, sevgi, xoşbəxtlik, mərhəmət alovları işıq saçır. Ürəklərdən od götürən bu tonqallar yalnız insanların qəlbinə yox, illərdir sahibini gözləyən torpaqlara da nur səpir. Yurdumuzun hər yerində bayram əhvali-ruhiyyəsi yaşanır.

Elimizdə bir adətdir, evlərdən başlayan səliqə-sahman işləri idarə və müəssisələrdə, əmək kollektivlərində davam etdirilir. Novruz həm də gözəllik deməkdir. Elimizin hər yerində abadlıq, quruculuq, səliqə-sahman işləri aparılır. Hər şey təzələnir, fasadlar boyanır, həyət-bacada gül çiçəklər əkilir...

Bu bayram ərəfəsində insanların üzləri kimi, ürəkləri də gülür. Bu günlərdə insan hara baxırsa, gözü gözəllik görür. Gülən ürəkləri, sevinən gözləri görəndə adam gücü çatdıqca, səsi yetdikcə ucadan, lap ucadan "Nə gözəl yaraşır bizlərə bayram" demək istəyir.

***Elşən QƏNİYEV,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

# "Yazın Şanslı Sığortası" tirajlı

## STİMULLAŞDIRICI LOTEREYANIN ŞƏRTLƏRİ

**1. Ümumi müddəalar**

1.1. **"Yazın Şanslı Sığortası"** tirajlı stimullaşdırıcı lotereyanın şərtləri (bundan sonra "Şərtlər" adlandırılacaq) "Lotereyalar haqqında" Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin Kollegiyasının 05.12.2022-ci il tarixli 21 nömrəli qərarı ilə təsdiqlənmiş "Stimullaşdırıcı Lotereyanın təşkili və keçirilməsi Qaydası"na əsasən hazırlanmışdır.

1.2. Şərtlər **"Yazın Şanslı Sığortası"** tirajlı stimullaşdırıcı lotereyanın (bundan sonra "lotereya" adlandırılacaq) təşkili və keçirilməsi ilə bağlı məlumatları əks etdirən rəsmi sənəddir.

1.3. Şərtlərdə istifadə olunan əsas anlayışlar "Lotereyalar haqqında" Azərbaycan Respublikasının Qanununda və "Stimullaşdırıcı Lotereyanın təşkili və keçirilməsi Qaydası"nda nəzərdə tutulmuş mənada başa düşülür və tətbiq edilir.

**2. Lotereyanın təşkili və keçirilməsi qaydaları**

2.1. Lotereya təşkilatçısı hüquqi ünvanı Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170, VÖEN-i 1400837161 olan və Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının 12 oktyabr 2016-cı il tarixli 476 nömrəli lisenziyası əsasında fəaliyyət göstərən "PAŞA Sığorta" Açıq Səhmdar Cəmiyyətidir (bundan sonra "Sığortaçı" və ya "Təşkilatçı" adlandırılacaq).

Əlaqələndirici şəxs: Təşkilatçının əməkdaşı olan Brilyant Quliyeva.

*Telefon: +994(12)505-12-22; mobil telefon nömrəsi: +994(10)253-83-74.*

2.2. Lotereya Sığortaçının avtomobillərin könüllü sığortası məhsullarının fiziki şəxslərə münasibətdə dövriyyəsinin artırılması məqsədi ilə keçirilir.

2.3. Lotereyanın başlama tarixi: 14.03.2025-ci il.

2.4. Lotereyanın son tarixi: 15.05.2025-ci il.

2.5. Uduş fondu 27.05.2025-ci il tarixdə 1 tirajla oynanılacaq.

2.6. Lotereya Azərbaycan Respublikasının ərazisində keçiriləcək.

2.7. Lotereyada Sığortaçı ilə yalnız 14.03.2025-15.05.2025-ci il tarixlərdə avtomobillərin könüllü sığortası üzrə müqavilə bağlayan və bu Şərtlərlə müəyyən edilmiş məbləğdə sığorta haqqı ödəyən müştərilər (2.8-ci bənddə nəzərdə tutulan şəxslər istisna olmaqla) iştirak edəcəklər.

2.8. Sığortaçının əməkdaşları, lotereyanın başlama tarixindən əvvəlki 1 ili əhatə edən dövr ərzində, eləcə də lotereyanın başlama tarixindən uduş fondunun oynanıldığı tarixədək (həmin tarixlər daxil olmaqla) Sığortaçı ilə bağlanmış əmək müqaviləsinə xitam verilmiş şəxslər, Sığortaçıya aidiyyəti olan şəxslər, qeyri-rezidentlər, hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər (fərdi sahibkarlar) lotereyada iştirak etmir.

2.9. Müştərilər lotereyada iştirak şansı qazandıran sığorta müqavilələrinin bağlanması üçün aşağıdakı satış kanallarından istifadə edə bilərlər:

2.9.1. onlayn satış kanalları - "PAŞA Sığorta" ASC-nin rəsmi internet səhifəsi, onlayn satış portalı və mobil tətbiqetməsi;

2.9.2. telesatış kanalları - *7000 qaynar xətti;

2.9.3. sığorta vasitəçiləri (sığorta agentləri);

2.9.4. fiziki olaraq - "PAŞA Sığorta" ASC-nin baş ofisinə, satış ofisinə və ərazilər üzrə nümayəndəliklərinə yaxınlaşmaqla;

2.9.5. hibrid satış kanalları vasitəsilə (2.9.1-2.9.4-cü bəndlərdə nəzərdə tutulan satış kanallarının bir neçəsindən eyni zamanda istifadə etməklə).

2.10. Lotereya müddəti ərzində Şərtlərin 2.7-ci bəndində nəzərdə tutulan sığorta müqavilələri üzrə ödənilən hər 99 AZN müştərilərə lotereyada 1 iştirak şansı qazandıracaq.

*Misal 1: Müştəri 751 AZN sığorta haqqı ödəyərsə, 7 şans qazanacaq.*

*Misal 2. Müştəri lotereya müddətində müxtəlif müqavilələr üzrə ayrılıqda 70 AZN və 60 AZN dəyərində sığorta haqqı ödəyərsə, ümumilikdə 99 AZN-dən çox sığorta haqqı ödənişi etmiş olsa da, lotereyada iştirak şansı qazanmır.*

2.11. Şans qazandırmayan ödənişlər aşağıdakılardır:

2.11.1. sığorta haqqı məbləği 99 AZN-dən az olan sığorta müqaviləsi üzrə ödənişlər;

2.11.2. şərtlərin 2.7-ci bəndində nəzərdə tutulan sığorta müqavilələri istisna olmaqla digər müqavilələr üzrə istənilən həcmdə ödənişlər;

2.11.3. sığortalının müraciəti ilə sığortalısı dəyişdirilən və/və ya sığortalının tələbi ilə vaxtından əvvəl xitam verilən sığorta müqavilələri üzrə həyata keçirilmiş sığorta haqqı ödənişləri.

2.12. Uduş fondunun oynanılması 1 tirajda həyata keçiriləcək. Tirajda aşağıda göstərilən qayda üzrə qalib elan ediləcək:

*3 (üç) nəfər "Baku Electronics" mağazasından 2000 AZN (iki min manat) dəyərində hədiyyə kuponu, 3 (üç) nəfər "PASHA Travel" turizm şirkətindən 1000 AZN (min manat) dəyərində şirkətin təqdim etdiyi istənilən xidməti əldə etmək üçün vauçer, 3 (üç) nəfər Apple Iphone 16 Pro Max (yaddaş - 256 GB), 2 (iki) nəfər Macbook Air 13.6 Apple M2 və 1 (bir) nəfər Hyundai Elantra avtomobili (istehsal ili 2024, rəngi gümüşü, yürüyüş 0 km) qazanacaq. Ümumi olaraq tirajda 12 nəfər qalib elan ediləcək.*

2.13. Bir müştəri tirajda yalnız bir dəfə qalib ola bilər.

2.14. Müştərilər Təşkilatçının rəsmi internet saytına (www.pasha-insurance.az) keçid edərək lotereyanın şərtləri ilə tanış ola bilərlər.

2.15. Şanslar "PAŞA Sığorta" ASC-nin müştərilər üzrə məlumat bazasında *(Fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrində 15.03.2013-cü il tarixində İS400405001 reyestr nömrəsi ilə qeydiyyata alınmışdır)* hesablanacaq və elektron bilet formalaşdırılacaq. Əldə olunmuş şans barəsində SMS vasitəsilə bilet sahibinə bildiriş göndəriləcək. Bilet sahibi əldə etdiyi biletlərlə özünün müştəri kabinetində tanış ola bilər.

2.16. Lotereyanın son tarixindən (15.05.2025-ci il) uduş fondunun oynanılacağı tarixədək (27.05.2025-ci il) məlumat bazasında formalaşmış biletlərin bu Şərtlərin 2.8-ci və 2.11-ci bəndlərinə uyğunluğu Təşkilatçı tərəfindən yoxlanılacaq. Sığortaçının əməkdaşlarının, Sığortaçıya aidiyyəti olan şəxslərin, qeyri-rezidentlərin, hüquqi şəxslərin və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin (fərdi sahibkarlar) bilet əldə etdiyi müəyyən olunarsa, həmin biletlər uduş fondunun oynanılması üçün elektron püşkatmanı həyata keçirən xüsusi kompüter proqramına (https://www.app-sorteos.com veb saytı) daxil edilməyəcək.

2.17. İştirak şansı qazanan müştərilərə dair aşağıdakı məlumatlar proqramda hazırlanmış xüsusi siyahıya daxil ediləcək:

- Elektron biletin nömrəsi (iki hərf və altı rəqəm kombinasiyasından ibarət olmaqla);
- Lotereya iştirakçısının adı, soyadı, atasının adı, doğum tarixi;
- Lotereya iştirakçısının şəxsiyyətini təsdiq edən sənədin FİN kodu;
- Lotereya iştirakçısının mobil nömrəsi;
- Lotereya iştirakçısının iştirak şansı qazandığı sığorta ödənişinin aid olduğu sığorta müqaviləsinin nömrəsi.

2.18. Qalib tərəfindən uduşun alınması hüququnun üçüncü şəxslərə güzəşt edilməsinə yol verilmir.

2.19. Əldə edilən qeyri-pul uduşlarının pul ekvivalentinin ödənilməsinə yol verilmir.

2.20. Sığortaçı tərəfindən uduş fonduna əlavə vəsaitin qoyulması və həmin vəsaitin udulmamış hissəsinin geri götürülməsi nəzərdə tutulmamışdır.

2.21. Tiraj Bakı şəhəri, Səbail rayonu, Mikayıl Useynov prospekti, 61 ünvanında keçiriləcəkdir.

2.22. Uduş fondunun oynanılması https://www.app-sorteos.com veb saytı vasitəsilə elektron püşkatma qaydasında həyata keçirilir. Lotereyanın uduş fondunun oynanılması "YouTube" platformasında "PASHA Insurance" kanalında (@pashainsurance4129) birbaşa olaraq yayımlanır.

2.23. Lotereyanın uduş fondunun təyin edilmiş qaydalar əsasında oynanılmasına nəzarət məqsədi ilə tiraj komissiyası və komissiya sədri təyin ediləcəkdir. Təşkilatçı uduş fondunun oynanılmasına azı 1 (bir) iş günü qalmış tiraj komissiyasının üzvləri haqqında məlumatı Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim edir. Tiraj komissiyasının sədri müəyyən edilmiş tarixdə, vaxtda və yerdə toplaşaraq uduş fondunun oynanılmağa başlandığını elan edir. Eyni məqsədlərlə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin lotereyaların keçirilməsinə nəzarəti həyata keçirən müvafiq strukturunun əməkdaşları üçün lotereyanın keçirilməsində istifadə olunan xüsusi proqram təminatına giriş imkanı (istifadəçi adı və şifrə) Təşkilatçı tərəfindən təqdim edilir.

2.24. Tirajda seçimə başlanılarkən hər dəfə oynanılan hədiyyənin adı elan olunur. Növbəti mərhələdə lotereya üzrə aparıcı, tiraj komissiyasının sədri və ya üzvlərindən biri müvafiq düyməni basmaqla proqramı işə salır. İşə salınmış proqram 10 saniyə ərzində yüksək sürətlə qaydasız şəkildə cədvəldə olan bilet nömrələrini bir-bir seçir. Proqram seçimi dayandırdıqda kompüterin monitorunda proqramın seçdiyi sonuncu bilet nömrəsi göstərilir. Bu Şərtlərin 2.24.1-ci bəndində göstərilən hallar istisna olmaqla həmin bilet uduşlu sayılır. Uduşlu biletin nömrəsi kompüterin monitorunda göstərilir və tiraj komissiyası tərəfindən bu barədə müvafiq qeydiyyat aparılır.

2.24.1. Proqram seçimi tamamladıqdan sonra kompüterin monitorunda proqramın seçdiyi sonuncu biletin bu Şərtlərin 2.13-cü bəndinin tələblərinə uyğunluğu tiraj komissiyası tərəfindən yoxlanılır. Proqramın seçdiyi sonuncu bilet tirajda daha öncə qalib olmuş iştirakçıya məxsus olduqda tiraj komissiyası biletin uduşlu olmadığını elan edir və həmin hədiyyə yenidən oynanılır.

2.24.2. Proqramın seçdiyi biletin bu Şərtlərin 2.13-cü bəndinin tələblərinə uyğunluğu tiraj komissiyası tərəfindən təsdiq edildiyi halda tiraj komissiyası biletin uduşlu olduğunu elan edir.

2.25. Təşkilatçı uduş fondunun oynanıldığı tarixdən 5 (beş) iş günündən gec olmayaraq uduş fondu və uduşa düşmüş lotereya biletlərinin nömrələri və (və ya) seriyaları barədə məlumatı mediada elan edir və 7 (yeddi) iş günündən gec olmayaraq uduşların verilməsi (ödənilməsi) üçün uduşlu lotereya biletlərinin qəbul müddəti və uduşların verilməsi (ödənilməsi) qaydaları haqqında məlumatı özünün internet səhifəsində yerləşdirir.

2.26. Lotereya iştirakçısı 18 yaşına çatmış fiziki şəxslər (2.8-ci bənddə nəzərdə tutulan şəxslər istisna olmaqla) ola bilər.

2.27. Qalib olan müştərilər uduş fondunun oynanıldığı tarixdən 7 (yeddi) iş günü sonra və 90 (doxsan) iş günü ərzində şəxsiyyəti təsdiq edən sənədi təqdim edərək Sığortaçının baş ofisinə (Bakı şəhəri, Səbail rayonu, Mikayıl Useynov prospekti, 61) müraciət edə bilərlər. Uduş qalib olan müştərinin tələbi irəli sürüldüyü tarixdən etibarən 30 (otuz) iş günündən gec olmayaraq ona verilir. Uduş qalibi olan müştəri uduşun ona təqdim edilməsi üçün şəxsiyyəti təsdiq edən sənədi təqdim etməlidir.

2.28. Uduş fondunun oynanıldığı tarixdən 7 (yeddi) iş günü sonra və 90 (doxsan) iş günü ərzində qalib olan müştəri uduşu əldə etmək üçün müraciət etmədiyi təqdirdə uduş Təşkilatçının sərəncamında qalır.

2.29. Təşkilatçı lotereyanın şərtlərinə edilmiş əlavələr və (və ya) dəyişikliklər haqqında uduş fondunun oynanılması tarixinə azı 3 (üç) iş günü qalmış media vasitəsilə elan edəcəkdir.

**3. Yekun müddəalar**

3.1. Lotereyanın təşkili və keçirilməsi ilə əlaqədar digər münasibətlər Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir.

3.2. Bu Şərtlər lotereya iştirakçılarının tanış ola bilməsi üçün "Azərbaycan" qəzetində, Təşkilatçının rəsmi saytında (www.pasha-insurance.az) açıqlanır və lotereyanın Təşkilatçısı və iştirakçıları üçün məcburi qüvvəyə malikdir.

3.3. Qaliblərin siyahısı və onlar haqqında məlumat www.pasha-insurance.az saytında və "Azərbaycan" qəzetində yerləşdiriləcəkdir.


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


AZƏRBAYCAN
Avropanın Azərbaycana ehtiyacı var
Şimali Makedoniya Prezidentinin ölkəmizə səfəri möhkəm dostluğun təməli olacaq
Dostluğa və qardaşlığa əsaslanan üçtərəfli əməkdaşlıq formatı
"Dəmir yumruq" işə düşsə...
Ermənistan xarici siyasətini Avropa İttifaqının diktəsi ilə qurur

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Neft Emalı Zavodunda baş vermiş yanğınla bağlı DTX-də cinayət işi başlanılıb

Martın 5-də Bakı şəhərinin Nizami rayonu ərazisində yerləşən SOCAR Neft Emalı Zavodunda baş vermiş yanğın hadisəsi ilə bağlı aidiyyəti dövlət orqanları ilə birgə kompleks tədbirlər həyata keçirilib.

Dövlət Təhlükəsizliyi Xidmətinin Mətbuat xidmətindən verilən məlumata görə, ilkin araşdırmalar zamanı müəyyən edilib ki, SOCAR Neft Emalı Zavodunun 2 nömrəli istehsalat sahəsinin 21 nömrəli ilkin emal qurğusunun N-21/1 saylı nasos sisteminin iş planına uyğun təmirə hazırlanması prosesində müvafiq təhlükəsizlik qaydalarına əməl edilməyib. Belə ki, növbə qəbulu zamanı nasosda mazut axınının davam etməsi barədə birbaşa xəbərdaredici yazılı məlumat verilməsinə baxmayaraq, martın 4-5-də olan növbə heyəti qurğunu təmirə tam hazır vəziyyətə gətirmədən və borunun ağır dizel fraksiyası ilə təmizlənərək boş olmasını təmin etmədən təmir-bərpa qrupuna təhvil verib. Nəticədə nasos avadanlığı ümumi qurğudan təmir məqsədilə ayrılarkən tezalışan mazut kütləsinin borudan təzyiq altında sızaraq, alovlanıb geniş ərazini əhatə edən yanğın yaratması insanların həyat və sağlamlığına ciddi təhlükə doğurub. Həmçinin ilkin emal qurğusunun istismardan çıxarılmasına, ətrafda olan konstruksiyaların yanmasına və əlaqəli digər texniki qurğuların sıradan çıxmasına, habelə yanacaq materiallarının istehsalı prosesində fasilələr yaranmasına və maddi ziyan vurulmasına səbəb olub.

Bundan başqa, martın 8-də yanğının nəticələrinin aradan qaldırılması və qurğunun təmirə hazırlanması prosesi çərçivəsində eyni növbə heyəti tərəfindən həmin ilkin emal qurğusunun borularında və qurğuda olan dizel məhsulunun boşaldılması zamanı təhlükəsizlik qaydaları pozulub, ərazidə qaynaq işləri aparılmasına baxmayaraq, dizel məhsulu emal qurğusunun yerləşdiyi torpaq sahəsinə axıdılıb, bununla da təkrar yanğın təhlükəsi yaranıb, müəssisədə iş prosesi pozulub və maddi ziyan vurulub.

Faktla bağlı Dövlət Təhlükəsizliyi Xidmətində aparılan cinayət işi üzrə növbə heyəti rəhbəri, baş operator Qarayev Sadiq Hümbət oğlu saxlanılaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 223.2-ci (partlayış təhlükəli obyektlərdə təhlükəsizlik qaydalarının pozulması) maddəsi ilə cinayət məsuliyyətinə cəlb olunub.

Hazırda cinayət işi üzrə ibtidai istintaq davam edir.

# Əlilliyi olan 20,3 min şəxsə reabilitasiya xidmətləri göstərilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi bu ilin yanvar-fevral aylarında əlilliyi olan 20,3 min şəxsi reabilitasiya xidmətləri ilə təmin edib.



Onlardan 11,2 mininə ambulator, 4,4 mininə stasionar və icma əsaslı, digərlərinə səyyar və onlayn formada, sosial-psixoloji, ippoterapiya istiqamətləri üzrə reabilitasiya xidmətləri göstərilib. Agentliyin reabilitasiya müəssisələrində ənənəvi üsullarla yanaşı, qabaqcıl dünya təcrübəsinə uyğun reabilitasiya metodları (robotic, sosial-psixoloji reabilitasiya, yoqa, ippoterapiya, rəqs terapiyası və s.) də tətbiq edilir.

Həmçinin stasionar və ambulator xidmətlərlə bərabər, icma əsaslı, telereabilitasiya, səyyar formalarda da reabilitasiya xidmətləri göstərilir.

# "Novruz xonçası" - musiqili xeyriyyə tamaşası

3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzi və "Çinar Yayımları" Nəşriyyatının birgə təşkilatçılığı ilə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında Novruz bayramına həsr olunmuş "Novruz xonçası" adlı musiqili xeyriyyə tamaşası keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbirdə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində olan internat məktəblərinin şagirdləri tamaşaçı qismində iştirak ediblər.

Musiqili tamaşada mərkəzin teatr dərnəyinin üzvləri, rəqs kollektivinin uşaqları, gənc vokalçıları tamaşaçılar qarşısında çıxış edərək xalqımızın qədim və sevimli bayramı olan Novruz adət-ənənələrini göstəriblər.

Tamaşanın sonunda tədbirə dəvət alan uşaqlara hədiyyələr verilib.

## ALLAH RƏHMƏT ELƏSİN!

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Elsevər Məmmədova atası

**YUSİF MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin Maliyyə və təsərrüfat şöbəsinin müdiri Elnur Həsənliyə əzizi

**İSKƏNDƏR HƏSƏNLİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3511
Sifariş 532

Qiyməti 60 qəpik